RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 237 (9404) 29 OKTYABR 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






## Xalqı hədəflərinə çatdıran Lider

Prezident İlham Əliyevin oktyabrın 15-də Xankəndinin mərkəzi meydanında, Azərbaycanın dövlət gerbi, dövlət bayrağı altında xalqımıza müraciət etdiyi o an bütün dünya azərbaycanlılarının son əsrlərdəki ən böyük qürurverici anlarındandır. Bu əlamətdar bir tarixi hadisədir. Ali Baş Komandanın bəyan etdiyi kimi, bu qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər.

Qarabağdakı separatçı yuvasının dağıdılmasının, Xankəndidəki xunta rejiminin ömrünə son qoyulmasının 1923-cü ildə Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının 100-cü ilinə təsadüf etməsi də Azərbaycan xalqının şanlı qələbəsinin daha bir rəmzidir. Tarixi ədalətin, bir əsr sonra da olsa, öz yerini tutmasıdır. Bu 100 il Azərbaycan xalqı üçün çətin sınaqlar əsri oldu. Tarix torpaqlarımızda yuva qurmuş erməni separatçılarının əli ilə bizi ən ağır imtahana çəkdi, min bir acı yaşatdı, olmazın əzablar verdi. Dövlət himnimizin misralarında da səsləndiyi kimi, minlərlə can qurban oldu. Böyük bir şər ordusu ilə, başımıza gətirilən faciələrlə Azərbaycan təkbaşına qaldı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, Türkiyədən başqa heç bir dövlət mənəvi dəstək belə göstərmədi. Onda bütün əsas güclər Ermənistanın arxasında idi. İşğala məruz qaldığımız halda işğalçı ilə bərabər tutulurduq. Haqq səsimizi eşidən yox idi. Torpaqlarımızın hissə-hissə qoparılması, xalqımıza qarşı törədilən soyqırımları, itkilər, inkişafımıza mane olmaqdan ötrü böyük güclərin qarşımıza qoyduqları problemlər və başqa bu kimi kədərli reallıqlarla xarakterik idi. Buna baxmayaraq, yenə də əyilmədik, sınmadıq, mübarizəmizdən geri çəkilmədik. Azərbaycan Prezidenti İlham Əliyev bu reallıqları dəyişdi. İki əsrdə yoluna qoyulması mümkün olmayan münaqişəni ardıcıl işi, yüksək diplomatik fəaliyyəti, "dəmir yumruğ"un zərbəsi ilə həll etdi.

→ 5

## Azərbaycan-Türkiyə qardaşlığını və birliyini əbədiyyətədək yaşadacağıq



### Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Əlamətdar tarix - Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Sizi və Sizin simanızda qardaş Türkiyə xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Bir əsr bundan əvvəl Türk dünyasının böyük oğlu, mahir sərkərdə və dahi lider Qazi Mustafa Kamal Atatürk Türkiyə xalqını vahid bir ideal ətrafında birləşdirməyə müvəffəq olmuş, özünün ən möhtəşəm əsəri olan Türkiyə Respublikasını qurmaqla istiqlal mübarizəsini uğurla sona çatdırmışdı. Bu müstəsna gündə Ulu Öndər Atatürkün, onun silahdaşlarının və qəhrəman şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edirik.

İstiqlalına şəhidlərinin canı və qanı bahasına, çox mürəkkəb və ziddiyyətli beynəlxalq vəziyyətdə qovuşan Türkiyə Respublikası yüz il sonra qlobal siyasi xəritədə mühüm mövqeyə malik, dünyada əsas söz sahiblərindən biri olan, hər cəhətdən güclü və qüdrətli dövlətdir. Atatürkün əmanəti olan qardaş Türkiyənin son iyirmi ildə inkişaf tempi, dünya çapında ən öndə duran ordudan tutmuş yüksək texnologiya və innovasiyalara qədər bütün sahələrdə əldə etdiyi möhtəşəm nailiyyətləri, beynəlxalq aləmdə qazandığı etibarı və yüksək nüfuzu Sizin sarsılmaz iradənizin, yorulmaz fəaliyyətinizin və qətiyyətlə həyata keçirdiyiniz müdrik siyasətinizin nəticəsidir. Sizin əzmlə yürütdüyünüz strateji inkişaf xəttinə xalqınızın birmənalı dəstəyi, Sizə olan sonsuz inam və etimadı Türkiyənin gələcək uğurlarını və nailiyyətlərini təmin edəcək ən mühüm amillərdir.

Gündən-günə güclənən, ən qabaqcıl dövlətlərlə bir sırada layiqli yerini tutan müasir Türkiyəni görməkdən qardaş ölkə olaraq böyük qürur və fərəh hissi duyuruq. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı xalqlarımızın qardaşlığını, birliyini, həmrəyliyini ifadə etməklə yanaşı, ikitərəfli münasibətlərimizin əsl mahiyyətini əks etdirir. Fəxrlə qeyd etmək istəyirəm ki, bu fəlsəfənin sübutu olaraq hazırda Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr və müttəfiqlərdir.

Tarixən olduğu kimi, xalqlarımız bu gün də bir-birinin yanındadır, sevincini də, kədərini də birgə yaşayırlar. Azərbaycan xalqı Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Siz başda olmaqla qardaş Türkiyə dövləti və xalqının Azərbaycanın haqq işinə, ərazi bütövlüyünə göstərdiyi birmənalı siyasi dəstəyini və qətiyyətli mövqeyini heç zaman unutmayacaq.

Biz Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə əlaqələrini bundan sonra da bütün sahələrdə gücləndirmək əzmindəyik. Ortaq mənəvi dəyərlər, dini-mədəni köklər kimi sarsılmaz təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz həm də bölgədə sabitliyin, əmin-amanlığın, inkişafın və təhlükəsizliyin zaminidir.

Əminəm ki, ən böyük sərvətimiz olan Azərbaycan-Türkiyə qardaşlığını və birliyini əbədiyyətədək yaşatmaq və daha da möhkəmləndirmək, hərtərəfli əməkdaşlığımızı inkişaf etdirmək yolunda üzərimizə düşən şərəfli missiyamızı bundan sonra da birgə və uğurla yerinə yetirməyə davam edəcəyik.

Bu tarixi gündə Sizin və qardaş Türkiyə xalqının sevincinə qoşulur, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Türkiyə Respublikasına daim rifah, firavanlıq və yüksəliş arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 oktyabr 2023-cü il*

## Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstanın Karaqanda vilayətindəki şaxtada baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Qazaxıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 oktyabr 2023-cü il*

## Ermənistanın niyyəti xarici təşkilatlardan pul qoparmaqdır

Qarabağdan gələn ermənilərə "qaçqın" statusunun verilməsi də buna xidmət edir

→ 6

## Süni intellekt dövründə yeni texnologiyalar sürətlə inkişaf edir

Bu, "yaşıl iqtisadiyyat"ın formalaşmasına da geniş meydan verir

→ 11




## Etibarlı tərəfdaşlıqdan strateji müttəfiqliyə

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov "Azərbaycan" qəzetinə müsahibə verib

"Azərbaycan ilə Türkiyə bütün taleyüklü məsələlərdə sıx həmrəylik - sarsılmaz birlik nümayiş etdirərək bir-birinin mənafelərini - dövlət maraqlarını qətiyyətlə qoruyurlar. Xüsusi qeyd etmək lazımdır ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsini təmin edən mühüm amillərdən biri qardaş Türkiyə Cümhuriyyətinin ölkəmizə birmənalı və güclü mənəvi-siyasi dəstək göstərməsi, prinsipial mövqe nümayiş etdirməsidir. Müharibənin başladığı gündən, hətta ilk saatlardan etibarən başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla qardaş ölkə ictimaiyyəti Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etdi, həm reallıqların dünyaya çatdırılmasında, həm erməni yalanlarının ifşasında, həm də ikili standartlara əsaslanan siyasət həyata keçirən qərəzli dairələrin məkrli planlarının qarşısının alınmasında yüksək fəallıq nümayiş etdirdi. Prezident Rəcəb Tayyib Ərdoğan müxtəlif tribunalardan Azərbaycanın haqq işinə prinsipial dəstəyini ifadə etməklə beynəlxalq ictimaiyyətə önəmli mesajlar verdi, rəhbərlik etdiyi qüdrətli Türkiyə Cümhuriyyətinin Azərbaycanın yanında olduğunu bütün dünyaya bəyan etmiş oldu. Şübhəsiz ki, Azərbaycan xalqı və dövləti qardaş dəstəyini minnətdarlıq hissi ilə çox yüksək qiymətləndirir və heç vaxt unutmayacaqdır".

→ 3

## Qarabağ və Şərqi Zəngəzur modernləşdirilir, daha da gözəlləşdirilir

**Min illik qədim tariximizin saxlanc yeri, Azərbaycan əsgərinin qəhrəmanlıq dastanı yazdığı Qarabağ və Şərqi Zəngəzur bu gün ən şanlı günlərini yaşayır. Düşmənin viran qoyub xarabazara çevirdiyi yurd yerlərinə yenidən həyat verilir. Müasir yollar çəkilir, körpülər salınır, dağıdılmış infrastruktur bərpa edilir.**



Düşmənin 30 ilə yaxın qaranlığa qərq etdiyi Qarabağ nura boyanır. İşğaldan azad edilən ərazilərimizdə sürətlə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, təməli qoyulan "ağıllı şəhər"lər "ağıllı kənd"lər, sosial-iqtisadi obyektlər Qarabağın və Şərqi Zəngəzurun tezliklə Azərbaycanın çiçəklənən cənnətməkan diyarına çevriləcəyindən xəbər verir.

Qarabağın xilaskarı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə hər səfəri Qarabağ və Şərqi Zəngəzurun bir boy da inkişaf etməsi, gözəlləşməsi ilə diqqət çəkir. Yeni sosial, iqtisadi obyektlərin ya təməlqoyması, yaxud da istifadəyə verilməsi insanlarda xoş əhvali-ruhiyyə yaradır. Şuşada, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Laçında, Ağdamda və Füzulidə bu qısa müddət ərzində insan ağlına gələ bilməyəcəyi dərəcədə işlər görülür, böyük dəyişikliklər baş verir.

İlk növbədə qeyd edək ki, işğaldan azad olunmuş rayonların enerji təminatı demək olar ki, tam bərpa olunub. Ötən müddətdə bu rayonlarda 11 yerdə 110 kilovoltluq yarımstansiya tikilərək selektiv paylama ilə qidalandırılıb, dairəvi elektrik təchizatına nail olmaq üçün 330 kilovoltluq "Cəbrayıl" qovşaq yarımstansiyası ilə 110 kilovoltluq "Qubadlı" yarımstansiyası arasında ötürmə xətti çəkilib.

→ 8

# "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları" təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası qaydaları

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar valideyninin və ya digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası ilə bağlı təşkilati və hüquqi məsələləri tənzimləyir.

1.2. Bu Qaydaların məqsədi valideyninin və ya digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyasıvə reabilitasiyası üzrə aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi, baxımsız və sosial təhlükəli vəziyyətdə olan şəxslərin hüquqlarının müdafiəsidir.

1.3. Valideyninin və ya digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası üzrə tədbirlər həyata keçirilərkən Azərbaycan Respublikası Ailə Məcəlləsinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Sosial xidmət haqqında" Azərbaycan Respublikası qanunlarının, bu Qaydaların və digər normativ hüquqi aktların tələbləri rəhbər tutulur.

1.4. Bu Qaydaların məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.4.1. repatriasiya - valideyninin və ya digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşının Azərbaycan Respublikasına (bundan sonra - ölkə) gətirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin məcmusu;

1.4.2. repatriant - valideyninin və ya digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan və repatriasiya edilməsi nəzərdə tutulan yetkinlik yaşına çatmayan şəxs;

1.4.3. reabilitasiya - repatriantın itirilmiş sosial əlaqələrinin bərpası, çatışmazlıqların korreksiyası üçün həyata keçirilən tibbi, sosial və psixoloji tədbirlərin məcmusu.

1.5. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında, eləcə də Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında nəzərdə tutulmuş mənaları ifadə edir.

1.6. Repatriantın repatriasiyası və reabilitasiyası, fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən həyata keçirilir.

1.7. Repatriantların repatriasiyası və reabilitasiyası üzrə tədbirlərin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən bu Qaydaların 1.6-cı bəndində qeyd edilən dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət İşçi qrup (bundan sonra - İşçi qrup) yaradılır.

1.8. Bu Qaydalarda nəzərdə tutulan reabilitasiya tədbirləri readmissiya sazişləri əsasında Azərbaycan Respublikasına qaytarılan çətin həyat şəraitində yaşayan yetkinlik yaşına çatmayan şəxslərə də şamil edilir.

### 2. Repatriantın repatriasiyası üzrə tədbirlər

2.1. Repatriantın aşkarlanması istiqamətində tədbirlər daxil olmuş məlumatlar əsasında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən həyata keçirilir.

2.2. Repatriantın Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə sorğu verilməsi və repatriantın şəxsiyyətinin müəyyən edilməsi üçün dezoksiribonuklein turşusu (bundan sonra - DNT) analizinin aparılması Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və ya konsulluqları vasitəsilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən təşkil edilir.

2.3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi repatriantın Azərbaycan Respublikasına gətirilməsi ilə bağlı onun aşkar edildiyi xarici ölkənin səlahiyyətli orqanları (qurumları) ilə danışıqlar aparır.

2.4. Repatriasiya repatriantın həyat və sağlamlığı üçün təhlükəli olduğu hallarda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi repatriasiya prosesini həmin təhlükə aradan qalxanadək dayandırır, repatriantın hüquqlarının və qanuni mənafelərinin qorunması istiqamətində onun olduğu xarici ölkənin müvafiq dövlət orqanı (qurumu) ilə əlaqələndirilmiş şəkildə zəruri tədbirlər görür.

2.5. Repatriasiya prosesinin dayandırılmasına səbəb olan hallar aradan qaldırıldıqdan sonra repatriantın ölkəyə gətirilməsi məqsədilə bu Qaydalarla müəyyən edilmiş tədbirlər davam etdirilir.

2.6. Repatriant barədə aşağıdakı məlumatlar və sənədlər (hər hansı biri olmadıqda, bu barədə qeyd əlavə edilməklə) Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim edilir:

2.6.1. repatriant haqqında məlumatlar (soyadı, adı, atasının adı, cinsiyyəti, doğum tarixi, doğulduğu yer, fotoşəkli);

2.6.2. repatriantın doğum faktını təsdiq edən sənəd;

2.6.3. aşkarolunma şəraiti və yeri barədə məlumat;

2.6.4. Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənəd və ya Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin tanınmasına dair sənəd;

2.6.5. valideynləri və ya digər qanuni nümayəndələri (olduqda) və ya valideyn himayəsindən məhrum olma səbəbləri haqqında məlumat;

2.6.6. sağlamlıq vəziyyəti barədə məlumat.

2.7. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi bu Qaydaların 2.6-cı bəndində qeyd olunmuş məlumatlar və sənədlər əsasında repatriantın şəxsiyyəti, ailə üzvləri, qohumluq əlaqələri, həmin şəxslərin yaşayış ünvanları və əlaqə vasitələrinin müəyyən edilməsi məqsədilə ilkin araşdırma aparır və bu barədə məlumatları repatriantın Azərbaycan Respublikasında yaşayan valideyninin qeydiyyatda olduğu ərazi üzrə, repatriantın Azərbaycan Respublikasında yaşayan valideyni olmadıqda, Azərbaycan Respublikasında yaşayan digər ailə üzvlərinin və ya qohumlarının qeydiyyatda olduqları ərazi üzrə qəyyumluq və himayə orqanına, bu barədə də məlumat olmadıqda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerləşdiyi ərazi (rəsmi ünvanı) üzrə qəyyumluq və himayə orqanına (bundan sonra - qəyyumluq və himayə orqanı) təqdim edir.

2.8. Bu Qaydaların 2.6-cı bəndində qeyd olunmuş məlumatlar və sənədlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə də təqdim edilir.

2.9. Qəyyumluq və himayə orqanı valideyn himayəsindən məhrum olan repatriant haqqında təqdim olunmuş sənədləri və məlumatları Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil edir.

2.10. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi repatriantın olduğu xarici ölkənin müvafiq səlahiyyətli orqanı (qurumu) ilə birlikdə repatriantın ölkəyə gətirilmə tarixini müəyyən edir.

2.11. İşçi qrup repatriantın ölkəyə gətirilməsi üçün müəyyən edilmiş tarixdən 5 (beş) gün əvvəl iclas keçirir. İclasda repatriantın repatriasiyası və reabilitasiyası ilə bağlı İşçi qrupun tərkibinə daxil olan dövlət orqanları (qurumları) tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilmiş və keçirilməsi nəzərdə tutulan məsələlər müzakirə edilir.

2.12. Repatriantın ölkəyə gətirilməsi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müraciəti əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, İşçi qrupun aidiyyəti üzvlərindən ibarət heyətin xarici ölkəyə ezam olunması yolu ilə həyata keçirilir. Heyətin tərkibində 1 (bir) nəfər psixoloq olmalıdır. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi repatriantınsərhədkeçmə sənədinin rəsmiləşdirilməsini, Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqəsinə qədər gətirilməsini və təşkilati məsələlərin müvafiq xarici dövlətin səlahiyyətli orqanları (qurumları) ilə razılaşdırılmasını bu Qaydaların 1.6-cı bəndində qeyd edilən dövlət orqanları (qurumları) ilə birlikdə təşkil edir.

2.13. Ölkəyə gətirilən repatriantın dövlət sərhədindən buraxılış məntəqələrində qarşılanması Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müraciəti əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, İşçi qrupun aidiyyəti üzvlərindən ibarət heyətin iştirakı ilə həyata keçirilir.

2.14. Repatriantın ölkəyə gətirilməsi üçün nəzərdə tutulan təşkilati, nəqliyyat, səhiyyə (DNT analizi daxil olmaqla) və digər xərclərin, o cümlədən repatriantın doğum faktının müəyyən edilməsi ilə bağlı tələb olunan xərclərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına təmin edilir. Bu xərclər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təqdim etdiyi müvafiq hesablamalar əsasında,Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə məqsədli şəkildə ayrılır.

2.15. Sağlamlıq vəziyyətinə görə repatriasiya prosesində həkim nəzarəti tələb edilən repatriantın ölkəyə gətirilməsi təcili və təxirəsalınmaz tibbi yardım həkiminin iştirakı ilə həyata keçirilir. Repatriasiya prosesində tibb işçilərinin iştirakı və repatriantın sağlamlıq vəziyyəti xüsusi tibbi avadanlıqlar tələb etdikdə, həmin avadanlıqlar Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən təmin edilir.

### 3. Repatriantın reabilitasiyası üzrə tədbirlər

3.1. Repatriant ölkəyə gətirildikdən dərhal sonra Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qərarı əsasında müvəqqəti olaraq müvafiq sosial xidmət müəssisəsinə yerləşdirilir və onun reabilitasiyası 2 (iki) ay müddətində təşkil edilir. Repatriantınsosial xidmət müəssisələrinə qəbulu və ona xidmət göstərilməsi ilə bağlı tədbirlər Azərbaycan Respublikası Mülki Məcəlləsinin 35.4-cü maddəsinə, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq həyata keçirilir.

3.2. Repatriant üçün fərdi planAzərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İşçi qrupla razılaşdırılmaqla hazırlanır və həyata keçirilir.

3.3. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sosial işçiləri tərəfindən reabilitasiya müddətinin sonunda yekun qiymətləndirmə hesabatı tərtib edilərək İşçi qrupa təqdim edilir.

3.4. Reabilitasiya mərhələsində olan və ya reabilitasiyadan keçmiş repatriantın mənafeyinə uyğun şəkildə valideyninə və ya onu əvəz edən şəxsə qaytarılması istiqamətində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və qəyyumluq və himayə orqanı ilə birgə tədbirlər həyata keçirir.

3.5. Repatriantın valideyninə və ya onu əvəz edən şəxsə qaytarılması həyat və sağlamlığı üçün birbaşa təhlükə yaratdığı hallarda, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 72-ci maddəsi ilə müəyyən edilmiş tədbirlər həyata keçirilir.

3.6. Valideyn himayəsindən məhrum olan repatriant Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qərarı əsasında Azərbaycan Respublikası Ailə Məcəlləsinin 116-cı maddəsinə uyğun yerləşdirilir.

3.7. Repatriant valideyninə və ya onu əvəz edən şəxsə qaytarıldıqdan və ya bu Qaydaların 3.6-cı bəndinə əsasən yerləşdirildikdən sonra həmin repatrianta münasibətdə sosial-psixoloji reabilitasiya işi bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulan plan əsasında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq yerli qurumlarının mütəxəssisləri və digər aidiyyəti dövlət orqanlarının (qurumlarının) mütəxəssisləri ilə birgə davam etdirilir.

3.8. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, repatriantın yaşadığı yer üzrə təhsilə cəlb edilməsi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təmin edilir.

### 4. Monitorinqlərin və nəzarət tədbirlərinin keçirilməsi

4.1. Repatriant qəyyumluq və ya himayəyə verildiyi halda, qəyyumluq və himayə orqanı repatriantın qəyyumluğa və ya himayəyə verildiyi andan həmin il hər rüb, növbəti illərdə 18 yaşına çatanadək ildə 2 (iki) dəfə olmaqla onun saxlanılması, tərbiyəsi, eləcə də əqli, fiziki, psixoloji və psixi sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə monitorinqlər aparır.

4.2. Hər monitorinqdən sonra hesabat hazırlanır və hesabatın bir nüsxəsi repatriantın hüquqlarının və qanuni mənafelərinin qorunmasına səmərəli nəzarətin təşkili məqsədilə İşçi qrupa təqdim edilir.

4.3. Monitorinq nəticəsində repatriantın hüquqlarını və qanuni mənafelərini pozan, onun tərbiyəsinə, fiziki və psixi vəziyyətinə mənfi təsir göstərən hallar aşkar edildikdə, qəyyumluq və himayə orqanı bu barədə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya məlumat verir və Azərbaycan Respublikasının mülki və ailə qanunvericiliyinin tələblərinə əsasən qəyyumluğa və himayəçiliyə xitam verilməsi, uşağın sosial xidmət müəssisəsinə yerləşdirilməsi ilə bağlı dərhal Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat verir.

4.4. Repatriant övladlığa götürüldüyü hallarda monitorinqlər Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"na, himayədar ailəyə verildiyi hallarda isə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraqhəyata keçirilir.

4.5. Repatriant valideyn himayəsindən məhrum olan uşaqlar üçün sosial xidmət müəssisələrinə yerləşdirildiyi hallarda monitorinqlər Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun həyata keçirilir.

# Baş nazir Əli Əsədov qazaxıstanlı həmkarına başsağlığı verib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 28-də Qazaxıstanın Baş naziri Alixan Smailova başsağlığı məktubu göndərib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ə.Əsədov Karaqandada şaxtada baş verən qəza nəticəsində çoxsaylı insan tələfatı xəbərini kədər hissi ilə qəbul etdiyini bildirib.

Məktubda Qazaxıstanın Baş nazirinə, eləcə də həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı ifadə edilir.

# Milli Məclisin Sədri Sahibə Qafarova Karaqanda vilayətində baş vermiş faciə ilə əlaqədar qazaxıstanlı həmkarlarına başsağlığı məktubları ünvanlayıb

Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstanın Karaqanda vilayətindəki şaxtada baş vermiş faciə ilə əlaqədar Qazaxıstan Respublikası Parlamenti Senatının Sədri Maulen Aşimbayevə və ölkə Parlamenti Məclisinin Sədri Yerlan Koşanova başsağlığı məktubları ünvanlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri öz adından və deputatlar adından hər iki spikerə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Qazaxıstan xalqına dərin hüznlə başsağlığı verərək, yaralılara şəfa diləyib.

***"Azərbaycan"***

# Azərbaycanın və Rusiyanın XİN başçıları bölgədəki cari vəziyyəti müzakirə ediblər





Oktyabrın 28-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, söhbət zamanı nazirlər Azərbaycanla Rusiya arasında əməkdaşlıq məsələləri, Azərbaycan-Ermənistan sülh prosesinin perspektivlərini, eləcə də bölgədəki cari vəziyyəti müzakirə ediblər.

Eyni zamanda Azərbaycan ilə Ermənistan arasında suverenlik, ərazi bütövlüyü çərçivəsində münasibətlərin normallaşdırılmasının və bölgədə davamlı sülhün bərqərar edilməsinin vacibliyi vurğulanıb.

Telefon danışığı zamanı, həmçinin digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Parlamentlərarası İttifaqın 147-ci Assambleyası başa çatıb



Xəbər verildiyi kimi, 23-27 oktyabr tarixlərində Milli Məclisin deputatları Anqolanın paytaxtı Luandada keçirilən Parlamentlərarası İttifaqın (PAİ) 147-ci Assambleyasında iştirak ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, oktyabrın 25-də PAİ-nin 147-ci Assambleyası çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin (QHPŞ) növbəti görüşü baş tutub. İclasda Prezident İlham Əliyevin sədrliyi ilə Qoşulmama Hərəkatının institusional inkişafı istiqamətində həyata keçirilən mühüm tədbirlər barədə ətraflı məlumat verilib, qurumun gələcək institusional inkişafı, beynəlxalq əlaqələri, üzv ölkələr arasında əməkdaşlığın təşviq olunması istiqamətində çoxşaxəli fəaliyyət istiqamətləri və digər maraq doğuran məsələlər barədə danışılıb.

Qeyd edək ki, Parlament Şəbəkəsinin sədri, Milli Məclisin spikeri Sahibə Qafarovanın tapşırığına əsasən, Azərbaycan parlamenti tərəfindən təşkil olunan görüşdə 30 ölkədən 80-ə yaxın nümayəndə iştirak edib. İclasda çıxış edən üzv ölkələrin parlament nümayəndə heyətlərinin təmsilçiləri Azərbaycanın QHPŞ-də sədrliyinin fəaliyyətini yüksək qiymətləndiriblər, şəbəkənin qlobal parlament dialoqunun təşviqində, parlament diplomatiyasının inkişafında oynadığı mühüm rolundan danışıblar. Tədbirin sonunda Parlament Şəbəkəsinin rəsmi internet səhifəsinin təqdimatı keçirilib.

Xatırladaq ki, Parlamentlərarası İttifaqın 147-ci Assambleyasında 130-dan artıq ölkə parlamenti və 20-dən artıq beynəlxalq təşkilatın nümayəndələri iştirak edib. Assambleyada iştirak edən deputatlarımız - Elnur Allahverdiyev, Kamran Bayramov və Sevil Mikayılova "Sülhün, ədalətin və güclü təsisatların dəstəklənməsi istiqamətində parlamentlərin fəaliyyəti" mövzusunda keçirilən ümumi müzakirələrdə çıxışlar ediblər. Azərbaycan həqiqətləri, ərazilərimizin 30 illik erməni işğalına son qoymuş 44 günlük Vətən müharibəsi, bu ilin sentyabr ayında erməni təxribatlarına qarşı həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri, habelə ölkəmizin irəli sürdüyü sülh gündəliyi və Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı təşəbbüslər barədə məlumatlar iştirakçıların diqqətinə çatdırılıb.

Nümayəndə heyətinin üzvləri PAİ-nin daimi komitələrinin və digər qurumların iclaslarında da iştirak ediblər, gündəlikdə duran mövzulara dair münasibət bildiriblər, bir sıra məsələlərlə bağlı ölkəmizin mövqeyini təqdim ediblər.

Deputatlarımız Sevil Mikayılova assambleyanın İcraiyyə Komitəsinin, Kamran Bayramov qurumun Sülh və beynəlxalq təhlükəsizlik, Əminə Ağazadə Demokratiya və insan hüquqları üzrə daimi komitələrinin bürolarına, Səbinə Xasayeva Qadın parlamentarilər forumunun bürosuna, Şahin İsmayılov isə Gənc parlamentarilər forumunun idarə heyətinə üzv seçiliblər.

Milli Məclisin nümayəndə heyəti 147-ci Assambleya çərçivəsində Türkiyə, Pakistan, Özbəkistan, Malavi, Tanzaniya və Çexiya parlamentlərinin nümayəndə heyətləri, habelə PAİ-nin Baş katibi ilə ikitərəfli görüşlər keçiriblər. Görüşlərdə ikitərəfli və çoxtərəfli formatda parlamentlərarası əlaqələrin mövcud durumu, əməkdaşlığın gələcək perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb.

Oktyabrın 27-də Tanzaniya Milli Assambleyasının sədri Tulia Akson PAİ-nin yeni prezidenti seçilib.

Bununla da PAİ-nin 147-ci assambleyası öz işini başa vurub.

***"Azərbaycan"***

## Türkiyə Cümhuriyyəti - 100

# Etibarlı tərəfdaşlıqdan strateji müttəfiqliyə

### Müsahibimiz Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovdur



*- Tahir müəllim, çoxəsrlik dövlətçilik tarixinin ən qüdrətli dövrünü yaşayan müstəqil Azərbaycan diqqətəlayiq müvəffəqiyyətlər əldə edərək milli gücünü artırır. Siyasi ekspertlərin də qeyd etdikləri kimi, bu, bilavasitə Heydər Əliyev siyasətinin real nəticəsidir. Məhz bu siyasət əsasında Azərbaycanın yüksək nüfuz qazanmasını və dinamik inkişaf yolunda əmin addımlarla irəliləməsini təmin edən mühüm amillərdən biri də beynəlxalq münasibətlər sisteminə uğurlu inteqrasiyadır. Azərbaycan-Türkiyə əlaqələri isə mühüm bir reallıq kimi tamamilə fərqli məzmun və müstəsna əhəmiyyət kəsb etməklə bu kontekstdə xüsusi yer tutur. Bu barədə nə deyə bilərsiniz?*

- Bəşər tarixi sübuta yetirmişdir ki, yalnız zəngin idarəçilik təcrübəsinə, möhkəm əqidəyə, prinsipial mövqeyə, xalqın birmənalı dəstəyinə, milli etimada malik lideri olan dövlətlər uğur qazanır, möhtəşəm nailiyyətlərə imza ataraq adlarını tarixə həkk etdirirlər. Dövlətçilik tariximizin son yarıməsrlik dövrü - həm SSRİ dönəmini, həm də müstəqillik illərini əhatə edən mərhələsi Heydər Əliyev siyasətinin Azərbaycan xalqının və dövlətinin taleyində hansı müstəsna rola və əhəmiyyətə malik olduğunu təsdiqləyir. İstər zəngin dövlətçilik irsi, istərsə də mütərəqqi ideyaları ilə əbədiyaşarlıq qazanmış dahi şəxsiyyət - müdrik dövlət xadimi, "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim xalqıma, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub" deyən Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində yüksək vətənpərvərlik ortaya qoyaraq və böyük fədakarlıq göstərərək məhz Azərbaycan naminə çalışmışdır. O, Sovet İttifaqı dönəmində Azərbaycan SSR-in rəhbəri kimi respublikamızın intibahına müvəffəq olmuş və onun gələcək müstəqilliyinin əsaslarını formalaşdırmış, Azərbaycan dilinin respublika Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olmuş, milli-mənəvi dəyərlərin qorunmasını, azərbaycançılıq ideologiyasının təşviqini daim diqqətdə saxlamışdır. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi fəaliyyət göstərdiyi dövrdə də respublikamızın mənafelərini qətiyyətlə qoruyaraq xalqın rifahı və firavanlığı naminə məqsədyönlü işlər görmüşdür. Ulu Öndər müstəqillik illərində isə əvvəl Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri olaraq blokada vəziyyətindəki muxtar respublikanı ağır sosial-iqtisadi şəraitdən və tənəzzüldən qurtararaq dirçəlişinə nail olmuş, sonradan bütövlükdə xaosun hökm sürdüyü Azərbaycanı ciddi siyasi və iqtisadi problemlərdən, böhran vəziyyətindən xilas edərək inkişaf yoluna çıxarmış, ölkəyə real müstəqillik qazandırmış, taleyüklü məsələləri həll etmişdir. Ona görə də Ümummilli Lider haqlı olaraq Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin memarı və qurucusu adlandırılır, onun siyasi irsi və ideyaları milli-mənəvi sərvətimiz kimi yüksək dəyərləndirilir.

Bir sözlə, əziz xatirəsini sonsuz ehtiramla andığımız, anadan olmasının 100-cü ildönümünü böyük qürur və minnətdarlıqla qeyd etdiyimiz Heydər Əliyevin xalqımız qarşısında xidmətləri misilsizdir, siyasi varisliyin təmin olunması isə onun uzaqgörənliyinin ən böyük təzahürüdür. Bilirsiniz ki, Ümummilli Liderimiz 2003-cü ildə xalqa müraciəti zamanı dövlətçiliyimizin qorunub inkişaf etdirilməsi naminə müdrik tövsiyələrini vermiş, cənab İlham Əliyevə özü qədər inandığını qeyd etməklə Azərbaycanın gələcəyinə dair baxışını ortaya qoymuşdu. Azərbaycan xalqı öz Liderinə - Vətən naminə həyatını dəfələrlə riskə atan, bütün maneələrə və məhdudiyyətlərə rəğmən xilaskarlıq missiyası ilə ölkənin qurtuluşunu və yüksəlişini təmin edən Heydər Əliyevə inanırdı. Bu inam və etibar həm də cənab İlham Əliyevin o zamana qədər keçdiyi yoldan, əldə etdiyi uğurlardan qaynaqlanırdı. Ona görə də 2003-cü ildə xalqımız Heydər Əliyev siyasətinə növbəti dəfə dəstək verərək cənab İlham Əliyevə etimad göstərdi və ötən 20 ilin reallıqları bu inam və etimadı ən yüksək səviyyədə doğrultdu.

Heydər Əliyev siyasətinin tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və çağdaş reallıqlara uyğun davam etdirilməsi Azərbaycanı sabitlik və sürətli inkişaf yoluna çıxardı, məhz bu siyasət nəticəsində iqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən - dünyada söz və nüfuz sahibinə, qlobal dialoq və əməkdaşlıq məkanına çevrilən Azərbaycan Qələbə zirvəsinə yüksələrək adını şanlı Zəfər tarixi yaradan qüdrətli dövlətlər sırasına yazdırdı.

Bu gün Ulu Öndərin müəyyənləşdirdiyi bütün strateji hədəflər gerçəkliyə çevrilir. Qüdrətli Azərbaycan Heydər Əliyev ideyaları əsasında - sözü imzası qədər dəyərli olan Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə milli məqsədləri gerçəkləşdirərək yeni reallıqlar yaradır. Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 20 ildə qazanılan uğurlar nəticəsində dövlətçilik tariximizin ən möhtəşəm dövrünü yaşayırıq. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmamışdır. 30 ilə yaxın müddət ərzində Ermənistanın işğalı altında qalan torpaqlarımızın düşmən tapdağından azad edilməsi - Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası isə çoxəsrlik tariximizin ən möhtəşəm hadisəsi və ən böyük Qələbəsidir.




Prezident İlham Əliyev beynəlxalq hüquq normalarını ayaq altına atan, antihumanizm və ədalətsizlik nümunəsi olan işğal faktına və postsovet məkanında "sağalmaz geosiyasi xəstəlik" olaraq xarakterizə edilən, uzunmüddətli problem kimi sabitliyə, təhlükəsizliyə, dinc birgəyaşayışa təhdid yaradan separatizmə birdəfəlik son qoymaqla təkcə Azərbaycan üçün deyil, bütövlükdə regionda yeni situasiya yaradıb, həm ölkəmiz, həm də bölgə dövlətləri üçün yeni perspektivlər müəyyən edib. Zəfər tarixi yaratmış Azərbaycanın formalaşdırdığı yeni geostrateji gerçəkliklər, bəşəriyyəti narahat edən aktual məsələlərin həlli ilə əlaqədar irəli sürdüyü təşəbbüslər və atdığı addımlar regionda, türk dünyasında və bütövlükdə qlobal miqyasda yüksək dəyərləndirilir. Xüsusi qeyd etmək lazımdır ki, cənab İlham Əliyevin 2021-ci ildə "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması onun müdrik Lider, qətiyyətli dövlət başçısı və Müzəffər Ali Baş Komandan kimi rəhbərliyi ilə Qarabağın işğaldan azad edilməsinin, qlobal problemlərlə mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə mühüm töhfələrinin, BMT Təhlükəsizlik Şurası, Türk Dövlətləri Təşkilatı və Qoşulmama Hərəkatına Sədrliyi dövründə irəli sürdüyü bəşər əhəmiyyətli təşəbbüslərinin yüksək qiymətləndirilməsinin bariz nümunələrindən biridir.

Şübhəsiz ki, bütün bu nailiyyətlərin qazanılmasında cənab İlham Əliyevin yürütdüyü fəal xarici siyasət və məharətli diplomatiyanın müstəsna rolu olmuşdur. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində Azərbaycanın çoxvektorlu və milli maraqlara əsaslanan xarici siyasətinin mühüm prioritetlərindən biri türk dövlətləri ilə münasibətlərin inkişafı, əməkdaşlığın dərinləşdirilməsi olmuşdur. Bu istiqamətdə fəal siyasət həyata keçirilmiş və önəmli nəticələr əldə olunmuşdur. 2009-cu il oktyabrın 3-də Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında imzalanan Naxçıvan Sazişi ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının - hazırda Türk Dövlətləri Təşkilatı adlanır - yaradılması, Zirvə görüşlərində aparılan müzakirələr, qəbul edilən qərarlar və digər amillər həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrin gücləndirilməsi üçün etibarlı zəmin formalaşdırmış, təşkilata yeni üzvlərin qoşulmasını şərtləndirmişdir. Türk Dövlətləri Təşkilatında birləşən, regionda mühüm təsir imkanlarına malik türkdilli dövlətlərin məqsədyönlü fəaliyyətinin önəmi böyük, nəticələri isə səmərəlidir. Bu prosesdə Azərbaycan ilə Türkiyənin rolu isə xüsusi əhəmiyyət daşıyır. Yeni reallıqlar fonunda xüsusilə Azərbaycan ilə Türkiyənin təşəbbüsləri Türk Dövlətləri Təşkilatının qarşıdakı müddətdə geniş təsir imkanlarına malik güc mərkəzinə çevrilməsinə əlverişli şərait yaradır.

Siyasi şərhçilər və tədqiqatçılar birmənalı şəkildə vurğulayırlar ki, dünyada Azərbaycan-Türkiyə əlaqələrinin bənzəri yoxdur. Prezident İlham Əliyevin söylədiyi kimi, "Türkiyə-Azərbaycan münasibətləri bütün dünya ölkələri üçün örnəkdir və ikinci belə dövlətlər yoxdur ki, bütün sahələrdə sıx əməkdaşlıq etsinlər". Bu, tarixi, siyasi və mənəvi qanunauyğunluq və son illərdə həyata keçirilmiş məqsədyönlü fəaliyyətin məntiqi nəticəsidir. Çünki iki dövləti bir-birinə bağlayan amillər təkcə strateji müttəfiqlik münasibətləri, yaxud yalnız dövlət maraqları - dövlətçilik mənafeləri deyil, eyni zamanda ortaq milli-mənəvi dəyərlər və köklü tarixi ənənələr üzərində təşəkkül tapmış sarsılmaz dostluq və qardaşlıq əlaqələridir.

Bu gün Türkiyə-Azərbaycan münasibətləri ilk növbədə hər iki ölkənin liderləri - cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğanın iradəsi sayəsində uğurla inkişaf edir. İki ölkənin münasibətlərində son 20 il ərzində ölçüyəgəlməz inkişaf yolu qət olunub, dostluq, qardaşlıq münasibətləri zirvəyə çatıb. Ölkələrimiz arasında siyasi münasibətlər ən yüksək səviyyədədir, iqtisadi-ticari və digər sahələrdə əlaqələr uğurla inkişaf edir. Azərbaycan Türkiyədə, Türkiyə isə Azərbaycanda ən böyük sərmayədarlardan biridir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TAP və TANAP kimi birgə layihələrin reallaşdırılması regional və beynəlxalq təhlükəsizliyə, çoxşaxəli əməkdaşlığa mühüm töhfədir.

Azərbaycan ilə Türkiyə bütün taleyüklü məsələlərdə sıx həmrəylik - sarsılmaz birlik nümayiş etdirərək bir-birinin mənafelərini - dövlət maraqlarını qətiyyətlə qoruyurlar. Xüsusi qeyd etmək lazımdır ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsini təmin edən mühüm amillərdən biri qardaş Türkiyə Cümhuriyyətinin ölkəmizə birmənalı və güclü mənəvi-siyasi dəstək göstərməsi, prinsipial mövqe nümayiş etdirməsidir. Müharibənin başladığı gündən, hətta ilk saatlardan etibarən başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla qardaş ölkə ictimaiyyəti Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etdi, həm reallıqların dünyaya çatdırılmasında, həm erməni yalanlarının ifşasında, həm də ikili standartlara əsaslanan siyasət həyata keçirən qərəzli dairələrin məkrli planlarının qarşısının alınmasında yüksək fəallıq nümayiş etdirdi. Prezident Rəcəb Tayyib Ərdoğan müxtəlif tribunalardan Azərbaycanın haqq işinə prinsipial dəstəyini ifadə etməklə beynəlxalq ictimaiyyətə önəmli mesajlar verdi, rəhbərlik etdiyi qüdrətli Türkiyə Cümhuriyyətinin Azərbaycanın yanında olduğunu bütün dünyaya bəyan etmiş oldu. Şübhəsiz ki, Azərbaycan xalqı və dövləti qardaş dəstəyini minnətdarlıq hissi ilə çox yüksək qiymətləndirir və heç vaxt unutmayacaqdır.

Azərbaycan da öz növbəsində qardaş Türkiyəyə hər zaman güclü dəstək nümayiş etdirir. 2016-cı il iyulun 15-də qardaş ölkədə dövlət çevrilişi cəhdi zamanı Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən Türkiyənin yanında olaraq - həmrəylik göstərərək bu xəyanətkar hərəkəti qəti şəkildə qınadı. Bununla yanaşı, ölkəmiz hamımızı dərindən sarsıdan dəhşətli faciənin - bu ilin fevral ayında Türkiyədə baş vermiş zəlzələnin ağır nəticələrinin aradan qaldırılmasında, həmin bölgələrdə quruculuq işlərinin aparılmasında yaxından iştirak edərək qardaş köməyini əsirgəməmişdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Bir millət, iki dövlət" prinsipi əsasında həm sevincli, həm də kədərli günlərdə bir-birinə dayaq olan xalqlarımız məhz çətin anlarda qarşılıqlı dəstək göstərərək qardaşlığını sübut edirlər. Biz bundan sonra da bütün məsələlərdə Türkiyənin yanında olacağıq.

Bütün bu reallıqlar Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və Böyük Öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarının birmənalı təsdiqidir.

Xalqımızın milli mübarizə ruhunu, həmrəyliyini, dövlətimizin gücünü əks etdirən Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbədən sonra, 2021-ci il iyun ayının 15-də Azərbaycan ilə Türkiyə arasında Strateji Müttəfiqliyə dair Şuşa Bəyannaməsinin imzalanması çoxşaxəli əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsini şərtləndirmişdir. Daha dəqiq desək, ölkələrimiz arasındakı dərin işbirliyi 44 günlük Vətən müharibəsindən sonra tamamilə yeni bir səviyyəyə qalxmış, Şuşa Bəyannaməsinin imzalanması ilə strateji müttəfiqlik zirvəsinə yüksəlmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması bizim əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırdı. Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik. Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik". Prezident Rəcəb Tayyib Ərdoğan isə bəyannamənin həm iki qardaş dövlət, həm də region üçün əhəmiyyətinə toxunaraq demişdir: "Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik. Gələcəklə bağlı addımları atarkən artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük".

"Şuşa ili"ndə, Azərbaycan xalqının ictimai-siyasi yaddaşında mühüm yer tutan, taleyində müstəsna rol oynayan 15 İyun - Milli Qurtuluş Günündə iki qardaş ölkə arasında Şuşa Bəyannaməsinin imzalanmasından sonra görülən işlər siyasi, iqtisadi-ticari, hərbi-strateji, mədəni-humanitar sahələrdə münasibətlərin inkişafına mühüm töhfə verməkdədir.

Bu gün Azərbaycan-Türkiyə strateji müttəfiqliyi regionda mühüm - həlledici faktordur. Postmüharibə mərhələsində iki ölkənin tərəfdaşlığı bölgədə sülh və təhlükəsizlik mühitinin möhkəmlənməsi, çoxtərəfli qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsi, ən əsası Azərbaycanın tarixi Qələbəsinin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyətə malikdir.

*- Tahir müəllim, toxunduğunuz məqamlar, diqqət yetirdiyiniz məsələlər belə bir qənaətə gəlməyə əsas verir ki, yüksəliş mərhələsinə qədəm qoyan hər iki ölkə həm davamlı uğurlar qazanır, həm də birlikdə addımlayaraq yeni zirvələr fəth edir. "Azərbaycan və Türkiyə öz tarixlərinin qızıl dövrünü yaşayır" desək, qətiyyən yanılmarıq, elə deyilmi?*

- Tamamilə doğrudur. Həm Azərbaycan, həm də Türkiyə tərəqqi yolunda inamla addımlayır, güclü və nüfuzlu dövlət kimi beynəlxalq münasibətlər sistemində mövqelərini davamlı olaraq möhkəmləndirirlər. İki ölkənin birgə təşəbbüsləri isə regionda yeni - sülhə, sabitliyə, təhlükəsizliyə, qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığa xidmət edən geosiyasi nizamın yaranmasını şərtləndirir.

2023-cü il bir millətin iki dövləti olan Azərbaycan və Türkiyə üçün xüsusilə əlamətdardır. Məlum olduğu kimi, Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdir. "Heydər Əliyev İli" çərçivəsində müasir müstəqil Azərbaycanın banisi, xalqımızın Ümummilli Lideri, türk dünyasının böyük oğlu, dünyaşöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin dövlətçilik irsinin tədqiqi, bütün dövrlər üçün aktual olan ideyalarının öyrənilməsi, təşviqi və təbliği istiqamətində istər respublikamızda, istərsə də onun hüdudlarından kənarda, o cümlədən dost və qardaş Türkiyədə silsilə tədbirlər keçirilir. Eyni zamanda bu il dünyada müasir, nüfuzlu və qüdrətli dövlət kimi tanınan, beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olan Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü həm qardaş ölkədə, həm də Azərbaycanda böyük ruh yüksəkliyi ilə qeyd edilir.

İstər "Heydər Əliyev İli", istərsə də Türkiyə Cümhuriyyətinin 100-cü ildönümü çərçivəsində həm Azərbaycan, həm də Türkiyə sarsılmaz birlik nümayiş etdirərək böyük uğurlar qazanır, ortaq hədəflərə doğru birlikdə addımlayaraq qardaşlıq münasibətlərinin sarsılmaz və əbədi olmasını, "Biz birlikdə güclüyük" şüarının əməldə təsdiqini bütün dünyaya nümayiş etdirirlər.

Qeyd etmək lazımdır ki, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın geniş ictimaiyyətə təqdim etdiyi "Türkiyə yüz ili" proqramı müxtəlif istiqamətlərdə milli məqsəd və prioritetləri müəyyən edən sənəddir, perspektivə yönəlik strateji hədəfləri özündə ehtiva edir. Proqramın reallaşdırılması Türkiyənin daha qüdrətli dövlətə çevrilməsinə imkan verəcəkdir.

Ümumiyyətlə, Rəcəb Tayyib Ərdoğanın ölkəyə rəhbərlik etdiyi son 20 ildə əldə edilmiş nəticələr məhz belə bir iddialı proqramın gerçəkləşdirilməsi üçün güclü zəmin yaratmışdır. Türkiyə Cümhuriyyəti artıq istər regionda, istərsə də dünya miqyasında güc mərkəzinə çevrilmişdir. Bu gün bölgədə heç bir məsələ Türkiyənin iradəsi və iştirakı olmadan həll edilə bilməz. "Türkiyə yüz ili" çərçivəsində tərəqqinin əsaslarını möhkəmləndirmək və yeni hədəflərə doğru irəliləmək böyük Türkiyənin daha da güclənməsinə nail olmaq deməkdir. Cənab Rəcəb Tayyib Ərdoğanın "Böyük və güclü Türkiyəni birlikdə quraq" çağırışı bu kontekstdə çox önəmlidir. Təsadüfi deyil ki, Türkiyə xalqı sonuncu seçkilərdə cənab Ərdoğanın çağırışına və qazanılan möhtəşəm uğurların davamına səs verməklə düzgün seçim etmiş, ölkənin parlaq gələcəyinə xidmət edən iradə, prinsipial mövqe ortaya qoymuşdur.

Azərbaycan dost, qardaş və strateji müttəfiq olan Türkiyənin növbəti yüzillikdə yeni hədəflərinə əmin addımlarla irəliləməsinə öz dəstəyini göstərir. Qardaş Türkiyə də Azərbaycanın yanında olduğunu nümayiş etdirir, xüsusilə də ölkəmizin haqq işində qətiyyətli dəstəyini ifadə edir. 44 günlük Vətən müharibəsində olduğu kimi, 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində 24 saatlıq lokal antiterror əməliyyatı zamanı da Türkiyə ölkəmizin haqlı və ədalətli mövqeyini müdafiə etmişdir.

Yeri gəlmişkən, "Heydər Əliyev İli" çərçivəsində Prezident İlham Əliyevin komandanlığı ilə qazanılan növbəti hərbi-strateji və diplomatik Qələbə nəticəsində Qarabağ münaqişəsi mövzusunun birdəfəlik bağlanması - üçrəngli bayrağımızın işğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə dalğalanması, Azərbaycanın Konstitusiya quruluşunun bərpası böyük mənəvi-siyasi əhəmiyyətə malik hadisə kimi xüsusi rəmzi məna daşıyır. Bu, Heydər Əliyev siyasətinin təntənəsi və zirvəsi, Ümummilli Liderin ən böyük arzusunun və vəsiyyətinin onun layiqli varisi - Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən yerinə yetirilməsidir. Artıq milli qürurunu bərpa etmiş Azərbaycan xalqının alnı açıq, müasir müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin isə ruhu şaddır! Prezident İlham Əliyev isə xalqa vədini və ata vəsiyyətini yerinə yetirmiş müzəffər Sərkərdə, qalib Lider kimi adını tarixə əbədi həkk etdirmişdir.

*- Siz Azərbaycan-Türkiyə münasibətlərinin mahiyyətini xarakterizə etdiniz, işbirliyini dərinləşdirən mühüm amillərə toxundunuz. İki ölkənin hakim partiyaları arasında əməkdaşlığın dövlətlərarası əlaqələrə töhfəsini necə qiymətləndirmək olar?*

- Təqdirəlayiq haldır ki, unikal əməkdaşlıq və sıx dostluq-qardaşlıq nümunəsi olan Azərbaycan-Türkiyə münasibətlərinin davamlı inkişafında hər iki ölkənin hakim partiyalarının - Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının (AK Parti) xüsusi rolu var.

Bilirsiniz ki, 2021-ci ilin iyun ayının 2-də iki partiya arasında Əməkdaşlıq Protokolu imzalanıb. Bununla da qarşılıqlı münasibətlərin, gələcək əməkdaşlığın yeni istiqamətləri müəyyənləşdirilib. Yeni reallıqlar fonunda və sıx əməkdaşlıq çərçivəsində atılan addımlar partiyalar arasında əlaqələrin genişlənməsini, işbirliyinin dərinləşməsini şərtləndirir. Hakim partiyalar olaraq qısa zaman kəsiyində birlikdə önəmli layihələr icra etmişik, mühüm tədbirlər reallaşdırmışıq.

Qarşılıqlı səfərlərin həyata keçirilməsi, ardıcıl olaraq son iki ildə iyunun 15-də - Milli Qurtuluş Günü və Şuşa Bəyannaməsinin imzalandığı gündə keçirilən tədbirlərə AK Parti nümayəndə heyətinin qatılması, Azərbaycan ilə Türkiyənin milli maraqlarına, həmçinin partiyalararası əməkdaşlığın mövcud vəziyyətinə və perspektivə dair məsələlərdə faydalı fikir və təcrübə mübadiləsinin aparılması ikitərəfli münasibətlərin inkişafına xidmət edir. Diqqətə çatdırım ki, ötən il baş tutan "Türkiyə yüz ili" proqramının təqdimatına ölkə xaricindən dəvət edilmiş yeganə siyasi təşkilat Yeni Azərbaycan Partiyası olmuşdur. Bununla yanaşı, Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti bu il oktyabrın 7-də Türkiyənin paytaxtı Ankarada Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi və "Türkiyə yüz ili üçün hər zaman yeni, hər zaman irəli" şüarı ilə keçirilən, 27 ölkənin siyasi partiya nümayəndələrinin, bir sıra dövlət və hökumət rəhbərlərinin, diplomatların, vətəndaş cəmiyyəti təmsilçilərinin qatıldığı AK Partinin IV Fövqəladə Böyük Qurultayında da iştirak etmişdir. Bütün bunlar Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətlərinin bariz nümunəsi olmaqla yanaşı, YAP-AK Parti əlaqələrinin yüksək səviyyədə olduğunu təsdiqləyən mühüm faktlardır.

Əminliklə söyləmək olar ki, həm Azərbaycan ilə Türkiyə, həm də iki dövlətin iqtidar partiyaları arasında münasibətlər heç vaxt bu cür güclü və yüksək səviyyədə olmamışdır. Keyfiyyətcə yeni mərhələyə qədəm qoyan partiyalararası əlaqələr intensiv xarakter daşıyır və olduqca səmərəlidir. Bu, bir millət, iki dövlət olan Azərbaycan ilə Türkiyənin mənəvi-siyasi birliyinin güclənməsinə öz töhfəsini verir.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan-Türkiyə birliyi və müttəfiqliyi "Bir millət, iki dövlət" və "Bir yumruq" fəlsəfələrinin ruhuna uyğun olaraq bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə davam edəcək və daha da möhkəmlənəcəkdir. İki dost, qardaş və strateji müttəfiq ölkənin hakim partiyaları da bu prosesə layiqli töhfə vermək əzmindədirlər.

Fürsətdən istifadə edərək Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə bütün türksevərləri təbrik edir, qardaş ölkəyə sülh və əmin-amanlıq, türk xalqına isə rifah və firavanlıq arzulayıram.

***Müsahibəni apardı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Türkiyə Cümhuriyyəti - 100







# Əbədi, sarsılmaz dostluq və qardaşlıq

**2023-cü il oktyabrın 29-da bəşər tarixində çox əlamətdar hadisə - Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur. Bu, bütün türk xalqları tarixində, eləcə də bütöv müsəlman Şərqinin çoxəsrlik tarixində dönüş yaratmış böyük hadisədir. Belə ki, məhz bu gün Türkiyə Böyük Millət Məclisi Cümhuriyyətin yarandığını elan etdi. Bu, türk milləti və Türkiyə Cümhuriyyəti uğrunda ölüm-dirim savaşı aparan mücahidlərin böyük zəfəri, Osmanlı dövlətini parçalayıb məhv etmək istəyənlərin üzərində inamlı qələbə idi.**

Cümhuriyyətin ilk illəri çətin oldu, irticaçı daxili və xarici qüvvələr ölkədə müxtəlif təxribat və iğtişaşlar törətsə də, Qazi Mustafa Kamal Atatürk öz silahdaşları ilə birlikdə ölkənin bölünməzliyi və dünyəvi demokratik dövlət kimi gələcək inkişafını təmin etdi.

1940-cı illərin sonunda ölkədə çoxpartiyalı sistem yaradıldı. Sürətli iqtisadi inkişaf və islahatlar dövrü başladı. Ölkənin beynəlxalq nüfuzu artdı, 1952-ci ildə Türkiyə NATO-ya daxil oldu. Növbəti illər siyasi təlatümlər və hərbi çevrilişlərlə müşayiət olundu. Daha sonra Turqut Özalın rəhbərlik etdiyi Ana Vətən Partiyası, Süleyman Dəmirəlin başçılığı ilə Doğru yol Partiyası, Nəcməddin Ərbakanın Rifah Partiyası seçkilərdə qalib gələrək, öz hökumətlərini formalaşdırdılar. 2002-ci ildə Rəcəb Tayyib Ərdoğanın başçılığı ilə Ədalət və İnkişaf Partiyası hakimiyyətə gəldi.

Keçən 100 il ərzində Türkiyə Cümhuriyyəti böyük inkişaf yolu qət edərək, müxtəlif problemlərə baxmayaraq, dinamik sosial-iqtisadi və siyasi inkişafa nail olub. Ölkə hərtərəfli güclənib, modern ordu qurulub, regional və beynəlxalq məsələlərdə söz sahibi olub. Türkiyə hərbi-sənaye potensialına və Silahlı Qüvvələrinə görə NATO-da ikinci dövlətdir, "Böyük iyirmilik"də isə ÜDM-nin artım sürətinə görə ilk beşliyə daxildir.

Bu gün Türkiyənin və onun Prezidenti R.T.Ərdoğanın liderliyi ilə türk dünyası birləşir və bu yolda bir çox irəliləyişə nail olunub. Tarixin bütün sınaqlarından uğurla çıxan Türkiyə Cümhuriyyəti gündən-günə inkişaf edərək, regionda və dünyada öz mövqeyini daha da möhkəmləndirərək, bütün dünya türklərinin fəxr etdikləri, qürur duyduqları, arxalandıqları bir məkana çevrilmişdir.

Azərbaycanın milli maraqlarını hərtərəfli göz önündə canlandıran, onun milli mənafelərini tam şəkildə əks etdirən xarici siyasət kursunda, bu kursun müvəffəqiyyətlə reallaşmasında Azərbaycan-Türkiyə münasibətlərinin uğurlu inkişafı, mübaliğəsiz demək olar ki, birinci dərəcəli əhəmiyyət daşıyır. Bu isə bir daha ondan irəli gəlir ki, müasir dövrdə güclü dövlət olaraq sürətli inkişaf yolunda irəliləyən və beynəlxalq münasibətlərdə möhkəm yer tutan Türkiyə və Azərbaycanı tarix ümumiliyi və etnik-dini tellər bağlayır. İstər bir çox daxili məsələnin həllində, istərsə də beynəlxalq münasibətlərdə Türkiyə kimi qardaş ölkə ilə tərəfdaşlıq və əməkdaşlıq Azərbaycanın müstəqil ölkə və dövlət olaraq intensiv inkişafı üçün olduqca zəruridir.

Keçən yüz ilin 90-cı illərinin başlanğıcında SSRİ-nin süqutundan sonra, ildən-ilə irəliləyən Türkiyə Qafqaz və Orta Asiya bölgələrində tanınan və nüfuzlu bir ölkə mövqeyini qazandı. Bu gün nəhəng Avrasiya bölgəsində Türkiyə sözü keçən, qüdrətli, mövqeyi dəyişməz dövlətlərdən biridir.

Qərblə inteqrasiya istiqamətini qəbul etmiş Türkiyə Qafqaz və Orta Asiyada həm özünün, həm də qərbli müttəfiqlərinin mənafelərini təmsil edir. Bilindiyi kimi, Türkiyə NATO-nun üzvüdür və onun Qərblə sıx iqtisadi-mədəni əlaqələri mövcuddur. Beləliklə, Türkiyə bölgədə yeritdiyi siyasətlə həm milli-strateji, həm də etnik-dini amilləri diqqət mərkəzində saxlayır. MDB məkanında bir sıra türkdilli və digər müsəlman xalqlar yaşamaqdadırlar. Türkiyənin bu bölgədə yeritdiyi siyasətdə bəzən etnik-dini amillər daha açıq şəkildə özünü göstərir. Bu da onun Qərb müttəfiqlərinin müəyyən narazılığına səbəb olur. Buna baxmayaraq, Türkiyə bölgədə siyasətini uğurla yeritməkdədir.

Azərbaycanla Türkiyə arasında əlaqələrin dərin tarixi kökləri var. Türkiyə daim Azərbaycanın köməyinə gəlmiş, ən çətin anlarda onu yalqız qoymamış, qardaşlıq yardımını əsirgəməmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) öz müstəqilliyini elan etdikdə onu tanıyan ilk dövlət Türkiyə oldu. Amma Türkiyə AXC-ni rəsmi olaraq tanımaqla kifayətlənmədi. Sözsüz ki, müstəqil dövlət kimi yenicə arenaya çıxan gənc AXC-nin ordu və dövlət quruculuğu prosesini həyata keçirmək, ölkədə əmin-amanlıq, nizam-intizam yaratmaq üçün yetərincə qüvvəsi yox idi. AXC daşnak-bolşevik təcavüzü ilə qarşı-qarşıya qalmışdı. Gənc respublikanın qurtuluşu və dinc quruculuğu üçün xalqımızın dostluq münasibəti olan xarici bir tərəfdaşa böyük ehtiyacı var idi. Bu tərəfdaş isə yenə qardaş Türkiyə oldu. Yaranmış durumla bağlı olaraq AXC-nin qurucularından biri - N.Yusifbəyli deyirdi: "... Bu halda biz sevinə bilərik ki, buraya gəlməli olan xarici qüvvə dost və qardaş Türkiyədir". M.Ə.Rəsulzadə isə o çətin və tarixi anlarla bağlı sonralar yazırdı ki, o zaman yaranmış şəraitdə ümid yalnız Türkiyəyə qalırdı və bu qardaş millət Azərbaycanı düşmənlərin əlindən almalı idi.

Birinci Dünya müharibəsinə sürüklənən Türkiyə savaşın çətin anlarını yaşamasına baxmayaraq, qurtuluş missiyasını şərəflə yerinə yetirdi. Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu AXC-nin qüvvələri ilə birlikdə ağır döyüşlərdən qalib çıxaraq 1918-ci ilin sentyabrında Bakını azad etməklə Azərbaycanın qurtuluşunu təmin etdi. 1918-ci ildə erməni-müsəlman münaqişəsi zamanı Azərbaycan xalqını məhvolma təhlükəsindən türk ordusu, türk paraları qurtardı.

Ordu quruculuğunda, zabit kadrlarının hazırlanmasında, hüquqi dövlət quruculuğunda da Türkiyə AXC-yə təmənnasız yardımlar göstərdi. Bu şərəfli missiya iki ölkənin qardaşlıq münasibətlərinin sarsılmazlığını bütün dünya ictimaiyyəti qarşısında bir daha parlaq şəkildə nümayiş etdirmiş oldu. Birinci Dünya müharibəsinin sonunda imzalanan "barışığın" sanki bir tale yazısını ifadə edən şərtindən irəli gələrək Nuru paşa Bakıdan, Azərbaycandan ayrılmalı oldu. 10 noyabr 1918-ci il tarixdə Azərbaycan hökuməti böyük minnətdarlıqla Nuru paşa ilə vidalaşma mərasimini təşkil etdi və onun şərəfinə təntənəli ziyafət verdi.

O tarixi və ağır illərdə Azərbaycan da müstəmləkə şəraitində (çarizm və bolşevizm) yaşamasına baxmayaraq, Türkiyəyə qardaşlıq yardımını əsirgəməmişdi. Hələ 1912-1913-cü illərdə Balkan və Birinci Dünya (Şərq cəbhəsində) savaşlarında Türkiyə tərəfində Azərbaycan könüllüləri də iştirak etmişdilər. Azərbaycanın xeyriyyə cəmiyyəti Türkiyənin şərq bölgələrində savaşdan zərər çəkən əhaliyə maddi və mənəvi yardımlar göstərmişdi. Birinci Dünya müharibəsi zamanı, 1915-1916-cı illər arasında Osmanlı dövləti ilə Antanta dövlətləri arasında baş verən döyüşdə Çanaqqalada beş min könüllü azərbaycanlı iştirak etmişdi. Onlardan üç mini şəhid olmuşdu. Azərbaycanda sovet rejiminin ilk aylarında da iki qardaş ölkənin arasında yardım əlaqələri davam etmişdi. Türkiyə 1919-1922-ci illərdə imperialistlərə və onların əlaltılarına qarşı Qurtuluş savaşı apararkən Azərbaycan ona müxtəlif yardımlar etmişdi. "Bosfor" qəzetinin 12 yanvar 1922-ci il tarixli sayında dərc olunmuş bir xəbər bu baxımdan diqqəti çəkirdi: "Azərbaycan hökuməti Anadolu yetimlərinə 3 vaqon ağ neft bağışlamışdır".

Amansız sovet rejimi tezliklə iki qardaş ölkə arasında əlaqələri qırdı. Ancaq bu "qırılma" müvəqqəti xarakter daşıdı. Haqq və ədalət yenidən zəfər çaldı - sovet rejimi tarixdə qaldı və qardaş ölkələr arasındakı tarixi bağlılıqlar bərpa olundu. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini elan etdikdən sonra qarşıda duran ən mühüm məsələlərdən biri də onun beynəlxalq aləmdə rəsmən tanınması idi. Noyabrın 9-da Türkiyə hökuməti Azərbaycanın müstəqilliyini rəsmi olaraq tanıdı. Beləliklə, Azərbaycanın müstəqilliyini rəsmən tanıyan ilk dövlət yenə də qardaş Türkiyə oldu. Bundan dörd ay sonra, 14 yanvar 1992-ci il tarixdə Azərbaycanla Türkiyə arasında diplomatik münasibətlər yaradıldı. Bununla da iki ölkə arasında çoxtərəfli əlaqələrin inkişafı üçün geniş imkanlar açıldı. 1992-ci ilin fevralında isə Türkiyə Respublikası və Azərbaycan Respublikası Xarici İşlər nazirlikləri arasında vizasız gediş-gəlişə dair məktub mübadiləsi haqqında sazişlər imzalandı. 1-3 may 1992-ci il tarixdə Türkiyə Respublikasının Prezidenti Turqut Özal Azərbaycanda rəsmi səfərdə oldu. Səfər zamanı birgə bəyanat imzalandı və bununla da iki ölkə arasında strateji əməkdaşlığın təməli qoyuldu. Noyabr ayında ticarət-iqtisadi əməkdaşlıqlara dair imzalanmış sənədlər iki ölkə arasında qarşılıqlı münasibətlərin hüquqi-normativ bazasının yaradılması sahəsində mühüm irəliləyiş oldu.

1993-cü ildə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə respublikanın milli maraqlarını əks etdirən bir çox sahədə olduğu kimi, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına da təkan verən yeni mərhələnin əsası qoyuldu. Bu, hər iki ölkənin daxili durumlarını, beynəlxalq şəraiti, Azərbaycan və Türkiyənin maraqlarını çevik və realistcəsinə əks etdirən bir mərhələ idi. Heydər Əliyevin hazırladığı və yön verdiyi xarici siyasət kursu, sözün həqiqi mənasında, həssaslığı və çevikliyi ilə fərqləndi. Məhz bu səbəbdən Ulu Öndərimiz tərəfindən ifadə edilən "Bir millət, iki dövlət" şüarı iki qardaş ölkə arasında hərtərəfli inkişafın rəmzinə çevrildi.

Heydər Əliyev 8-11 fevral 1994-cü il tarixlərində Türkiyədə ilk rəsmi səfərdə oldu. Səfər zamanı Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bir sıra mühüm sənədlər imzalandı. Bunlar əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokollar, iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq, investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında sazişlər, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı haqqında müqavilə və digər sənədlərdən ibarət idi. Həmin il sentyabrın 20-də isə sadəcə iqtisadi deyil, həm də siyasi baxımdan beynəlxalq əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə Azərbaycan Respublikasının iqtisadi inkişafına böyük təkan verməklə bərabər, onun beynəlxalq münasibətlərdə mövqeyinin möhkəmlənməsinə, o cümlədən Türkiyə ilə hərtərəfli əlaqələrinin dərinləşməsinə böyük töhfə idi. Türkiyənin "Türk Petrolları" Anonim Ortaqlığı (TPAO) şirkəti müqaviləni imzalayan xarici neft şirkətləri konsorsiumunda iştirak etdi.

Türkiyə Prezidenti Süleyman Dəmirəlin 1995-ci il dekabrın 7-9-da Azərbaycana rəsmi səfəri zamanı yenə bir sıra mühüm sənədlər imzalandı və ikitərəfli əlaqələrin çərçivəsi daha da genişləndirildi. 1996-cı ildə Azərbaycan və Türkiyə arasında hərbi, texniki və elm sahələrində əməkdaşlığa dair bir sıra sənədlər imzalandı. Beləliklə, qarşılıqlı münasibətlərin hüquqi-normativ əsaslarının genişlənməsi nəticəsində, iqtisadiyyat, texnika, hərb, elm və mədəniyyət sahələrində əməkdaşlığın gələcək inkişafı üçün geniş imkanlar açıldı.

Artıq hər iki ölkənin dövlət və hökumət başçılarının, rəhbər işçilərinin qarşılıqlı rəsmi və işgüzar səfərləri müntəzəm xarakter almağa başladı. Bütün bu tədbirlər öz müsbət nəticələrini verdi. İki ölkə arasında hərtərəfli əlaqələrin inkişafı Heydər Əliyevin daim diqqət mərkəzində idi. Türkiyə Respublikasının quruluşunun ildönümü münasibətilə 29 oktyabr 1994-cü il tarixdə Gülüstan sarayında təşkil edilən mərasimdə çıxışında Heydər Əliyev Azərbaycan və Türkiyə dostluq və qardaşlığını belə dəyərləndirirdi: "Türkiyə Respublikası Azərbaycanın müstəqilliyini tanıyaraq, eyni zamanda dünyada öz nüfuzundan, təsirindən istifadə edərək respublikamızın mövqeyinin müdafiə olunmasında mühüm rol oynamışdır. İki qardaş ölkənin dostluq, qardaşlıq əlaqələri bizi daha da yaxınlaşdırmış, daha da birləşdirmişdir. Respublikamızın bu ağır şəraitində, Azərbaycanın müharibə içərisində olduğu, iqtisadi-siyasi böhran keçirdiyi bir dövrdə, şübhəsiz ki, dünya birliyinin köməyinə, həmrəyliyinə ehtiyacımız var. Bizim səsimizə səs verənlər arasında Türkiyə Respublikasının səsi həmişə daha yüksəklərə qalxır, daha güclü olur və bunların hamısı bizim dostluğumuzun, qardaşlığımızın rəmzidir, əlamətidir".

Heydər Əliyev 5 may 1997-ci il tarixdə Türkiyədə rəsmi səfərdə olarkən mətbuat üçün verilən bəyanatda ürək sözlərini belə ifadə edirdi: "Bizim ölkələrimizi, xalqlarımızı tarixi köklərimiz, tarixi keçmişimiz, ənənələrimiz, mədəniyyətimiz, dilimiz, dinimiz birləşdiribdir".

Prezident Heydər Əliyev Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkə böyük dəyər verir, onu eyni zamanda bütün türkdilli xalqların mənafeyi baxımından da örnək bir şəxsiyyət kimi xarakterizə edirdi. Ulu Öndər 8 fevral 1994-cü ildə Türkiyədə rəsmi səfəri zamanı Atatürkün qəbrini ziyarət edərkən xatirə kitabında bu səmimi sözlərini yazmışdır: "Unudulmaz Atatürkün müqəddəs adı, solmayan siması min illərdən gələn Türkiyə və Azərbaycan dostluğunun və qardaşlığının gələcək yoluna parlaq işıq saçır". Heydər Əliyevə 1999-cu il Atatürk Beynəlxalq Sülh Mükafatı Ankarada təqdim edilərkən o, çıxışında Atatürkü belə dəyərləndirmişdi: "Mustafa Kamal Atatürk bəşər tarixinin, XX əsrin ən böyük şəxsiyyətlərindəndir. İstiqlal savaşına başçılıq edərkən qalib gəlib, Türkiyə Cümhuriyyətini yaratmaqla o, türk xalqına böyük yol açmışdır. Türkiyə Atatürk ideyalarına sadiq olaraq 76 ildir ki, bu yol ilə gedir və böyük nailiyyətlər əldə etmişdir. Qardaş Azərbaycan xalqı Atatürkün şəxsiyyətinə, onun ideyalarına, qoyduğu dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yanaşır. Atatürkün dahiliyi, müdrikliyi bizim üçün ilham mənbəyidir".

Azərbaycanın Türkiyə ilə qarşılıqlı əlaqələri ildən-ilə daha böyük uğurla inkişaf etdi. Heydər Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində iki ölkə arasında bağlılıqlar Azərbaycanın siyasətinin prioriteti oldu. Regional və beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında səmərəli əməkdaşlığın möhkəm təməli qoyuldu. Hazırda bu əməkdaşlıq BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk PA, Türk Dövlətləri Təşkilatı, EKO, İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu beynəlxalq və regional təşkilatlarda müvəffəqiyyətlə həyata keçirilir.

Azərbaycan-Türkiyə münasibətlərində Qarabağ məsələsi çox mühüm yer tuturdu. Ermənistanın Azərbaycana təcavüzünün ilk günlərindən, münaqişənin başlanğıcından Türkiyə istər ikitərəfli münasibətlərdə, istərsə də regional və beynəlxalq səviyyələrdə daim Azərbaycanın yanında oldu, onun beynəlxalq hüquq normalarına tam uyğun olan tələblərini yorulmadan ardıcıl şəkildə müdafiə etdi. Qardaş ölkə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün daim ardıcıl təşəbbüslər göstərdi. Ümumiyyətlə, bir çox vacib məsələdə olduğu kimi, Qarabağ məsələsində də Türkiyə Azərbaycanı heç bir vaxt tək qoymadı. Bu münaqişənin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə həll edilməsi üçün əlindən gələn köməyi əsirgəmədi.

Türkiyənin dövlət və hökumət rəhbərlərinin Azərbaycana rəsmi və işgüzar səfərləri də müntəzəm xarakter alaraq iki ölkə arasında hərtərəfli münasibətlərin dərinləşməsinə böyük töhfələr vermişdir: 1995-ci ilin dekabrında Türkiyə Prezidenti Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri, Prezident Əhməd Necdət Sezərin 11-12 iyul 2002-ci il tarixdə Azərbaycana ilk xarici rəsmi səfəri zamanı mühüm sənədlər imzalandı. 8-9 dekabr 1998-ci il tarixdə böyük İpək yolunun bərpasına dair Bakıda keçirilən beynəlxalq konfransın işində Prezident Süleyman Dəmirəl də iştirak etdi. Ümumiyyətlə, Azərbaycan Respublikası bir çox sahədə olduğu kimi, qlobal iqtisadi layihələrin həyata keçirilməsində də Türkiyənin yaxından iştirakını ön plana çəkdi və indi də çəkməkdədir.

Azərbaycan Respublikasının neft strategiyası, Xəzər dənizinin enerji ehtiyatlarının dünya bazarına çıxarılması məsələsi Azərbaycan-Türkiyə qarşılıqlı əlaqələrində çox mühüm yer tutmaqdadır. Azərbaycan tərəfindən əsas ixrac boru kəməri marşrutunun müəyyən edilməsində Azərbaycanın və Türkiyənin mənafelərini tam əks etdirən qərarın qəbul edilməsi iki ölkə arasında qardaşlığın aydın ifadəsi idi. 18 noyabr 1999-cu il tarixdə ATƏT-in İstanbul zirvə toplantısında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri - Heydər Əliyev, Eduard Şevarnadze və Süleyman Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair" saziş imzaladılar və "Şahdəniz" yatağından çıxarılan təbii qazın Bakı-Tbilisi-Ərzurum marşrutu ilə Türkiyəyə nəqli üçün qaz boru kəmərinin inşası haqqında qərar qəbul etdilər.

Yuxarıda sözügedən saziş və qərarın həyata keçirilməsi işi uğurla davam etdirildi. Nəhayət, 13 iyul 2006-cı il tarixdə Bakı-Tbilisi-Ceyhan boru xəttinin açılışı oldu. 2007-ci il noyabrın 18-də isə "Şahdəniz" yatağından çıxarılan təbii qaz Avropa sərhədinə çatdırıldı. Bununla da Azərbaycanın təbii qaz qaynaqları Türkiyə-İtaliya-Yunanıstan təbii qaz boru xətti ilə birləşdirildi. Bu birləşmənin Azərbaycanın Avropa məkanına qovuşmasında mühüm rolu oldu.

Azərbaycan-Türkiyə münasibətlərində hərbi sahədə, ordu quruculuğunda əməkdaşlıq da yüksələn xətlə davam etdi. 1999-2002-ci illərdə imzalanan bir sıra sənədlər iki ölkə arasında əməkdaşlığın reallaşmasında mühüm rol oynadı. Bunun bir örnəyi olaraq 1999-cu ildə Azərbaycanın hərbi kontingentinin Türkiyənin hərbi hissələrinin tərkibində Kosovada sülhməramlı missiyanın yerinə yetirilməsində iştirakını qeyd edə bilərik. Hərbi əməkdaşlığa dair sənədlərin imzalanması sonrakı illərdə də davam etdirildi.

İlham Əliyevin 2003-cü ildən Azərbaycanın Prezidenti kimi fəaliyyəti Ümummilli Liderimiz tərəfindən müəyyənləşdirilmiş daxili və xarici siyasət kursunun, o cümlədən Azərbaycan-Türkiyə əlaqələrinin uğurla davam etdirilməsiylə xarakterizə olundu. İlham Əliyevin 13-15 aprel 2004-cü il tarixdə Türkiyəyə rəsmi səfəri iki ölkə arasında əlaqələrin inkişafına yeni təkan verdi. Azərbaycan Prezidentinin 27 may 2004-cü il tarixdə Türkiyədə Azərbaycan Dərnəkləri Federasiyasının Təsis Konfransının iştirakçılarına müraciətində deyilirdi: "Dost və qardaş Azərbaycan və Türkiyə dövlətlərini və xalqlarını bütün sahələrdə eyni məqsədlər, ortaq mövqe birləşdirib. Strateji məqsədlərin ümumiliyi, eyni mədəni-mənəvi dəyərlər, üst-üstə düşən milli maraqlar bütün sahələrdə səmərəli əməkdaşlıq üçün gözəl zəmin yaradır".

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına təkan verən daha bir əlamətdar hadisəni - Bakıda Atatürk Mərkəzinin yaradılmasını qeyd etmək yerinə düşər. 9 mart 2001-ci ildə Azərbaycanın paytaxtında Atatürk Mərkəzinin yaradılması haqqında sərəncam imzalandıqdan üç il sonra 2004-cü il aprelin 10-da mərkəzin təntənəli şəkildə açılışı oldu. Açılış mərasimində iştirak edən Prezident İlham Əliyevin çıxışında mərkəzin əhəmiyyəti, məqsəd və vəzifələri dəqiq şəkildə müəyyənləşdirildi: "...Heydər Əliyev türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk Prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri nəzərə alaraq Atatürk irsinin, ümumiyyətlə, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədi ilə 2001-ci il martın 9-da Azərbaycanda Atatürk Mərkəzinin yaradılması haqqında sərəncam imzalamışdır... Atatürk Mərkəzinin yaradıcısı və ilk fəxri sədri olan Heydər Əliyev bu sənədi imzalamaqla Azərbaycan ilə Türkiyə arasında tarixi əlaqələrin nə qədər sıx olduğunu bir daha nümayiş etdirdi... Elmi araşdırmalar və mədəniyyət təşkilatı olan bu mərkəzin əsas vəzifəsi Mustafa Kamal Atatürkün türk dünyasındakı yerini və rolunu, türkdilli xalqların tarixi və mədəniyyətini fundamental şəkildə hərtərəfli öyrənmək və bu xalqların zəngin irsini təbliğ etməkdir".

2007-ci il fevralın 7-də Tbilisi şəhərində üç dövlət (Azərbaycan, Gürcüstan və Türkiyə) arasında Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin layihəsi ilə bağlı sazişin imzalanması Azərbaycan və Türkiyə arasında münasibətlərdə növbəti əlamətdar hadisə oldu. Bu xətt Asiyanı Avropa ilə birləşdirəcəkdi. Sazişə əsasən, Bakı-Tbilisi-Qars istiqamətində 422 milyon dollara başa gələn 98 kilometr yeni dəmir yolu xətti (68 km Türkiyə, 30 km Gürcüstan ərazisindən keçməklə) çəkildi.

Azərbaycan Türkiyə münasibətlərinin səmərəli, uğurlu inkişafı türkdilli dövlətlər birliyinin möhkəmlənməsinə də müsbət təsir göstərdi. 2009-cu ilin oktyabr ayında Naxçıvanda Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) yaradıldı. Şuranın növbəti zirvə görüşləri 2012-ci ildə Bişkekdə keçirildi, üçüncü görüş isə 2013-cü ildə Bakıda keçirildi.

Azərbaycan ilə Türkiyə arasında ikitərəfli intensiv əlaqələr mədəniyyət, elm və təhsil sahələrində də özünü göstərir. Azərbaycanın və Türkiyənin ali təhsil müəssisələri arasında müntəzəm şəkildə həyata keçirilən təcrübə mübadilələri bu qardaş ölkələrin təhsil sisteminin daha da təkmilləşməsinə yönəlmişdir. Azərbaycan və Türkiyənin ali məktəblərində hər iki ölkənin vətəndaşları qarşılıqlı şəkildə təhsil almaqdadırlar.

15 sentyabr 2018-ci ildə Bakının Qafqaz İslam Ordusu tərəfindən daşnak-bolşevik dəstələrindən azad olunmasının 100 illiyi təntənəli qeyd edildi. Paradda hər iki dövlət başçısı son dərəcə məzmunlu və əhatəli çıxış etdi. Paradda Prezident İlham Əliyevin çıxışı bir daha göstərdi ki, Azərbaycan xalqı öz müstəqilliyini qorumaq əzmindədir və bu məsələdə heç nə ona mane ola bilməz.

Dövlətimizin başçısı bildirdi ki, bugünkü güclü dövlətimiz, güclü Silahlı Qüvvələrimiz bunun bir daha təsdiqidir və belə paradların çox da uzaq olmayan bir dövrdə artıq Xankəndi Şuşa və digər işğal olunmuş ərazilərimizdə keçiriləcəyinə heç bir şübhə yoxdur.

Dövlət başçısı eyni zamanda bəyan etdi ki, düz 100 il öncə Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi və Nuru paşanın rəhbərliyi altında döyüşərək Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi. "Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaq" deyən dövlət başçımız qardaş Türkiyə ilə bugünkü əlaqələrə də nəzər saldı və bildirdi ki, Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir.

Cənab İlham Əliyevin qeyd etdiyi kimi, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun. "Bizim birliyimiz bütün sahələrdə özünü büruzə verir" deyən cənab Prezident təkcə bu il Rəcəb Tayyib Ərdoğanla altı görüşünün olduğunu sözlərinə əlavə etdi. "İkisi Azərbaycanda, ikisi Türkiyədə, ikisi isə beynəlxalq tədbirlər çərçivəsində. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir və hər görüşün böyük əhəmiyyəti var. Siyasi əlaqələr bu gün ən yüksək zirvədədir. Biz uğurlu iqtisadi əməkdaşlıq edirik" - deyə dövlət başçımız bildirdi. Həmcinin qardaş olkənin Prezidenti öz tarixi çıxışında dedi ki, Qafqaz İslam Ordusunun 1918-ci ildə burada həyata keçirdiyi əməliyyatlar o dövrdə Azərbaycanın ərazi bütövlüyünü təmin edərək bugünkü müstəqilliyin təməlini qoyub. Cənab Ərdoğan sonra vurğuladı ki, Azərbaycanın 1991-ci ildə müstəqilliyini yenidən bərpa etməsindən sonra onu ilk tanıyan ölkənin Türkiyə olması heç də təsadüfi deyil. "Bu, qan qardaşlığımızın təbii nəticəsidir. Türkiyə olaraq müstəqilliyinin ilk dövrlərindən başlayaraq Azərbaycana əlimizdən gələn hər cür dəstəyi göstərdik və göstərməyə davam edəcəyik. Bu gün Türkiyə Azərbaycanın sadəcə siyasi və hərbi deyil, eyni zamanda ticarət, iqtisadiyyat, mədəniyyət və digər bütün sahələrdə ən mühüm tərəfdaşıdır..." deyən qardaş ölkənin rəhbəri Qarabağ məsələsində də hər zaman ölkəsinin Azərbaycanın yanında olduğunu və bundan sonra da olacağını açıq şəkildə bəyan etdi.

Azərbaycan Türkiyə sarsılmaz qardaşlığı və hərtərəfli əməkdaşlığı növbəti dəfə 2020-ci ildə 44 günlük Vətən müharibəsində özünü parlaq şəkildə göstərdi. Qardaş ölkənin bizə verdiyi hərbi, siyasi və mənəvi dəstək bir daha göstərdi ki, ən çətin məqamlarda belə qardaş ölkə daim yanımızdadır və bütün imkanları ilə bizi müdafiə edir.

Qardaşlığımızın daha bir bariz nümunəsi tarixi Zəfərdən sonra 2021-ci il iyunun 15-də işğaldan azad olunmuş qədim Şuşa şəhərində Azərbaycan və Türkiyə prezidentləri arasında müttəfiqlik münasibətləri haqqında imzalanmış Şuşa Bəyannaməsidir. Bu bəyannamə ilə ölkələrimiz arasında müttəfiqlik münasibətləri yeni, ən yüksək strateji tərəfdaşlıq səviyyəsinə qaldırılmışdır.

Təsadüfi deyil ki, Şuşada Türkiyə lideri ilə bəyannamə imzalayarkən Azərbaycanın dövlət başçısı hər kəsin yadına Qars müqaviləsini saldı: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələ öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. "Cənub qaz dəhlizi"nin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır".

*Beləliklə, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra onun qardaş Türkiyə ilə hərtərəfli əlaqələrinin yüksələn xətlə inkişaf etməsi, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsinə xidmət etməsi inkarolunmaz həqiqətdir. Sözügedən əlaqələrin Azərbaycanın siyasi-iqtisadi, sosial-mədəni, hərbi sahələrdə qüdrətinin artmasına, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin güclənməsinə yardım edəcəyi şübhə doğurmur.*

**Gövhər BAXŞƏLİYEVA,**
***AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik***

# Xalqı hədəflərinə çatdıran Lider



Bu gün biz böyük bir gələcək qarşısındayıq. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həm 44 günlük Vətən müharibəsində, həm də 23 saatlıq antiterror əməliyyatlarında ordumuzun gücü ilə yeni bir tarix yazdı. Xalqını öz milli hədəflərinə çatdırdı, Azərbaycan dövləti ən yüksək zirvəsinə ucaldı, ən qüdrətli mərhələsinə yetişdi. Qazanılan bu zəfər, bu nailiyyət möhtəşəm və qürurludur, ən başlıcası isə böyük şəxsiyyətlərin vaxtilə xalqı yetirmək arzusunda olduqları misilsiz milli hədəflərdir. Artıq qələbə ilə tamamlanan yeni bir dövr öz sözünü deməyə başlayıb.

Dövlət rəhbərimizin 20 il əvvəl xalqın yekdil dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçildiyi 15 oktyabr günündə Xankəndidə, şəhərin mərkəzi meydanında üçrəngli bayrağımızı ucaltdığı o an illərlə qəlbimizdə yaşamış şirin arzuların gerçəyə cevrildiyi gün idi.

Sözü də imzası qədər dəyərli olan dövlətimizin başçısı İlham Əliyev 20 il əvvəl Prezident kimi and içərkən Azərbaycan xalqına verdiyi bütün sözləri tutdu. İllər əvvəl ölkənin taleyini böyük ümidlərlə ona əmanət etmiş doğma yurdun insanlarının onunla bağlı bütün ümidlərini doğrultdu. O zaman cənab İlham Əliyevin verdiyi ən böyük söz, üzərinə götürdüyü ən ağır məsuliyyət, tarixi reallıqları, dövrün geopolitik şərtlərini nəzərə alsaq, ilk baxışda az qala əlçatmaz kimi görünən ən çətin missiya Azərbaycanın ərazi bütövlüyü ilə bağlı idi. Dövlətimizin başçısı xalqımıza milli maraqlarımızı müdafiə edəcəyini, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağını söz vermişdi. Prezident İlham Əliyev yürütdüyü məqsədyönlü siyasətlə regionun lider dövlətinə çevirdiyi Azərbaycanın hərtərəfli inkişafına paralel olaraq bu missiyanı da heç zaman diqqətdən kənarda qoymadı. Ölkəsini hər gün, hər saat öz müqəddəs məqsədinə doğru apardı. Hər günün davamlı nailiyyətləri ilə Azərbaycan xalqını bir gün Xankəndidə dövlət bayrağımızın dalğalanacağı o müqəddəs ana yaxınlaşdırdı.

## Birnömrəli vəzifə

Ötən iyirmi il ərzində Prezident İlham Əliyev Azərbaycanı gücləndirdi, onu müstəqillik yollarında ilk kövrək addımlarını atan postsovet respublikasından dünya miqyasında özünə layiqli yer tuta bilən, qlobal proseslərə geniş təsir imkanlarına malik güclü, dayanıqlı ölkə statusuna yüksəltdi.

Dövlət rəhbərimizin də qeyd etdiyi kimi, bu gün Azərbaycanın mövqeyi, addımları nəinki bölgədə, daha geniş coğrafiyada böyük məna daşıyır. Azərbaycan bir çox hallarda önəmli təşəbbüslərin müəllifidir. Ötən illər ərzində dövlətimiz getdikcə yüksələn beynəlxalq nüfuzu, əhəmiyyəti, qlobal çevrələrdə daha həssaslıqla dinlənən səsi ilə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün güclü siyasi və hüquqi zəmin formalaşdırdı.

Eləcə də, güclü iqtisadiyyatla özünün real müstəqilliyini təmin etdi. Təkcə son 20 ildə ölkə iqtisadiyyatı dörd dəfədən də çox böyüdü. Azərbaycanın heç bir ölkənin asılılığında olmaması üçün güclü iqtisadi təməl quruldu. Bütün sahələrdə genişlənən imkanlar ordu quruculuğuna şərait yaratdı. İllərlə görülmüş işlər sayəsində Azərbaycan Ordusu təchizatına, döyüş qüdrətinə görə dünyanın ən güclü orduları sırasında qərarlaşdı.

Bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirmək gücündədir. Ordumuz bunu 2016-cı ilin Aprel döyüşlərində də, düşməni kapitulyasiya aktı imzalamağa məcbur qoymuş 44 günlük Vətən müharibəsində də, cəmi 23 saat içində separatçı yuvasını darmadağın edən antiterror tədbirlərində də nümayiş etdirdi.

İyirmi il bundan əvvəl Azərbaycan bayrağının o zaman işğal altındakı bütün ərazilərimizdə, şəhər və kəndlərimizdə qaldırılmasını qarşısına bir nömrəli vəzifə kimi qoymuş Prezident İlham Əliyev ordumuzun gücü, sərkərdə qətiyyəti ilə bu vəzifəni uğurla həyata keçirdi.

Müzəffər Ali Baş Komandanın əmrlərini şərəflə yerinə yetirən əsgər və zabitlərimiz həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror tədbirləri zamanı əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq salnaməsi yazdılar. Bu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan Prezidenti İlham Əliyevin yetişdirdiyi gənc nəslin gücüdür. Bu nəslin təmsilçiləri həyata keçirilən tarixi missiya uğrunda göz qırpmadan ölümə gedir, illər boyu xalqımıza ağır yaralar vurmuş, sıralarımızdan minlərlə qurbanlar aparmış problemin yeni nəsillərə qalmasını istəmirdi. Azərbaycan xalqının təmsilçiləri olaraq biz dövlətimizin ərazi bütövlüyü naminə canını qurban vermiş şəhidlərimizə, sağlamlığını itirmiş qazilərimizə əbədi borcluyuq. Ordumuz qürur mənbəyimiz, şəhidlərimizin uyuduğu torpaq müqəddəs and yerimizdir.

## Əbədi qələbə

44 günlük Vətən müharibəsi, müharibədən 3 il sonra Qarabağdakı separatçı yuvasının ömrünə son qoyan 23 saatlıq antiterror tədbirləri Ermənistanın xislətini bir daha göstərdi. Məlum oldu ki, xaricdəki havadarlarının dəstəyi əsasında onillər boyu sülh danışıqları adı altında oyun oynayan Ermənistan, əslində, heç zaman Azərbaycana bircə qarış da olsun torpaq qaytarmaq fikrində olmayıb. Əsas niyyəti münaqişənin mümkün qədər uzun müddətə dondurulmasına, əbədi xarakter daşımasına, bu yaranın heç vaxt sağalmamasına yönəlib. Onlar Azərbaycandakı yeni nəsillərin zamanla ərazi itkilərini unudacağına, reallıqlarla razılaşacağına bel bağlayırdılar. Yaddan çıxarırdılar ki, Azərbaycan xalqı heç zaman işğalla barışmayacaqdı. Ölkədə yetişən yeni nəsil işğal altındakı torpaqlarımızın azad edilməsini əvvəlki nəsillərdən ən müqəddəs missiya kimi qəbul edəcək və bu missiyanı yerinə yetirməkdən ötrü hər cür fədakarlığa hazır olacaqdı. Necə ki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 il əvvəl bu missiyanı Ulu Öndər Heydər Əliyevin ən böyük ata vəsiyyəti kimi dinləmişdi. Dövlət rəhbərimiz Ata vəsiyyətini şərəflə yerinə yetirdi. Ümummilli Lider Heydər Əliyevin yarımçıq qalmış ən böyük arzusunu reallığa qovuşdurdu. Heydər Əliyevin anadan olmasının 100-cü ilində, "Heydər Əliyev İli"ndə bu böyük dövlət adamının timsalında bu günləri arzulayan bütün vətənsevər insanlarımızın ruhunu şad etdi.

Prezident İlham Əliyevin oktyabrın 15-də Xankəndinin mərkəzi meydanında, Azərbaycanın dövlət gerbi, dövlət bayrağı altında xalqımıza müraciət etdiyi o an bütün dünya azərbaycanlılarının son əsrlərdəki ən böyük qürurverici anlarındandır. Bu əlamətdar bir tarixi hadisədir. Ali Baş Komandanın bəyan etdiyi kimi, bu qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər.

Qarabağdakı separatçı yuvasının dağıdılmasının, Xankəndidəki xunta rejiminin ömrünə son qoyulmasının 1923-cü ildə Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının 100-cü ilinə təsadüf etməsi də Azərbaycan xalqının şanlı qələbəsinin daha bir rəmzidir. Tarixi ədalətin, bir əsr sonra da olsa, öz yerini tutmasıdır. Bu 100 il Azərbaycan xalqı üçün çətin sınaqlar əsri oldu. Tarix torpaqlarımızda yuva qurmuş erməni separatçılarının əli ilə bizi ən ağır imtahana çəkdi, min bir acı yaşatdı, olmazın əzablar verdi. Dövlət himnimizin misralarında da səsləndiyi kimi, minlərlə can qurban oldu. Böyük bir şər ordusu ilə başımıza gətirilən faciələrlə Azərbaycan təkbaşına qaldı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, Türkiyədən başqa heç bir dövlət mənəvi dəstək belə göstərmədi. Onda bütün əsas güclər Ermənistanın arxasında idi. İşğala məruz qaldığımız halda işğalçı ilə bərabər tutulurduq. Haqq səsimizi eşidən yox idi. Torpaqlarımızın hissə-hissə qoparılması, xalqımıza qarşı törədilən soyqırımları, itkilər, inkişafımıza mane olmaqdan ötrü böyük güclərin qarşımıza qoyduqları problemlər və başqa bu kimi kədərli reallıqlarla xarakterik idi. Buna baxmayaraq, yenə də əyilmədik, sınmadıq, mübarizəmizdən geri çəkilmədik. Azərbaycan Prezidenti İlham Əliyev bu reallıqları dəyişdi. İki əsrdə yoluna qoyulması mümkün olmayan münaqişəni ardıcıl işi, yüksək diplomatik fəaliyyəti, "dəmir yumruğ"un zərbəsi ilə həll etdi. Bu ağrı-acılarla dolu əsrin bizlərə öyrətdiyi əsas həqiqətlərdən biri də bu oldu ki, dünyada haqlı sayılmaqdan ötrü güclü olmalısan. Azərbaycan da ötən onilliklərdə keçdiyi inkişaf yolu ilə bu gücü qazandı. Haqq səsini dünyaya eşitdirdi və istədiklərini əldə etdi.

## Müdrik seçim

1992-1993-cü illərdə Ermənistanın yanında duraraq onlara havadarlıq göstərən, torpaqlarımızın işğalına təhrik edən, onların işğal əməllərinə bəraət qazandıran xarici qüvvələr yenə insan faciələri üzərində öz oyunlarını oynamağa çalışırlar. Aradan keçən 30 il, tarixin dərsləri onların xislətində, apardıqları mənfur siyasətin məzmununda, əfsuslar olsun ki, heç nəyi dəyişməyib.

Müstəqil dövlət olaraq öz taleyinə sahib çıxmaq, inkişaf yolu ilə irəliləmək istəyən Azərbaycan kimi ölkələrin başına Ermənistanın açdığı min bir müsibətə, törətdiyi böyük faciələrə, dağıdılan yurdlara, ermənilərin hər cür vəhşiliklərinə, vandalizmə açıq-gizli dəstəkləri ilə bu ölkələr özlərini necə demokratik dövlət, insan hüquqlarının müdafiəçiləri kimi təqdim edə bilirlər, təəccüb doğurur.

Əgər belə qara qüvvələr qanlı əllərini Cənubi Qafqaz regionundan çəksələr, öz təhlükəli oyunlarını buralardan kənarlaşdırsalar, region xalqları yenə də öz aralarında ümumi dil tapıb, sülh içində yaşaya bilərlər. Azərbaycan Prezidenti Xankəndidə bir faktı da xatırlatdı: Ulu Öndər Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdilər. 1969-cu ildən 1982-ci ilə qədər bu torpaqlarda etnik zəmində heç bir xoşagəlməz hala təsadüf edilməmişdi. Ümummilli Lider zaman-zaman iki xalqı üz-üzə qoyub qırğınlara yol açmağa çalışan təxribatçılara, xarici qüvvələrə bu imkanı verməmişdi. Azərbaycanın bütün bölgələri kimi, Qarabağı da inkişaf məkanına çevirmişdi. Bu regionda kənd təsərrüfatının inkişafı üçün 1976-cı ildə Sərsəng su anbarı, Suqovuşan su anbarı inşa edilmişdi. Bölgənin inkişafına böyük investisiyalar qoyulmuş, Ağdamdan Xankəndiyə dəmir yolu çəkilmiş, burada ali məktəb yaradılmış, bu gün də Xankəndi şəhərinin əsas simasını təşkil edən binalar inşa edilmiş, burada yüksək inkişaf göstəriciləri əldə olunmuşdu. 1969-1982-ci illərdə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin doqquz büro üzvündən səkkizinin erməni, birinin azərbaycanlı olması, Azərbaycanda erməni dilində qəzetin nəşri Azərbaycanda yaşayan ermənilər üçün yaradılmış bərabər imkanlar mühitinin sübutu idi. Təəssüflər olsun ki, 1987-ci ildə Ulu Öndər Heydər Əliyev SSRİ rəhbərliyindəki yüksək vəzifəsindən uzaqlaşdırılandan sonra erməni millətçilərinin əlinə fürsət düşdü. Xarici havadarlarının çirkin dəstəyi ilə onlar Azərbaycana qarşı məkrli planlarının icrasına başladılar. Azərbaycanın ovaxtkı rəhbərliyinin vəziyyətə nəzarət edə bilməməsi, göstərdiyi qorxaqlıq, acizlik, qətiyyətsizlik problemin miqyasını gündən-günə böyütdü. Ermənistandan Qarabağa durmadan erməni millətçilərinin, daşnakların, qaniçən cəlladların, beynəlxalq terrorçuların axınının qarşısı vaxtında alınmadı və bu, qısa müddətdən sonra xalqımızın müsibətinə çevrildi. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti başlandı. O dövrdə Azərbaycanın Heydər Əliyevsiz qaldığı 6 il ölkəmizin faciələr tarixinə çevrildi. Müasir tariximizin ən ağır, böhranlı, utancverici illəri kimi keçmişdə qaldı. Torpaqlarımız işğal olundu, təlatümlər burulğanında ölkəyə rəhbərliyi ələ keçirmiş təsadüfi şəxslərin vəzifə kürsüləri uğrunda didişmələri Azərbaycanı böyük fəlakətlərə, böhrana, parçalanma riskinə sürüklədi.

Belə sınaq anında Azərbaycan xalqı ən doğru qərarını verərək Ümummilli Lider Heydər Əliyevi hakimiyyət rəhbərliyinə dəvət etməsi vəziyyəti dəyişdi. Ulu Öndərin hakimiyyətə qayıdışı ölkənin xilasına çevrildi və 1993-cü ildən başlanan dönüş prosesi Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə ucaltdığı bayrağımızla ən böyük hədəfinə yetişdi.

Bir vaxtlar Xankəndidə əyləşib Bakıya barmaq silkələyən, təhdidlər edən separatçıların "liderlərinin" bu gün Bakıdakı istintaq təcridxanasında öz layiqli cəzalarını gözləməsi müdrik xalqımızın zamanında etdiyi doğru seçimlərin təntənəsidir. Bu seçim yurdumuzun insanlarının onilliklər ərzindəki bütün arzularını reallığa qovuşdurdu və bundan sonra da qovuşduracaq. Azərbaycan Prezidentinin rəhbərliyi ilə addımladığımız yol Azərbaycanı güclü edən, bizi böyük hədəflərə doğru aparan alternativsiz yoldur. Yaşadığımız son tarixi reallıqlar da göstərdi ki, haqqımız olanları almaq, haqqımız olanları qoruyub saxlamaq, möhkəmləndirmək üçün güclü olmalıyıq. Əfsuslar olsun ki, dünyada bizim inkişafımızı istəyənlərin, haqq işimizdə yanımızda olanların sayı illər əvvəl olduğu kimi yenə də azdır. Çünki bir çox qlobal güclərin, xüsusən Qərb dünyasının dəyərləri çıxdaş etdikləri ədalətsiz bir zəmanədə yaşayırıq. Qərbin zəfərimizdən sonra Cənubi Qafqazda yaranmış vəziyyətə, Azərbaycanla Ermənistan arasındakı duruma münasibəti, ölkəmizin terrorçu-separatçılara qarşı həyata keçirdiyi antiterror tədbirlərinin mahiyyətinə və nəticələrinə ədalətsiz yanaşması bunun daha bir sübutudur. Qərb dairələri tərəfindən əsassız şəkildə Azərbaycanı "etnik təmizləmə" siyasəti həyata keçirən ölkə kimi təqdim etmək cəhdləri bu dairələrin ədalət prinsiplərindən, həqiqət dəyərlərindən nə qədər uzaq düşdüklərini və bununla özlərini necə eybəcər hala saldıqlarını göstərir. Təəssüf ki, Avropa Parlamenti, Avropa İttifaqı kimi təşkilatlar, Fransa, Niderland, Almaniya və digər bu kimi ölkələr tutduqları mövqedə aydın sezilən bu mənzərəni öz simalarına rəva görürlər. Ermənistana maliyyə və humanitar yardım ara vermir. İşğalçı ölkənin silahlandırılması istiqamətində addımlar atılır. Avropa İttifaqının bu ölkədəki hərbiləşmiş missiyasının müddətinin uzadılması ehtimalı artır. N.Paşinyan başda olmaqla Ermənistan rəsmilərinə siyasi reveranslar edilir. Bütün bunlar özünü guya regionda sülhün, inkişafın olması marağında göstərən Qərbin, əslində, nə qədər ikiüzlülüyünə, riyakarlığına, ikili standartları öz əsas dəyərlərinə çevirməsinə dəlalət edir.

Amma məşhur bir atalar sözümüzdə deyildiyi kimi, "yel qayadan nə aparar?!" Bütün riyakarlıqlara, açıq-gizli təzyiq və təhdidlərə rəğmən Azərbaycan öz qətiyyətli mövqeyindədir. Dövlətimiz getdikcə güclənir, inkişaf edir və yeni-yeni nailiyyətləri ilə sübuta yetirir ki, önümüzü kəsmək istəyənlər bizim əzmimizdən daha gücsüz və miskindirlər.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## <u>XİN:</u> "Fransa təcavüzkar Ermənistanı silahlandırmaq məqsədi daşıyan məkrli siyasətinə son qoymalıdır"

Oktyabrın 27-də Fransa prezidenti Emmanuel Makronun Avropa İttifaqı Şurasının Brüsseldə keçirilmiş iclası çərçivəsində Azərbaycana qarşı səsləndirdiyi əsassız və qərəzli iddialarını qətiyyətlə pisləyir və rədd edirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilib.

Diqqətə çatdırılıb ki, onilliklər ərzində vasitəçi olarkən ölkəmizin 20 faiz ərazisinin Ermənistan tərəfindən işğalına göz yuman və ərazilərimizdə separatizmi təşviq edən Fransanın Azərbaycan tərəfini Ermənistanın ərazi bütövlüyü və suverenliyinə təhdid yaratmaqda ittiham etməsi gülünc və qəbuledilməzdir. Fransa heç vaxt uğurlu vasitəçilik səyləri aparmayıb və onun keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə vasitəçiliyi Minsk qrupu ilə birlikdə başa çatıb.

Eynilə, beynəlxalq öhdəliklərə, o cümlədən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə uyğun olaraq Azərbaycanın dəfələrlə Ermənistan silahlı qüvvələrinin çıxarılmasına, qondarma erməni rejiminin ləğvinə dair çağırışlarına baxmayaraq, Fransa tərəfi Ermənistanı beynəlxalq hüququn norma və prinsiplərinə uyğun hərəkət etməyə təşviq etmək üçün heç bir iş görməyib.

Fransa Ermənistana yalan vədlər vermək əvəzinə, Ermənistana düzgün istiqamət versəydi Azərbaycana qarşı olan təhdidi güc yolu ilə həll etməyə ehtiyac olmazdı və məsələ sülh yolu ilə həll olunardı. Məhz Fransanın iştirak etdiyi vasitəçilik səylərinin nəticə verməməsi və Ermənistanın işğalçı siyasətinin qarşısının alınmaması Azərbaycanı öz torpaqlarını hərbi yolla azad etməyə sövq edib.

Bu xüsusda, Fransanın mövqeyi onun keçmiş müstəmləkə bölgələrindəki mövcud vəziyyətdən dərs almaqdan imtina etdiyini nümayiş etdirir. Bunun əksinə, Fransa inadkarcasına Afrika və digər regionlardakı uğursuzluqlarını bölgəmizə əvvəlcədən uğursuzluğa məhkum olmuş müdaxiləsi ilə kompensasiya etməyə çalışır. Əgər Fransa keçmiş müstəmləkələrindəki kövrək mövcudluğundan irəli gələn məsələləri daha az ağrısız həll etmək istəsə, Azərbaycan bu istiqamətdə vasitəçilik xidmətlərini təqdim edə bilər.

Fransa bölgəmizdə sülh və sabitliyə mane olan təcavüzkar Ermənistanı dəstəkləmək və silahlandırmaq məqsədi daşıyan məkrli siyasətinə son qoymalıdır.

## Strasburqda keçirilən beynəlxalq tədbirdə erməni təxribatının qarşısı alınıb

Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Strasburqda keçirilən 45-ci sessiyasında erməni təxribatının qarşısı alınıb.

AZƏRTAC xəbər verir ki, konqres çərçivəsində Azərbaycan nümayəndə heyətinin tam tərkibdə iştirak etdiyi sessiya səmərəli keçib. Sessiyanın sonuncu günündə ermənilərin və onları dəstəkləyən qüvvələrin cəhdlərinə baxmayaraq, son anda gündəliyinə salınan "Qarabağ və ətraf şəhərlərdə və regionlarda humanitar vəziyyətə dair Bəyanat"da "Dağlıq Qarabağ", "etnik təmizləmə", "ermənilərin mədəni və dini irsinin qorunması" və buna oxşar digər müddəalar sənəddən çıxarılıb.

Azərbaycanın Konqresdə iştirak edən nümayəndə heyətinin rəhbəri Anar İbrahimov deyib ki, AŞ PA-nın son sessiyasında qəbul olunan bəyanatda bu müddəaların saxlanmasından ilhamlanan ermənilər Avropa Şurası Konqresində də bunu təkrarlamağa çalışıblar. "Düzdür, bəyanat tam şəkildə bizi qane etmir. Ümumiyyətlə, bu məsələ Azərbaycanın daxili işidir və heç bir müzakirəyə çıxarılmamalıdır. Nümayəndə heyətimizin təkidi ilə, həmçinin sessiyada qəbul olunan "Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilmiş yerli seçkilərlə bağlı hesabat" məsələyə aid olmayan müddəalardan və digər ifadələrdən təmizlənib", - deyə A.İbrahimov bildirib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri diqqətə çatdırıb ki, müzakirələr Avropanın yerli və regional elitasının artıq yeni reallıqları qəbul etdiyini göstərdi. "Onların Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı yeni reallıqları qəbul etməkdən başqa çarələri yoxdur", - deyə o vurğulayıb.

## Beynəlxalq tədbirin iştirakçıları Bakı limanında olublar

Oktyabrın 28-də Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası Baş Assambleyasının 42-ci iclasının iştirakçıları Bakı Beynəlxalq Dəniz Ticarət Limanına səfər ediblər.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyasının prezidenti Həbib Həsənov və Ümumdünya Nəqliyyat Yolları Təşkilatının baş katibi Umberto De Pretto rəhbərlik ediblər.

Əsas məqsəd Bakı limanının avtomobil daşımalarındakı əhəmiyyətini və perspektivləri nəzərdən keçirmək olub.

Səfər çərçivəsində qonaqlar Bakı limanının əməliyyatlar üzrə baş inzibatçısı Yucin Seah ilə görüşüblər. O, Bakı limanında əməliyyatların icrasında operativliyin artırılması üçün tətbiq edilən yeniliklər, "yaşıl logistik hab"ın icrası üçün atılan addımlar, infrastruktur layihələri haqqında qonaqlara məlumat verib.

Nümayəndə heyəti Bakı limanında yüklərin daşınmasını və terminallardakı iş prosesini birbaşa müşahidə edib.

## Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, oktyabrın 28-də fövqəladə hallar naziri Kəmaləddin Heydərov Tovuz şəhərində, Olimpiya İdman Kompleksinin inzibati binasında Tovuz, Ağstafa və Qazax rayonlarının sakinləri ilə görüş keçirib. FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fövqəladə hallar naziri tərəfindən qəbul edilən Tovuz, Ağstafa və Qazax rayonlarının sakinlərinin müraciətlərinin əksəriyyəti yerində həllini tapıb. Bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri də vətəndaşlarla görüşüb.

Görüşə gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıq ediblər.

# Bakı sülhə hazırdır



Azərbaycan Cənubi Qafqaz regionunda sülh, sabitlik və əməkdaşlıq mühitinin təmin olunmasının tərəfdarıdır. 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra respublikamız davamlı olaraq bu təşəbbüslə çıxış edib və Ermənistana sülh sazişi imzalamaq təklifini irəli sürüb. Postmüharibə dövründə aparılan sülh danışıqlarında iştirakı ilə Bakı sülhə sadiq olduğunu dəfələrlə bəyan edib.

Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib ki, sentyabrda ordumuzun Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirlərindən sonra suverenliyimiz tam təmin olunub. Bu, ümumilikdə regionda təhlükəsizliyin möhkəmlənməsi və sülhə nail olunması üçün yeni imkanlar yaradır. Hazırda bölgədə sülhün təmin olunması məqsədilə bir sıra beynəlxalq platformalar çərçivəsində müzakirələr aparılır. Azərbaycan regionda sülhün bərqərar olması naminə irəli sürülən beynəlxalq təşəbbüsləri dəstəkləyir. Sadəcə, Ermənistan hakimiyyəti özündə iradə tapıb regionumuzun gələcəyi naminə sülh sazişini imzalamalıdır. Təəssüf ki, biz hələ də bunu müşahidə etmirik.

Deputat xatırladıb ki, Azərbaycan sülh sazişi imzalamaq üçün qarşı tərəfə beş bənddən ibarət təkliflərini təqdim edib: "Bu baza prinsiplərində ilk olaraq dövlətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması əks olunub. İkincisi, dövlətlərin bir-birinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsidir. Üçüncüsü, dövlətlərarası münasibətlərdə bir-birinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək, dördüncüsü, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulmasıdır. Beşinci bənd isə nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulmasından ibarətdir".

Müsahibimizin dediyinə görə, iki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilər. Beləliklə, rəsmi Bakının sülh sazişinin imzalanması üçün təklifləri aydındır və bu təkliflər beynəlxalq hüquq normalarına əsaslanır.

Pərvin Kərimzadə qeyd edib ki, müəyyən beynəlxalq aktorlar Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün vasitəçilik edirlər: "Onlar sülhün təmin olunmasına töhfə vermək istəyirsə, beynəlxalq hüququ və ədalət prinsipini əsas götürməlidirlər. Amma təəssüflər olsun ki, biz bir sıra hallarda bəzi beynəlxalq təşkilatların və ölkələrin proseslərə birtərəfli qaydada, obyektivlikdən uzaq formada yanaşdıqlarını müşahidə edirik.

"Xüsusilə Azərbaycan antiterror tədbirləri nəticəsində öz dövlət suverenliyini təmin etdikdən sonra Ermənistana havadarlıq edən xarici dairələr ölkəmizə qarşı əsassız iddialar səsləndirir, hətta Ermənistanı silahlandırmağa çalışırlar. Əlbəttə ki, bütün bunlar regionda sülhün əldə olunmasına böyük əngəllər yaradır. Lakin Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan haqq yolundadır, bizim iradəmizə heç bir qüvvə təsir edə bilməz, heç kim bizə nəyisə diktə edə bilməz. Sülh region ölkələrinə lazımdır. Ona görə də Ermənistan sülhə gəlməlidir. Başqasının diktəsi ilə hərəkət etmək bu ölkə üçün ciddi problemlər yaradacaq", - deyə o vurğulayıb.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Ermənistanın "qaçqın" avantürası

Erməni xisləti yenə işə düşüb. Qarabağda "fəaliyyət" göstərmiş qondarma separatçı rejimin rəhbərlərinin və onların yaratdıqları silahlı quldur dəstələrinin təzyiqi, eləcə də Ermənistan rəhbərliyinin çağırışı ilə yaşayış yerlərini könüllü tərk edənlərə Ermənistanda kütləvi surətdə "qaçqın" statusu verilir. İddia oluna bilər ki, Ermənistan müstəqil dövlətdir, bu onun öz işidir. Amma "müstəqil" Ermənistanın pərdəarxası oyunlarını görməmək mümkün deyil.



İlk növbədə Ermənistan qaçqınların sayını 100 min və daha artıq göstərməkdə məqsədi indiyə kimi uydurduğu yalanını siyasi avantüraya çevirməkdir. Necə deyərlər, ermənilərin məqsədi bir gülləylə iki dovşan vurmaqdır. Birincisi, bu yalanı uydurmaqla iqtisadi cəhətdən ağır durumda olan Ermənistan beynəlxalq təşkilatlardan 100 min qaçqın üçün yardım almağı planlaşdırır. İkincisi, strateji hədəfləri qaçqınların sayını şişirtməklə Azərbaycana beynəlxalq təşkilatlar, onları himayə edən dövlətlər vasitəsilə təzyiq göstərməkdir.

Azərbaycanın 19-20 sentyabr 2023-cü ildə Qarabağda keçirdiyi lokal xarakterli antiteror tədbirlərindən sonra işə düşən qaçqın "problemi" Ermənistanın ehtiyatda saxladığı "B" planıdır. Onu işə salmaq üçün "fürsət" gözləyən Ermənistan yaranmış vəziyyətdən istifadə etməyə çalışır. İllərdir ki, işğalçı dövlət Qarabağda 125 min erməninin yaşadığını, onların "blokada"dan, "humanitar fəlakət"dən əziyyət çəkdiklərini iddia edirdi. Hətta Qarabağda yaşayanlardan 2000 nəfərin hamilə qadın olduğu da iddialar sırasında "ciddi" yer alırdı. Erməni şirəsinə uyuşan bəzi korrupsioner təşkilatlar da hazırladıqları "hesabatlar"da bu rəqəmləri məqsədli şəkildə tutuquşu kimi təkrarlayırdılar. Məqsəd qara günləri üçün saxladıqları "B" planı işə düşəndə bu rəqəmlərdən Azərbaycana təzyiq kimi istifadə etmək, həm də beynəlxalq təşkilatlardan, onlara dəstək olan dövlətlərdən külli miqdarda vəsait almaq idi.

Məsələ burasındadır ki, istər ermənilər Qarabağı könüllü tərk edən zaman, istərsə də ondan əvvəl və sonra nə Qarabağda, nə də Ermənistana köçən bir Qarabağ ermənisinin dünyaya uşaq gətirməsi barədə məlumat yoxdur. Olsaydı, dünyaya gələn bu vətənsizi bütün dünyaya nümayiş etdirərdilər, yəqin ki, doğulan körpənin adını da Artsax qoyardılar.

Bu bir faktdır ki, heç vaxt Qarabağda Ermənistanın indi iddia etdiyi qədər 100 və ya 125 min erməni yaşamayıb. Ermənistan illərdir işğal etdiyi ərazilərdə dünyanın bir sıra ölkələrindən gəlmiş erməniləri qanunsuz məskunlaşdırmaqla məşğul olub. Ortada kifayət qədər dəlil-sübutlar var. Yenə də Qarabağda və işğal etdikləri ərazilərdə məskunlaşdırdıqları ermənilərin sayını 100 minə çatdıra bilməyiblər. Rəqəmlər bunun üçdəbiri civarında olub. Həmin rəqəmlərin artmasına Ermənistanın ərazilərimizə qanunsuz yerləşdirdiyi hərbçilər "kömək" edib.

Ermənistan rəhbərliyi avantüraya əl atmazdan əvvəl bir məsələyə də xüsusi olaraq diqqət etməlidir ki, indiyə kimi Ermənistanın "işinə qarışmadığı "Artsax prezidentləri" Bakıdadırlar. Onlar əsl həqiqətləri istintaq zamanı yazılı şəkildə etiraf edirlər. Ortada separatçıların istintaq altında olan "liderləri"nin ifadələrində Qarabağda Ermənistan ordusunun 15 minə yaxın hərbçisi olduğu faktı da var. Konkret olaraq nəticə belədir ki, Ermənistan heç bir əsas olmadan öz məqsədləri üçün Qarabağı könüllü tərk edən ermənilərin sayını məqsədli şəkildə şişirdir.

Ermənilərin uzun illər işğal altında saxladıqları Şuşada, Laçın şəhərində, Laçının Zabux və Sus kəndlərində, eləcə də Xocalı şəhərində, Zəngilan, Kəlbəcər, Ağdam rayonunun kəndlərində kütləvi məskunlaşma apardıqları barədə bu ərazilərdən Ermənistanın və onun təsirinə düşən dünya KİV-inin repotajlar verməsi faktları var. Qarabağı tərk edən ermənilərin böyük əksəriyyəti bu torpaqlarda mövsümi istirahət etmək üçün müvəqqəti gəlmiş "köçərilər"dir. Görəsən Qarabağda qohumunun evinə və ya turist kimi yay, yaz mövsümündə bu səfalı yerlərin havasını udmaq üçün gələn qonaqlara "qaçqın" statusu verməkdə "humanistlik" edən Ermənistan və ona bu gün təəssübkeşlik edən dövlətlərin, beynəlxalq təşkilatların marağı nədir? Əlbəttə, bunun arxasında məkrli məqsəd var.

30 il bir milyondan çox azərbaycanlı zorla, silah gücünə, vəhşicəsinə öz yurdundan didərgin salındı. Bu 30 ildə beynəlxalq təşkilatların, dünya birliyinin 2020-ci ilin 44 günlük müharibəsindən keçən qısa bir zamanda Ermənistana göstərdikləri maddi yardımın cüzi hissəsi qədər azərbaycanlı məcburi köçkünlərə və qaçqınlara yardım etdiklərini görmədik. Heç mənəvi dəstəklərini də hiss etmədik. Təbii ki, burada din, xiristian təəssübkeşliyi ilə yanaşı, hazırda Ermənistanı silahlandırıb üstümüzə qaldıran, yenidən münaqişənin yaranmasında maraqlı olan dövlətlərin rolu az deyil.

Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasında "qaçqın" anlayışı çox konkret şəkildə təsbit olunur və digər məqamlarla yanaşı, "beynəlxalq sərhədi keçən insan" anlayışı qabardılır. Unutmaq lazım deyil ki, Qarabağdan könüllü köçənlər Ermənistanın Qarabağda qanunsuz məskunlaşdırdıqları vətandaşlarıdır. Onların əksəriyyəti Ermənistan pasportu daşıyır. Sərhədi keçərkən də onlara qarşı hər hansı təzyiqin, zorakılığın olmadığını, Ermənistan baş nazirinin çağırışı ilə getdiklərini çəkinmədən deyirdilər.

Burada bir məsələni də qeyd etməyi vacib bilirik. Ermənistanda iqtisadi böhran bu ölkədə əhalinin demoqrafik dəyişikliyinə ciddi surətdə təsir göstərib. Bu ölkənin Statistika Komitəsinin məlumatına görə, son zamanlar Ermənistanı tərk edənlərin sayı ciddi surətdə artmaqdadır. Sürətlə azalan Ermənistan əhalisinin sayını süni surətdə artırmaq məqsədilə Qarabağda yaşayan erməniləri Ermənistana çağıran Nikol hökuməti indi də bundan öz çirkin niyyətlərini həyata keçirmək üçün istifadə etməyə cəhd edir.

Ermənistan bir məsələni də unutmamalıdır ki, Qarabağdan getmiş şəxslərin geri qayıtması məsələsindən öncə müzakirə mövzusu bu dövlətin zorla Qərbi Azərbaycandan deportasiya etdiyi soydaşlarımızın öz torpaqlarına ləyaqətlə qaytarılması məsələsi müzakirəyə çıxarılmalıdır. Azərbaycan Qarabağdan köçən vətəndaşlarının evlərini, mülklərini qoruyur, hətta gedərkən bərbad vəziyyətə saldıqları, antisanitariya şəraiti yaratdıqları küçələri təmizləyib dezinfeksiya da edib. Bu gün Ermənistana vəkillik edən dövlətlər, az qala erməni dilində danışan beynəlxalq təşkilatlar azərbaycanlıların deportasiya olduqları Qərbi Azərbaycanda, Ermənistanın uzun illər işğalda saxladığı torpaqlarda azərbaycanlılara məxsus bircə salamat ev tapa bilərlərmi?

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Ermənistanın niyyəti xarici təşkilatlardan pul qoparmaqdır

## Qarabağdan gələn ermənilərə "qaçqın" statusunun verilməsi də buna xidmət edir



Ermənistan hökuməti Qarabağı könüllü tərk edən ermənilərə "qaçqın" statusu verməklə beynəlxalq hüququn norma və prinsiplərini növbəti dəfə pozur. Bu ölkə ərazilərimizdə yaşayan erməniəsilli şəxslərin sayını süni surətdə artırmaqla, onların Qarabağdan zorla çıxarıldıqlarını iddia etməklə beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır.

Lakin unudur ki, bütün dünya Qarabağdan gedən ermənilərin yaşadıqları şəhər və kəndləri öz istəkləri ilə könüllü tərk etdiklərinə şahiddir, həmçinin işğal olunmuş ərazilərdə məskunlaşdırılan şəxslərin nə mülkiyyət hüququ, nə də qaçqın statusu tanınır. Ona görə də Ermənistanın özünü məzlum duruma salaraq xarici ölkələrdən guya mədəni formada pul dilənməsi iflasa məhkumdur.

Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Fazil Mustafa deyib ki, Qarabağdan Ermənistana köçən ermənilərə "qaçqın" statusunun verilməsi absurddur: "Onlar qaçqın deyillər, könüllü olaraq ərazilərimizi tərk ediblər. Bu baxımdan Ermənistanın Qarabağda yaşayan ermənilərin "qaçqın" statusu ilə müftə pul əldə etmək məqsədi iflasa məhkumdur. Nəzərə almaq lazımdır ki, o vaxt qaçqın hesab olunur ki, həmin şəxslər əraziləri tərk etməyə məcbur edilirlər".

Deputat vurğulayıb ki, bizim ərazilərimizdə yaşayan erməniəsilli şəxslərin Ermənistanda yaşamağı seçmələri könüllü xarakter daşıyır və bu, bütün dünyaya məlumdur. Biz bununla bağlı dəfələrlə bəyanatlar vermişik, indi də onların geri qayıtmaları üçün çağırışlar edirik. Belə olan halda onlara "qaçqın" donu geyindirmək dünyanın bir sıra aparıcı təşkilatlarından pul qoparmaq niyyətini güdür.

Fazil Mustafa deyib ki, Ermənistan hökumətinin və xalqının belə saxta yola əl atması onların xislətindən irəli gəlir: "Davamlı olaraq saxtakarlıqlar edərək müxtəlif qurumlardan maliyyə yardımı qoparmaq ermənilərdə ənənə halını alıb. Lakin bu dəfə məqsədlərinə nail ola bilməyəcəklər".

Müsahibimiz 30 illik işğal dövründə Ermənistanın orada yaşayan şəxslərin sayını süni şəkildə artırdığını da xatırladıb. Bildirib ki, erməni xisləti burada da öz işini görüb, əhalinin sayını çox göstərməklə, müqabilində xaricdən daha böyük həcmdə ianə və yardım toplaya biləcəyini hesablayıb: "İndi də fürsətdən özünəməxsus şəkildə yararlanmağa və qaçqınlara yardım adı altında ölkəyə daimi "pul axını"nı təmin etməyə çalışır".

Fazil Mustafa həmçinin "qaçqın" statusunun kimlərə şamil oluna biləcəyi barədə də danışıb. Söyləyib ki, Qarabağ və Şərqi Zəngəzur işğal olunandan sonra həmin ərazilərə köçürülmüş və qanunsuz məskunlaşma yolu ilə oraya yerləşdirilmiş insanlar qaçqın hesab edilə bilməzlər. Ümumiyyətlə, qanunsuz məskunlaşma cinayət olduğuna görə belə adamlara "qaçqın" statusunun verilməsi haqq və hüquqa ziddir.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

# Təbiətin, bəşəriyyətin düşməni

## Ermənistan bunu mina terroru ilə də təsdiqləyir

Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında apardığı 44 günlük Vətən müharibəsində ermənilərə qalib gəldi. Uğurla başlayan və elə uğurla da başa çatan döyüşlərdən sonra torpaqlarımız qəsbkarlardan azad olundu. 30 ilə yaxın davam edən işğala son qoyuldu. Düşmən ordumuz qarşısında diz çökdürüldü.

İşğal müddətində ermənilər torpaqlarımıza saysız-hesabsız minalar basdırıblar. İndi xalqımız düşmənin basdırdığı bu minalardan əziyyət çəkir. Buna görə də Azərbaycan hazırda dünyada ərazisi ən çox minalarla çirklənmiş ölkələrdən sayılır. Ortaya çıxan faktların çoxu onu göstərir ki, minaların əksəriyyəti 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanatdan sonra basdırılıb. Zərərsizləşdirilərkən aşkarlanan həqiqət onu təsdiq edir ki, bu ölümsaçan minalar 2021-2022-ci illərdə Ermənistanda istehsal olunub. Sanki bu mənfurlar İkinci Qarabağ müharibəsindəki məğlubiyyətinin əvəzini mina terroru ilə çıxmaq istəyirlər.

Azərbaycan müxtəlif səviyyələrdə aparılan danışıqlarda Ermənistandan basdırılmış minaların xəritəsini tələb edir. Amma düşmən yalançı bəhanələr uyduraraq bu haqlı tələbdən imtina edir. Bəzən də məcbur qalıb verdiyi mina xəritələri reallığa uyğun gəlmir. Üst-üstə düşməyən bu reallıq isə zaman-zaman insanları məhv edir, təbiətin düşməninə çevrilir.

Vətən müharibəsindən sonra da Qarabağdakı sepatarçılar gizli yollarla Ermənistandan ərazilərimizə silah-sursat və minalar daşıyırdılar. Erməni təxribatçı qrupları kimlərinsə vasitəçiliyindən istifadə edib bu minaları işğaldan azad olunmuş ərazilərimizdə basdırırdılar. Təəssüflər olsun ki, bu günə kimi neçə-neçə mülki insanımız və hərbçimiz həmin minaların qurbanı olublar. Ermənistandan gətirdikləri azmış kimi ermənilər Qarabağ bölgəsində mina istehsal edirmişlər. Bu günlərdə əraziyə baxış keçirilən zaman erməni terrorçu qrupların Qarabağda kustar üsullarla əldəqayırma partladıcı vasitələr hazırladığı emalatxana aşkarlanıb. Emalatxananın içərisində xeyli əldəqayırma minalar və onların hazırlanmasında daha çox canlı qüvvəni məhv etmək üçün istifadə edilən metal parçalar, eləcə də digər partlayıcı qurğuların olduğu müəyyən edilib.

Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi məqsədilə mühüm işlər görür, zəruri addımlar atır. Atılan bu addımlar nəticəsində ərazilərimiz minalardan və partlamamış silah-sursatlardan təmizlənir. Ərazilər təmizləndikcə böyük quruculuq işləri aparılır. Bir-birindən uğurlu layihələr həyata keçirilir. Şəhərlər, kəndlər bərpa olunur. Azərbaycan dövləti demək olar ki, öz gücü hesabına azad olunmuş ərazilərini minalardan təmizləyir.



Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin məlumatında bildirilir ki, işğaldan azad edilmiş torpaqlarımızda təxminən 1,5 milyon ədəd mina basdırılıb. Minalar daha çox evlərin astanasında, həyətlərdə yerləşdirilib. Ümumiyyətlə, mina partlayışlarının 70 faizi əvvəlki təmas xəttindən çox uzaqlarda baş verib. 52 hadisə keçmiş təmas xəttində, 137 partlama hadisəsi isə digər ərazilərdə baş verib. Aydın görünən odur ki, ermənilər minalanma cinayəti ilə çox geniş şəkildə məşğul olublar. Məqsəd Azərbaycan vətəndaşlarına zərər vurmaq, qayıdış prosesini ləngitməkdir.

19-20 sentyabr 2023-cü il tarixlərində aparılan son antiterror tədbirləri nəticəsində Azərbaycan 480 kilometrlik xətt boyunca Ermənistan silahlı qüvvələrinin qalıqları tərəfindən azı yarım milyondan çox minanın basdırıldığını aşkarlayıb.

Prezident İlham Əliyev oktyabrın 11-də MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçıları ilə görüşdə bir daha bu mövzuya toxunaraq deyib: "2020-ci ildən 2023-cü ilin əvvəlinədək - Azərbaycanın Laçın rayonunda sərhədə nəzarət etmədiyi bir vaxtda oraya sayı milyonlarla ölçülən nəhəng döyüş silah-sursatları daşınıb, bu isə tamamilə yaxın vaxtlarda aşkara çıxarılıb. Minalar gətirilib, ərazi əlavə olaraq minalanıb. Bütün bunların hamısı ona gətirib çıxarıb ki, azərbaycanlılar öz torpaqlarında həlak olmağa davam ediblər. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bizim 315 nəfər hərbi və mülki vətəndaşımız həlak olmuş və ağır şəkildə yaralanmışdır. Təəssüf ki, onların sayı hər həftə artır".

Beynəlxalq qurumlar, xarici ölkələr Azərbaycanın üzləşdiyi bu ağır problemə daha həssas yanaşmaq, dəstək vermək, Ermənistana təzyiq göstərmək əvəzinə ölkəmizə qarşı qərəzli qətnamələrin, bəyanatların qəbul edilməsinə çalışırlar.

Bəzi ekspertlər ermənilərin mina terrorunu alman faşizmi ilə müqayisə edirlər. Əslində isə, ermənilərin mina terroru bəşəriyyət və insanlıq üçün alman faşizmindən də qorxulu və təhlükəlidir.

Ermənistan bu hərəkətləri ilə "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını, həmçinin BMT-nin 1999-cu ildə qəbul etdiyi "Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının toplanması, istehsalı və verilməsinin qadağan edilməsi haqqında" Konvensiyanın müddəalarını kobud şəkildə pozur.

Ermənistanın mina terroru səngimədikcə, dinc sakinlər arasında günahsız qurbanların sayı artmaqda davam edir. 10 noyabr 2020-ci il tarixdən etibarən mina qurbanlarının sayı 331 nəfərə çatıb. Elə bu günlərdə Tərtər rayonunun ərazisində iki Azərbaycan vətəndaşı minaya düşüb. Ermənilər təkcə insanların deyil, təbiətin qoynunda yaşayan heyvanların da düşmənləridir. Çünki insanlarla bərabər, heyvanlar da ermənilərin basdırdığı minaların qurbanı olurlar. Bu günlərdə hərbçilərimiz Qarabağ meşələrində minaya düşüb ayaqlarını itirmiş heyvanları görüblər. Həmin heyvanların şəkilləri müxtəlif televiziya kanallarında nümayiş etdirilib. Hələ antiterror əməliyyatından əvvəl ermənilər Laçın bölgəsində itin boynuna uzaqdan idarə olunan mina quraşdırıb mövqelərimizə istiqamətləndirmişdilər. Mütəxəssislərin bacarığı və çevikliyi sayəsində mina zərərsizləşdirilmiş, it xilas edilmişdi.

Qeyd olunan bu fakt bir daha sübut edir ki, ermənilər təkcə insanların deyil, təbiətin də, təbiətin qoynunda yaşayan heyvanların da düşmənidir. Əgər onlar təbiətin, insanların düşmənidirsə, deməli, bütün bəşəriyyətin düşmənidir. Bəşəriyyətin düşməni olan erməni terrorçuları bu qeyri-insani əməllərinə görə beynəlxalq təşkilatlar tərəfindən ciddi şəkildə cəzalandırılmalıdırlar.

***Vahid MƏHƏRRƏMOV***

# 40 kilometrlik yolu çəkə bilmir...

## Amma Cənubi Qafqaz üçün yeni utopik layihə təklif edir

İkinci Qarabağ müharibəsində əldə edilmiş böyük zəfərdən sonra yaranmış reallıqlardan biri də regionda yeni nəqliyyat-kommunikasiya infrastrukturlarının yaradılması idi. Bu, 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatının 9-cu bəndində də təsbit olunub. Azərbaycan regionun geoiqtisadi imkanlarının daha da genişlənməsi üçün nəzərdə tutulan proseslərin reallaşması istiqamətində mühüm addımlar atmaqdadır.

Ümumiyyətlə, bu gün Azərbaycan beynəlxalq miqyaslı transmilli layihələrin reallaşmasında aktiv rol oynayır və Prezident İlham Əliyevin qlobal təşəbbüsləri ilə ölkəmiz Avropa ilə Asiya arasında ticarət körpüləri yaradır. "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal aktorlarından biri kimi Azərbaycan üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir və bu proseslərə mühüm töhfəsini verir.

### Ermənistan Zəngəzur dəhlizinin reallaşmaması üçün əlindən gələni edir

Bu prosesdə prioritetlərdən biri Zəngəzur dəhlizinin yaradılması idi. Əgər diqqət etsək görərik ki, müharibədən sonra ötən 3 il müddətində Azərbaycan dəhlizin yaradılması istiqamətində çox mühüm işlər görüb. Belə ki, Zəngəzur dəhlizinin Ermənistan sərhədinə qədər olan hissəsində 2 layihə reallaşdırılır - Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu. Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti bu il, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun isə 2024-cü ildə istifadəyə verilməsi gözlənilir.

Bu dəhlizin açılması ilə eyni zamanda Rusiya-Türkiyə, Rusiya-İran, Rusiya-Ermənistan arasında birbaşa dəmir yolu əlaqəsi qurulacaqdı ki, bu da bölgədə strateji, iqtisadi və siyasi əlaqələrin yaranmasına böyük töhfə verə bilərdi.

Amma məğlub Ermənistan öhdəliklərin icrası ilə bağlı heç bir addım atmadı. Özü də bu prosesdə Ermənistanın üzərinə cəmi 40 kilometrlik hissədə infrastruktur yaratmaq öhdəliyi düşürdü. Amma bu da baş tutmadı.

Əslində, Ermənistanın özü Zəngəzur dəhlizinin işinə maraqlı olmalı idi. Lakin siyasi hakimiyyətin zəifliyi və müxtəlif güc mərkəzləri tərəfindən idarə olunan siyasi qrupların fəallığı ölkədə vahid siyasi qərar qəbul etməyə imkan vermədi.

Bu layihə reallaşacağı təqdirdə, Azərbaycanın Şərqi Zəngəzur bölgəsi ilə Naxçıvanın əlaqələri bərpa olunacaqdı. Ermənistan rəhbərliyi elə zənn edirdi ki, belə bir kommunikasiya yalnız onun ərazisindən və onun icazəsi ilə yaradıla bilər. Ermənistan bu amili Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə etməyi, özündən asılı vəziyyətdə saxlamağı planlamışdı. Məhz bu səbəbdən də layihənin reallaşmasına razı olmadı və Azərbaycan da bu istiqamətdə danışıq aparmaqdan imtina etdi.

Məsələ ilə bağlı Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev açıqlama verərək dedi ki, Azərbaycan Zəngəzur dəhlizi ilə bağlı Ermənistanla razılığa gələ bilməyib: "Azərbaycan və Ermənistan Zəngəzur dəhlizini açmaqla bağlı razılığa gələ bilmədiyinə görə, bu layihə Azərbaycan üçün cəlbediciliyini itirib. Bizim gündəliyimiz yalnız ikitərəfli əməkdaşlıq çərçivəsində nəqliyyat əlaqələrinin qurulmasından ibarət idi. Bu məsələ hələ də masa üzərindədir, lakin Ermənistan tərəfinin bu proseslər barədə həqiqətən maraqlandığını göstərməsinə ehtiyac var. Kommunikasiya Zəngəzur dəhlizi əvəzinə İran ərazisindən yaradıla bilər".

### Azərbaycanın hər zaman alternativ variantları var

Belə də oldu və Azərbaycan "B" planını işə saldı. Bu plan İran ərazisindən keçməklə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan ərazisində quru rabitənin yaradılmasını nəzərdə tuturdu. Oktyabrın 6-da Azərbaycan layihənin gerçəkləşdirilməsi istiqamətində mühüm addım atdı. Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirildi. Tikinti işlərinə başlanıldı. Bəlli oldu ki, yeni layihəyə əsasən 7 gediş-gəliş xətləri olacaq buraxılış məntəqəsi, eləcə də avtomobil körpüsü gündəlik ən azı 1100 yük-nəqliyyat (ixrac, idxal və tranzit malları) vasitələrini qəbul etmək imkanına malik olacaq. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan və İran yeni Avrasiya üçün ticarət körpüləri yaradır. Məğlub Ermənistan isə bu geostrateji layihədən də kənarda qalır.

Cəmi 40 kilometrlik məsafəlik öhdəliyini yerinə yetirməyən Ermənistan indi yeni layihə barədə ortaya söz-söhbət atır. Belə ki, Tbilisidə Gürcüstan, Azərbaycan və Ermənistan baş nazirlərinin iştirakı ilə keçirilən Dördüncü İpək Yolu Beynəlxalq Forumunda Nikol Paşinyan sülh üçün tezislərini səsləndirib. Paşinyan "Sülhün kəsişməsi" adı altında təqdim etdiyi layihədə regional kommunikasiyaların açılmasını, fəal iqtisadi, siyasi və mədəni məsələləri vahid paketdə göstərib: "Cənubi Qafqaza sülh lazımdır, ölkələr açıq sərhədlərlə yaşayırlar. Ölkələr fəal iqtisadi, siyasi, mədəni və insan əlaqələrilə bağlıdır, bütün məsələlərin diplomatik və dialoq yolu ilə həlli üzrə təcrübəsi və ənənələri toplayıblar. Bütün bunlar yollar olmadan mümkün deyil. Bu layihənin əsas mənası Ermənistan, Türkiyə, Azərbaycan və İran arasında kommunikasiyaların inkişafıdır".

Əlbəttə ki, Paşinyanın irəli sürdüyü bu layihə utopik xarakter daşıyır. Çünki indiyədək Ermənistan regionda kommunikasiyaların açılması üçün heç bir addım atmayıb. İllərlə Naxçıvan blokadada saxlanılıb. 44 günlük müharibədən sonra üzərinə götürdüyü Zəngəzur dəhlizi ilə bağlı öhdəlikdən də boyun qaçırıb. İndi birdən-birə bu layihəni hamının qəbul edəcəyini hansı haqla gözləyir?

İrəli sürülən layihə yüz kilometrlərlə yolların, dəmir yolunun və s. çəkilməsini tələb edir. Bu vəsaiti kim ayıracaq?

Bu ölkə indiyədək ən qısa yolun çəkilişini də həll edə bilməyib. Buna misal kimi İrandan magistral yol, dəmir xəttinin çəkilməsi ilə bağlı razılığı göstərmək olar. Uzun illər bu barədə danışıq aparılsa da, Ermənistan axırda etiraf etdi ki, bunun üçün vəsaiti yoxdur.

Maraqlı sual yaranır - indiyədək nəinki qlobal, heç regional layihə də həyata keçirməmiş Ermənistanın indi qəfildən ümumi hesablamalar aparmadan, maliyyə mənbələri müəyyən edilmədən belə layihə irəli sürməsində istəyi nədir?

### Paşinyanın utopik "sülh kəsişməsi" layihəsi nəyə xidmət edir?!

Bu bir həqiqətdir ki, Ermənistan müstəqillik qazanandan bəri başqa dövlətlərin hesabına yaşamağa öyrəşib. Sərhədləri və təhlükəsizliyini bir ölkə qoruyur, uzun illər pulsuz silah-sursat alır, maliyyə axını xaricdəki diaspor xətti ilə təmin olunur, ən xırda layihə də dövlət yox, ayrı-ayrı diaspor üzvləri hesabına reallaşır.

Amma bu cür qlobal layihəni reallaşdırmaq Paşinyana sözdə asan gəlsə də, real deyil. Belə başa düşmək olar ki, Ermənistan bu layihənin reallaşdırılmasını hansısa ölkələrin üzərinə atmaq istəyir.

Bu 2 layihəni müqayisə etsək, reallıq açıq-aşkar görünər. Belə ki, Zəngəzur dəhlizinin açılması "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yük daşımalarını da sürətləndirəcək. Hazırda Orta dəhliz uzaq Çindən yüklərin Avropaya və Yaxın Şərqə daşınması üçün ən təhlükəsiz marşrutlardan hesab edilir. Bu marşrut Şimal dəhlizindən orta hesabla 2500 kilometr qısadır və dəmir yolu ilə səyahət müddətini yeddi-səkkiz günə azaltmaq potensialına malikdir. Orta dəhliz vasitəsilə yüklər Çin, Qazaxıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və daha sonra Avropaya daşınacaq. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi tanınan Orta dəhliz üzrə hərəkət edən blok qatarı yükləri orta hesabla 20-25 günə Çindən Avropaya çatdırır ki, bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biri sayılır.

Belə bir layihə, yəni reallaşması üçün əlverişli zəminin olduğu halda, Paşinyanın yeni utopiyasına ehtiyac varmı?!

Onu da deyək ki, Gürcüstanda keçirilən Dördüncü İpək Yolu Beynəlxalq Forumu çərçivəsində geniş müzakirələr aparılıb, bir sıra sənədlər, o cümlədən Orta dəhlizin inkişafı və təşviqi istiqamətində çox mühüm sənədlər imzalanıb. Gürcüstan Baş nazirinin birinci müavini, iqtisadiyyat naziri Levan Davitaşvili Tbilisidə keçirilən İpək Yolu Forumunda jurnalistlərə açıqlamasında bildirib ki, Gürcüstanda Azərbaycan və Qazaxıstanın dəmir yollarının iştirakı ilə Çindən gələn konteyner yüklərinə xidmət göstərəcək birgə şirkət yaradılacaq. İpək Yolu Forumu çərçivəsində bununla bağlı saziş imzalanıb ki, bu da Orta dəhlizdə koordinasiya və səmərəliliyin artırılması baxımından mühüm və konkret nəticədir. Onun sözlərinə görə, belə sinxronlaşdırılmış əməliyyatlar və daha geniş koordinasiya ilə rəqabət qabiliyyəti daha da artacaq.

Göründüyü kimi, Ermənistan yenə də regional layihələrdən kənarda qalır. Əgər Paşinyan sülh müqaviləsinin imzalanmasının vacibliyini sözdə yox, əməldə təsdiqləsə, bəlkə də Ermənistanın bəzi layihələrdə iştirakı təmin edilə bilər. Amma bu baş tutmasa, məğlub ölkə elə əvvəlki kimi bütün layihələrə kənardan boylanacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Kolumbiyada "Qarabağa həyat qayıdır: Nailiyyətlər və çağırışlar" mövzusunda təqdimat keçirilib





Kolumbiyanın nüfuzlu təhsil ocağı olan Santo Tomas Universitetində Türkiyə Respublikasının 100 illiyinə həsr olunmuş beynəlxalq simpozium çərçivəsində "Qarabağa həyat qayıdır: Nailiyyətlər və çağırışlar" mövzusunda təqdimat keçirilib. Azərbaycanın və Türkiyənin Kolumbiyadakı səfirliklərinin, o cümlədən Maarif Vəqfinin təşkilatçılığı ilə baş tutmuş tədbirdə bu ölkədə akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, akademik dairələrin nümayəndələri və tələbələr iştirak ediblər.

Azərbaycanın Meksikadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, təqdimat zamanı Azərbaycanın dövlətçilik tarixinə qısa nəzər salınıb, cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərdiyi qeyd edilib. Bildirilib ki, 1991-ci ildə müstəqilliyinin bərpasından sonra müxtəlif sosial-iqtisadi problemlər, siyasi qarşıdurmalar və xüsusilə erməni işğalının ağır nəticələri ilə üzləşən Azərbaycan Ümummilli Lider Heydər Əliyevin zəkası, uzaqgörən daxili və xarici siyasəti nəticəsində bütün çətinlikləri dəf edərək, yeni inkişaf dövrünə qədəm qoyub, bu gün mühüm beynəlxalq nəqliyyat-enerji qovşağına çevrilib. Müasir Azərbaycan tarixinin Ulu Öndərin adı ilə bağlı olduğu və xalqımızın öz xilaskarının yüzillik yubileyini böyük ehtiram və təntənə ilə qeyd etdiyi, 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunduğu diqqətə çatdırılıb.

Təqdimatda Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin ağır fəsadları, törətdiyi ağlasığmaz vəhşiliklər və dağıntılar, beynəlxalq hüquqa və çağırışlara məhəl qoymaması, eləcə də 44 günlük Vətən müharibəsi nəticəsində ölkəmizin tarixi ədaləti bərpa edərək erməni işğalına son qoymasına geniş yer verilib. Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda lokal xarakterli antiterror tədbirlərinin keçirilməsini şərtləndirən səbəblər və onun nəticələri, bölgənin erməni sakinlərinin ölkəmizin konstitusiyası və qanunları əsasında reinteqrasiyası istiqamətində atılan addımlardan bəhs olunub.

Çıxışda azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri haqqında ətraflı məlumat verilib, Azərbaycan Hökumətinin Qarabağı dünyanın ən gözəl və inkişaf etmiş guşələrindən birinə çevirməkdə qərarlı olduğu bildirilib.

Eyni zamanda ölkəmizin qarşılaşdığı mina terrorunun faciəli nəticələri, yenidənqurma səylərinə və keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıdışına ciddi maneə yaratması və bu istiqamətdə fasiləsiz şəkildə görülən işlərdən geniş söz açılıb. Beynəlxalq ictimaiyyətin, o cümlədən bu bəladan əziyyət çəkən Kolumbiyanın da Azərbaycan Hökumətinin prioritet olaraq müəyyən etdiyi minatəmizləmə sahəsi üzrə səylərini dəstəkləməsinin vacibliyi ifadə olunub.

Sonda Azərbaycan ərazilərinin işğalına son qoyulması və suverenliyimizin tam bərpası ilə regionda sülh üçün unikal tarixi imkan yarandığı, iki ölkə arasında sülh sazişinin bağlanması və dövlət sərhədlərinin müəyyənləşdirilməsi, eləcə də Zəngəzur dəhlizinin açılmasının bölgədə əmin-amanlığın təminatını şərtləndirəcəyi və iqtisadi dividendliyi artıracağı vurğulanıb.

# *İcma:* "Ermənistan hökumətini etnik müxtəlifliyə əsaslanan birgəyaşayış prinsiplərinə hörmət etməyə çağırırıq"

Məlumdur ki, Ermənistan azərbaycanlıları etnik təmizləməyə məruz qoyması, Azərbaycana qarşı münaqişə başlatması və regionda özünütəcrid siyasəti nəticəsində ciddi demoqrafik böhranla üzləşib.

Bu günlərdə Ermənistan Cenevrədə demoqrafiya mövzusunda keçirilmiş regional konfransda özünün 2023-2040-cı illər üzrə demoqrafiya strategiyasını təqdim edib.

Strategiya Ermənistan hökumətinin etnik ayrı-seçkiliyə əsaslanan irqçi siyasətini bir daha sübut edir. Belə ki, strategiyada Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışı məsələsi yer almır. Sənəddə repatriasiya bir hüquq və dövlətin təşviq etməli olduğu məqsəd kimi ancaq etnik ermənilərə aid edilir. Ciddi demoqrafik böhranla üzləşmiş bir ölkənin oranın qanuni sakinləri olan əhali qrupunun öz evlərinə qayıdışına etnik mənsubiyyət səbəbindən imkan verməməsi onun irqçi siyasətinin göstəricisidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qərbi Azərbaycan İcması bəyanatında vurğulayır ki, Ermənistanın demoqrafik problemlərinin həlli regionda sülhün bərqərar edilməsindən və Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüquqlarının təmin edilməsindən keçir.

İcma Ermənistan hökumətini sülhü seçməyə, monoetniklik siyasətindən əl çəkməyə, etnik müxtəlifliyə əsaslanan birgəyaşayış prinsiplərinə hörmət etməyə və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə qayıdışını təmin etməyə çağırır.

# Qərbi Azərbaycanın tarixi həqiqətlərini inkar etmək qeyri-mümkündür

Qərbi Azərbaycan İcmasının fəaliyyət coğrafiyası ildən-ilə genişlənir, vaxtı ilə İrəvan və onun ətraf ərazilərindən zor gücünə, müxtəlif təzyiqlər vasitəsilə köçürülən, dədə-baba yurdundan qovulan insanların beynəlxalq hüququn tələbləri çərçivəsində haqqını, istəyini müdafiə edir. Bəzən müəyyən beynəlxalq dairələrin ölkəmizə qarşı qərəzinə və Ermənistana verilən əsassız dəstəyə kəskin etirazını da bildirir.

Xatırladaq ki, Haaqada "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası və icmanın Avropadakı üzvləri" mövzusunda keçirilən konfrans beynəlxalq müstəvidə maraqla qarşılanıb. Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi (ATXƏM) və Benilüks Azərbaycanlıları Konqresinin (BAK) birgə təşkilatçılığı ilə Haaqada yerləşən "Nieuws poort" media mərkəzində "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası və icmanın Avropadakı üzvləri" mövzusunda beynəlxalq konfransda qayıdışın sülh yolu və beynəlxalq hüquq əsasında reallaşdırılacağı bildirilərək, Ermənistandan didərgin salınmış azərbaycanlıların qayıtmaları üçün icmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq tədbirləri təqdim edilib və Qərbi Azərbaycandan soydaşlarımızın zorla qovulmasını əks etdirən "Zəngəzur" sənədli filmi nümayiş olunub.

Çıxış edənlər doğma torpaqlarından zorla qovulmuş soydaşlarımızın hüquqlarının müvafiq beynəlxalq təşkilatlarda qaldırılmasına dair işlərin sürətləndirilməsinin vacibliyini diqqətə çatdırıblar. Bildirilib ki, soydaşlarımızın Qərbi Azərbaycandan didərgin salınması, hüquqlarının pozulması ilə bağlı beynəlxalq ictimaiyyəti məlumatlandırmaq olduqca vacibdir.

Tədbirdə Niderlanddakı Azərbaycan və Türkiyə icmalarının üzvləri ilə bərabər, Latviya, Litva, Pakistan, Polşa, Ukrayna, yəhudi icmalarının üzvləri, eləcə də yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Bu günlərdə ölkəmizin İstanbuldakı baş konsulluğu və Altınbaş Universitetinin birgə təşkilatçılığı, habelə Qərbi Azərbaycan İcmasının dəstəyi ilə "Qərbi Azərbaycan gerçəkliyi: tarixi həqiqətlər" mövzusunda keçirilən konfransda Qərbi Azərbaycan İcmasının sədri, deputat Əziz Ələkbərli demişdir: "Ermənilər Qərbi Azərbaycanda soydaşlarımıza qarşı fərdi və kollektiv cinayətlər törədiblər. Bu cinayətlər 200 il əvvəl başlayıb. Lakin son yüz il ərzində törədilən cinayətlər bütün hüdudları aşıb və bununla bağlı saysız faktlar, sənədlər, sübutlar var. Xüsusilə, 1918-1919-cu illərdə ölkəmizdə fəaliyyət göstərən Fövqəladə Təhqiqat Komissiyasının 36 cilddən ibarət istintaq materiallarını buna misal gətirmək olar. 1948-1953-cü illər deportasiyasına isə beynəlxalq səviyyədə hələ də hüquqi qiymət verilməyib. Bu deportasiyaya ilk tarixi qiymət Ulu Öndər Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli fərmanı ilə verilib və hüquqi-siyasi qiymət verilməsi zəruri hesab edilib".

Qərbi Azərbaycan İcmasının üzərinə tarixi bir missiya götürdüyünü deyən deputat bildirib ki, qurum yarandığı gündən indiyədək tarixi Azərbaycan ərazisi olan, indiki Ermənistan adlanan dövlətdən qovulan azərbaycanlıların hüquqlarının müdafiəsi ilə məşğul olur və onların geriyə qayıtmasına dair əzəli hüquqlarını müntəzəm olaraq gündəmdə saxlayır.

"Təəssüf ki, 1930-1940-cı illərdə keçmiş SSRİ məkanında repressiya və deportasiyaya məruz qalan hər kəs və bütün xalqlar Stalinin ölümündən sonra məhkəmə qərarları ilə bəraət alsalar da, 1948-1953-cü illər deportasiyasından zərərçəkənlərə hələ də hüquqi müstəvidə bəraət verilməyib. Deportasiya olunanlar və onların varislərinin ata-baba yurdlarına qayıtmaq hüququ tanınmayıb. 1987-1991-ci illərdə baş vermiş sonuncu deportasiya isə öz amansızlığı və qəddarlığı ilə əvvəlkilərdən fərqlənməyib", - deyə icma sədri bildirib.

Natiq onu da diqqətə çatdırıb ki, o vaxt indiki Ermənistan adlanan ərazidə, yəni Qərbi Azərbaycanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayıb və 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edib: "Bütövlükdə götürsək, 300-ə yaxın yaşayış məntəqəsində azərbaycanlılar yaşayıblar. Bu soydaşlarımızın hamısı ermənilərə xas üsul və yollarla son nəfərinə qədər Qərbi Azərbaycandakı ata-baba yurdlarından qovulublar. Sonuncu deportasiya prosesində soydaşlarımızdan 200 nəfərdən çoxu ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib, 400-dən çoxu isə müxtəlif bədən xəsarətləri alıb. Azərbaycanlılar 300-ə yaxın yaşayış məntəqəsindən qovulublar və bu zaman onlara fərdi təsərrüfatlar üzrə 2,5, ictimai təsərrüfatlar üzrə isə 17,5 milyard ABŞ dolları həcmində maddi ziyan vurulub. Beynəlxalq qiymətləndirmə standartlarına görə, bu gün həmin ziyanın məbləği 700 milyard dollar həcmindədir. Yeraltı-yerüstü sərvətləri, tarixi-mədəni abidələrə vurulan ziyanı da bura əlavə etsək, yəqin ki, bu məbləğ bir neçə dəfə artar. Mənəvi ziyanı isə heç bir məbləğlə əvəz etmək mümkün deyil".

Rəhbərlik etdiyi qurum tərəfindən qısa müddətdə Qərbi Azərbaycandan qovulan əhalinin adlı siyahısının tərtib edildiyini və elektron daşıyıcılara köçürüldüyünü xatırladan Əziz Ələkbərli bildirib ki, Azərbaycan Baş Prokurorluğunda Ermənistandan qovularkən ermənilər tərəfindən soydaşlarımıza qarşı törədilən cinayət faktları barədə istintaq işi açılıb. Deputat deyib: "Bu həqiqətlərin tanıdılması və gündəmə gətirilməsi, Qərbi Azərbaycandan deportasiyaya məruz qalan əhalinin hüquqlarının, mədəni irsinin qorunması, onların öz vətənlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıdış hüquqlarının bərpa olunması istiqamətində icmanın gördüyü işlər əsasən iki xətt üzrə aparılır. Bunlardan biri ölkə daxilində Qərbi Azərbaycan tarixinin, mədəniyyətinin, folklorunun, bir sözlə, xalqımızın öz doğma torpaqlarında yaratdığı, bu gün də yaşatdığı zəngin irsin öyrənilməsi və təbliğindən ibarətdir. Digər və ən önəmli istiqamət isə ölkəmizin hüdudlarından kənarda, eləcə də beynəlxalq təşkilatlarla görülən işlərdir. Artıq hər iki istiqamət üzrə xeyli iş görülüb və uğurla görülməyə davam edir".

İcma bəyanat və müraciətlərində, konfrans və simpoziumlarda, dünyanın ən ünlü tədbir və görüşlərində tərəqqipərvər bəşəriyyətə və insan hüquqları müdafiəçilərinə təkrar-təkrar açıqlayıb ki, yeganə məqsədi azərbaycanlıların Ermənistandakı dədə-baba yurdlarına dinc şəkildə qayıdışını təmin etməkdir.

Bu fikirlər icmanın bu günlərdə verdiyi bəyanatda da yer alıb. Qərbi Azərbaycan İcmasının nümayəndəsinin Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç ilə görüşməsinə, Varşavada ATƏT-in İnsan Ölçüsü Konfransı çərçivəsində tədbir keçirməsinə, Haaqada ATƏT-in milli azlıqlar üzrə komissarlığının tədbirində iştirakına Ermənistanın verdiyi reaksiya bir daha bu dövlətin siyasətində azərbaycanlılara qarşı olan etnik nifrətin səviyyəsini göstərir. Bununla Ermənistan həm də söz azadlığına və vətəndaş cəmiyyətinin fəaliyyətinə nə qədər dözümsüz yanaşdığını nümayiş etdirib.

Bəyanatda həmçinin vurğulanır ki, Ermənistan hökuməti dialoqdan qaçmaq üçün guya icmanın ona qarşı ərazi iddiası irəli sürdüyünü bildirir. Qərbi Azərbaycan İcması bir daha bəyan edir ki, onun Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə qarşı heç bir iddiası yoxdur və yeganə məqsədi azərbaycanlıların Ermənistandakı dədə-baba yurdlarına dinc şəkildə qayıdışını təmin etməkdən ibarətdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Müəllifi İlham Əliyevdir

**Azərbaycanın sürətlə inkişaf etdirilən, genişmiqyaslı quruculuq işləri aparılan ünvanlarından biri də Şəki şəhəridir. Böyük yüksəliş yolu keçən bu şəhər indi tarixi tikililərlə müasir quruculuğun vəhdətdə olduğu unikal bir məkandır. Son illərdə Şəkinin onlarca modern ünvanı yaranıb ki, onlardan biri də "ASAN Həyat" Kompleksidir. Bu gün kompleksin açılışından 5 il ötür.**





# "Beş ildir işlərimiz ASANlaşıb"

## Şəkidə bu xidmətdən vətəndaş məmnunluğu yüksəkdir

### "ASAN xidmət" hökumət-vətəndaş münasibətlərini yeni mərhələyə yüksəldib

Bu günlərdə Şəkiyə səfər edərək "ASAN Həyat" Kompleksinin fəaliyyəti ilə yaxından tanış olduq. Kompleksin ərazisində "ASAN xidmət" Mərkəzi, "ABAD" Mərkəzi, "ASAN Təlim Mərkəzi", "ASAN kinoteatr", "ASAN peşə", "INNOLAND AREA" Mərkəzi, "ASAN kafe" və "ASAN park" fəaliyyət göstərir. Respublikamızdakı bütün "ASAN Həyat" komplekslərində olduğu kimi, Şəkidə də bu kompleksin aparıcı seqmenti "ASAN xidmət" Mərkəzidir.

"ASAN xidmət" mərkəzləri Prezident İlham Əliyevin 2012-ci il 13 iyul tarixli fərmanına əsasən, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılıb. Məqsəd vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, peşəkarlıq səviyyəsinin artırılması, dövlət strukturlarına etimadın daha da gücləndirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, elektron xidmətlərdən daha geniş istifadə olunması, bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılmasıdır.

Elə Şəkidə söhbətləşdiyimiz Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyevin sözlərinə görə, respublikamızın ötən 11 illik tarixi göstərir ki, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən "ASAN xidmət" mərkəzləri hökumət-vətəndaş münasibətlərinin keyfiyyətcə tamamilə yeni müstəviyə keçməsinə yol açıb. Fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulan "ASAN xidmət" mərkəzləri vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasını təmin edib.

Öyrənirik ki, hazırda respublikamızda 26 "ASAN xidmət" Mərkəzi fəaliyyət göstərir. Onlardan 7-si Bakı şəhərində, 2-si Gəncədə, 2-si Sumqayıtda, digərləri isə Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən, Salyan və Naxçıvan şəhərlərindədir. Hazırda Lənkəranda ilk "ASAN xidmət" Mərkəzi inşa olunur. "ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları və şirkətlər tərəfindən ümumilikdə 400-ə yaxın xidmət göstərilir.

### Ölkə üzrə istifadəyə verilən sayca 15-ci mərkəz

Şəki "ASAN xidmət" mərkəzi 2018-ci ilə qədər respublikamızda istifadəyə verilən 15-ci belə mərkəzdir. Mərkəz Şəki, Zaqatala, Qax və Oğuz rayonlarında qeydiyyatda olan 418 minə yaxın vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərir. Mərkəzin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsiplərinə və vətəndaş rahatlığına hesablanıb.

Fəaliyyət göstərdiyi 5 il ərzində mərkəzdə 1 milyona yaxın vətəndaş müraciəti qeydə alınıb. Burada müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 400-ə yaxın xidmət həyata keçirilir.



















Şəki Regional "ASAN xidmət" Mərkəzinin Vətəndaşların qəbulu işinin təşkili sektorunun böyük mütəxəssisi Nigar İskəndərova mərkəz fəaliyyətə başladığı gündən burada çalışır. Onun sözlərinə görə, vətəndaşlara "ASAN xidmət"in əsas prinsipləri əsasında xidmət göstərilməsi üçün əməkdaşlar əllərindən gələni əsirgəmirlər. Bunun da nəticəsini vətəndaşların məmnunluq səviyyəsində görmək mümkündür.

Mərkəzin baş mütəxəssisi Şəhriyar Əliyev də deyir ki, vətəndaşların xoş qarşılanması, onlara gülərüz xidmət göstərilməsi və razı yola salınmaları fəaliyyətlərinin əsas prinsipləridir. Mərkəz ötən beş ildə bu sahədə nümunəvi fəaliyyət ortaya qoyub.

Elə mərkəzə müraciət edən vətəndaşlar da razı görünürdülər. Arxiv məsələləri ilə bağlı gələn Şəkinin İncə kəndinin sakini Limon Səlimova deyir ki, "ASAN xidmət"in yaradılmasından sonra işləri əməlli-başlı asanlaşıb: "5 ildə bir neçə dəfə "ASAN xidmət"ə müraciət etmişəm. Hər dəfə də xoş qarşılanıb, razı yola salınmışam. İndi bilirik ki, hansısa sənədi almaq və ya dəyişmək lazım olanda ancaq bir ünvana, "ASAN xidmət"ə gəlmək lazımdır. Amma əvvəllər belə deyildi, bəzən bir sənəd üçün neçə yerə getmək lazım gəlirdi. Yorulub əldən düşürdük. Amma indi bu mərkəzi inşa etməklə elə şərait yaradıblar ki, bura gələndə yorulmuruq, əksinə, sanki insan həm də dincəlir. Beş ildir işlərimiz ASANlaşıb. Sağ olsun Prezidentimiz, vətəndaşların bu cür rahatlığının təmin edilməsi çox gözəl təşəbbüsdür".



Söhbət etdiyimiz Əli Əliyev Bakı sakinidir. Deyir Bakıda qeydiyyatda olsa da, Şəkidə də "ASAN xidmət"ə müraciət edib işini aşıra bilir: "Təşəkkür edirəm mərkəzin əməkdaşlarına. Birinci dəfə deyil "ASAN xidmət"ə müraciət edirəm. Onu da deyim ki, hər dəfə məmnunluq doğuran xoş və gülərüz münasibət görmüşəm".

### Könüllülük hərəkatının önündə

"ASAN xidmət" mərkəzlərinin xalqa xidmətinin başqa bir mühüm göstəricisi onun könüllülük hərəkatının önündə gəlməsidir. Bu mərkəzləri könüllülərsiz təsəvvür etmək mümkün deyil. İndiyədək "ASAN xidmət" mərkəzlərində təcrübə toplamış minlərlə könüllü müxtəlif sahələrdə müvəffəqiyyətlə çalışır.

Söhbətləşdiyimiz könüllü Sitarə Səmədova Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının dördüncü kurs tələbəsidir. Sitarənin sözlərinə görə, könüllülük onun bir vətəndaş olaraq gələcək fəaliyyəti üçün olduqca mühüm addımdır. Gənc könüllü qeyd edir ki, burada onlara keçirilən təlimlər, iştirak etdikləri layihələr bilik və təcrübələrinin artmasında böyük rol oynayır.

Turanə Paşayeva da Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının dördüncü kurs tələbəsidir: "Burada könüllü kimi fəaliyyətim mənim gələcək karyeram üçün uğurlu başlanğıcdır. Bir aydan artıqdır ki, mərkəzdəyəm və hesab edirəm ki, könüllülük bizim sosiallaşmağımızda, ünsiyyət və bacarıqlarımızın inkişaf etdirilməsində mühüm əhəmiyyətə malikdir", - deyə Turanə bildirir.

### Hər şey vətəndaşların məmnuniyyəti və rahatlığı üçündür

Şəki "ASAN Həyat" Kompleksindəki "ASAN peşə" Mərkəzi ixtisaslı kadrların hazırlanmasını və onların əmək bazarının dəyişən tələblərinə uyğun rəqabət qabiliyyətinin artırılmasını təmin etmək məqsədi üçün yaradılıb. Burada tütünçülük, laboratoriya, bağçılıq, logistika-texnologiya, ipəkçilik və fındıq yetişdirilməsi, eləcə də gənclərin dərzi, informasiya texnologiyaları peşələrinə yiyələnmələri üçün lazımi şəraitə malik sahələr və otaqlar mövcuddur.

Kompleksdəki "INNOLAND AREA" Mərkəzinin yaradılmasında isə məqsəd regionlarda startapların inkişafını təmin edəcək ekosistemin formalaşmasını dəstəkləmək və regional potensialı artırmaq istiqamətində əlverişli şəraiti gücləndirməkdir. O cümlədən regionlarda yaşayan 4-19 yaşarası uşaq və gənclərin inkişafı üçün mühəndislik və robototexnika sahəsində dərnəklər və təlimlər təşkil etmək və onları sahibkarlıq, biznes, innovasiya, startap, layihə idarəetməsi və digər fərqli sahələrdə məlumatlandırmaq və maarifləndirmək əsas hədəflərdəndir.

Burada 150 nəfər tutumu olan 2 kinoteatr var. Vətəndaşların istirahəti üçün nəzərdə tutulmuş "ASAN kafe" də fəaliyyət göstərir. Xidmət üçün mərkəzə gələn vətəndaşların rahatlığını təmin etmək üçün uşaq guşəsi də yaradılıb.

Bütün bunlardan əlavə, kompleksin həyətində sahəsi 2.4 hektarlıq "ASAN park" salınıb. Parkın ərazisində fəvvarə, uşaq meydançası, açıq havada konsert meydançası və kafe fəaliyyət göstərir. Həmçinin ərazidə velosiped və avtomobil dayanacağı da düzəldilib.

Bir sözlə, "ASAN Həyat" kompleksi hər bir seqmenti ilə vətəndaşların məmnuniyyətinə və rahatlığına xidmət edir. Bütün bunlar həm də onu təsdiq edir ki, respublikamızda həyata keçirilən siyasətin mərkəzində ilk növbədə insan amili dayanır.

***Rəşad CƏFƏRLİ,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

*Bakı-Şəki-Bakı*

# Qarabağ və Şərqi Zəngəzur modernləşdirilir, daha da gözəlləşdirilir

*Əvvəli 1-ci səh.*

İnsanların doğma yurd yerlərinə dönüşünü təşkil etməzdən öncə dövlətimiz onların əmək məşğulluğunu təmin etmək məqsədilə yeni iş yerlərinin yaradılması üçün təxirəsalınmaz tədbirlər görür. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının işğaldan azad olunmuş ərazilərin Azərbaycan iqtisadiyyatına qovuşdurulması istiqamətində atılmış çox mühüm əhəmiyyətə malik olduğunu xüsusi vurğulamaq yerinə düşər.

Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla "Dost Aqro"nun açılışında iştirak etməsi, dövlətimizin başçısının bu il mayın 4-də Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olması, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələrinin təməllərini qoyması işğaldan azad olunmuş ərazilərin iqtisadi inkişafına, yurd yerlərinə qayıdan vətəndaşlarımızın əmək məşğulluğuna nə dərəcədə önəm verdiyinin göstəricisidir. Tikintisi davam etdirilən sənaye parkında sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, rezidentlər dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilir, qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar.

İşğaldan azad olunmuş rayonların sosial infrastrukturunun bərpası da ardıcıl həyata keçirilən quruculuq işlərinin sırasında olduqca mühüm yer tutur. Bir faktı qeyd edək ki, dövlət başçısı təkcə Zəngilan və Qubadlı rayonlarına səfəri zamanı 15-dək sosial-infrastruktur obyektinin təməllərini qoydu. Ən qısa zamanda və yüksək səviyyədə inşa olunacaq bu layihələr Zəngilan və Qubadlı rayonlarının, Şərqi Zəngəzurun da tezliklə bir cənnət diyarına çevriləcəyindən xəbər verir.

Zəngilan şəhərində inşası davam etdirilən Konqres Mərkəzinin layihələndirilən ərazisi 2,2 hektardır. Burada mərkəzin binası ilə yanaşı, restoran, pavilyon da inşa olunur. Konqres Mərkəzi 605 yerlikdir. Bu ərazidə müvafiq yaşıllıq zonaları salınacaq, avtomobillər üçün yerüstü parklanma sahəsi yaradılacaq. Ekoloji memarlıq konsepsiyasına əsasən, mərkəzin damı yaşıllıq zolağı və günəş panelləri ilə əhatə olunacaq. Konqres Mərkəzində beynəlxalq və ölkə səviyyəli müxtəlif tədbirlər keçiriləcək. Təməli qoyulan inzibati bina isə şəhərin mərkəzində, əsas küçələrin kəsişməsində yerləşir. Bu ərazi əsas ictimai obyektlərə, təhsil müəssisələrinə, peşə məktəbinə, memorial parka və məscidə yaxındır. Üçmərtəbəli bina quruluşuna görə şəhərin müxtəlif yerlərindən görünə biləcək. İnzibati binanın ətrafında müxtəlif istirahət məkanları və iaşə obyektləri fəaliyyət göstərəcək.

Rayonda təməli qoyulan mühüm sosial obyektlərdən biri də Mərkəzi Rayon Xəstəxanasıdır. Yeni xəstəxananın ümumi ərazisi 4,5 hektardır. 91 çarpayılıq xəstəxananın ərazisində yoluxucu xəstəliklər şöbəsi və bir sıra texniki təyinatlı binalar olacaq. Ən müasir tibbi avadanlıqla təchiz ediləcək xəstəxanada müayinə və müalicə işinin aparılması üçün hər cür şərait yaradılacaq.

Təməli qoyulan yaşayış məntəqələri sırasında Zəngilan rayonunun Cahangirbəyli kəndi də var. Ərazisi 179,5 hektar olan kənd perspektivdə 2520 nəfər əhalinin (573 ailə) yaşaması üçün planlaşdırılıb. Cahangirbəyli kəndində birinci mərhələdə 242 fərdi evin tikintisi nəzərdə tutulur. Burada birinci mərhələdə 1200 nəfərin məskunlaşdırılması planlaşdırılır. Cahangirbəylidə fərdi evlərlə bərabər, bloklaşdırılmış üçmərtəbəli binaların inşası da aparılacaq.

Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, 91 çarpayılıq mərkəzi xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməllərinin qoyulması bu yerlərdə tezliklə həyatın bərpa olunacağından xəbər verir.

İşğaldan azad olunmuş Qarabağı böyük bir tikinti meydançasına bənzətsək, səhv etmərik. Aparılan abadlıq, quruculuq işlərinin nəticəsidir ki, bu gün Zəngilanın Ağalı, Tərtər rayonunun Talış kəndlərində, Laçın şəhərində, Zabux, Sus kəndlərində, Füzuli şəhərində 30 illik ayrılıqdan sonra məktəb zəngləri çalınır, insanlar həyatlarını öz doğma evlərində davam etdirirlər. Sağlamlıqlarının qayğısına öz doğma yaşayış yerlərində qala bilirlər. Ən başlıcası isə öz yaşayış yerlərində işlə təmin olunurlar.

Aparılan abadlıq quruculuq işləri çərçivəsində milli mənəvi dəyərlərimizin, tarixi abidələrimizin bərpasına da xüsusi diqqət yetirilir. Ölkəmizdə tarixi abidələrə, dini-mənəvi dəyərlərimizə dövlət səviyyəsində həmişə böyük diqqət və qayğı göstərilib. Torpaqlarımız işğaldan azad edildikdən sonra tariximizin yadigarı olan dini abidələrimizin bərpası sahəsində xeyli işlər görülüb. İşğalçılar Qarabağ ərazisində olan 67 məsciddən 63-nü yerlə yeksan edib, 3-nə isə ciddi ziyan vurub, yeganə salamat saxladıqları bir məscidin, Şuşa şəhərində yerləşən Yuxarı Gövhər ağa məscidində isə bəzi dəyişiklik edərək bu abidənin Azərbaycana aid olmadığını isbatlamağa çalışırdılar.

Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilk günlərdən azad Qarabağda məscidlərimizi ziyarət etdilər. Ermənilərin dağıtdıqları ziyarətgahlarımızın, qəbirüstü abidələrimizin bərpası üçün tapşırıqlar verdilər.

Erməni vandalları Qarabağda təkcə məscidlərə deyil, həm də xristian dini ziyarətgahlarına qarşı da vəhşilik ediblər. 1894-cü ildə Xocavənd rayonunda inşa edilmiş Rus Pravoslav Kilsəsini belə dağıdıblar. Rayonun Tuğ kəndində yerləşən İohann kilsəsində də ermənilər xarakterlərinə uyğun olaraq saxtakarcasına bəzi dəyişikliklər ediblər. Onlar Laçın rayonunda yerləşən Alban (Qafqaz) Apostol Müstəqil kilsəsində də alçaq niyyətlərini həyata keçiriblər.

Dövlətimiz insanların dini inancına hörmətlə yanaşdığı kimi, tarixi abidələrin bərpasında da heç bir ayrı-seçkilik etmir. Tuğ kəndindəki qədim alban məbədi, Laçın rayonundakı "Ağoğlan" monastırı da Azərbaycan hökuməti tərəfindən bərpa edilərək öz sahiblərinin ixtiyarına verilmişdir.

Erməni vandalizminin qurbanı olan, Şuşa şəhərində yerləşən Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa və Saatlı məscidləri bərpa edilib, Şuşada, Laçında və Suqovuşan qəsəbəsində yeni məscidlər tikilir.

Ağdam şəhəri özünün ağ günlərinə qayıdır. Şəhərdə bənzərsiz abadlıq, quruculuq işləri gedir.

2024-cü ilin birinci rübündə Şuşaya 400-ə yaxın ailənin köçürüləcəyi planlaşdırılır. Hazırda şəhərdə yol infrastrukturunun bərpası istiqamətində ciddi işlər görülməkdədir.

Qarabağ yenidən tikilir, modern üsulla qurulur. Bunu torpağın əzəli və əbədi sahibi olduğumuz üçün edirik.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



# Gəncədə Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə sərgi keçirilib



Türkiyənin Gəncədəki baş konsulluğunda Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş sərgi təşkil olunmuşdur.

Sərgidə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, Milli Məclisin deputatı Pərvin Kərimzadə, şəhər ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə hər iki ölkənin Dövlət himnləri səsləndirildikdən sonra Türkiyə Cümhuriyyətinin yaranma tarixindən, o cümlədən Türkiyə-Azərbaycan dostluq-qardaşlıq münasibətinin inkişafından söhbət açılmışdır. Daha sonra Azərbaycan Respublikasının Rəssamlıq Akademiyasının 2-ci kurs tələbəsi Nəzrin Məmmədovanın "Cümhuriyyət 100 yaşında" adlı fərdi rəsm sərgisi nümayiş etdirilmişdir. Türkiyənin tarixi, o cümlədən ölkələrimiz arasında olan qardaşlıq münasibətlərindən bəhs edən və yağlı boya ilə işlənmiş əsərlər iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzurda böyük "yaşıl enerji" potensialı var

## Yeni layihələr Azərbaycanın enerji sahəsində gücünü daha da artıracaq

"Hazırda işğaldan azad edilmiş ərazilərimizdə enerji layihələrinin də icrası sürətli templə davam etdirilir. Son bir il ərzində Prezident İlham Əliyevin Füzuli, Cəbrayıl, Zəngilan, Ağdam, Laçın, Kəlbəcər və Şuşaya səfərləri zamanı mühüm enerji infrastrukturlarının təməlləri qoyulub, bir neçəsi istifadəyə verilib".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, Laçında Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su-Elektrik Stansiyasının, "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasının, "Suqovuşan-1" və "Suqovuşan-2" KSES-lərin açılışı həmin ərazilərin güclü enerji mənbəyinə çevrildiyini göstərir. Eyni zamanda Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi əsas istiqamətlərdən biri kimi müəyyən edilib və bu zonanın yaradılmasına dair strateji addımlar atılmaqdadır.

A.Hüseynov qeyd edib ki, azad edilmiş ərazilərdə bərpaolunan enerji mənbələrinə xarici investorların da marağı böyükdür: "Yaponiya, İtaliya, Türkiyə, Koreya, Çin, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və digər ölkələrin nüfuzlu şirkətləri ekoloji cəhətdən təmiz və enerji səmərəliliyinə malik "yaşıl texnologiyalar"ın tətbiqi perspektivlərini Azərbaycanla birgə araşdırmaqdadır. İlkin müşahidələr göstərir ki, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələri üçün əlverişli potensial mövcuddur və bu texniki potensial 7200 MVt-dan artıq olaraq qiymətləndirilir. Eyni zamanda ilkin araşdırmalara əsasən, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olması müəyyən edilib".

Azərbaycanın son illərdə "yaşıl enerji" layihələrinin təşəbbüskarı kimi çıxış etdiyini vurğulayan deputat bildirib ki, ölkəmiz enerji idxal edən ölkədən enerji ixrac edən ölkəyə çevrilib. Hazırda 4 ölkəyə elektrik enerjisi ixrac edilir. Ötən il Türkiyə, Rusiya, Gürcüstan və İrana 2 milyard kilovat-saat elektrik enerjisi nəql olunub.

A.Hüseynov qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə inşa edilən və istifadəyə verilən enerji qovşaqları Azərbaycanın bu sahədə gücünü daha da artıracaq, ixracın coğrafiyasını genişləndirəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Növbəti 127 nəfər Ağalıya yola salındı

Oktyabrın 28-də Abşeron rayonunun Masazır kəndindən Zəngilan rayonunun yenidən salınmış Ağalı kəndinə növbəti köç karvanı yola salınıb. İndiyədək Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 25 ailə - 127 nəfər bundan sonra doğma yurdda yaşamağa başlayacaq. Onlar ermənilərin işğal dövründə tamamilə dağıtdıqları 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin sakinləridir.











AZƏRTAC xəbər verir ki, bununla da indiyədək Ağalı kəndində daimi məskunlaşan ailələrin sayı 175-ə (871 nəfərə) çatacaq. Kəndə köçürülmə bundan sonra da davam etdiriləcək.

Ağalı sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları - şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma ilə aparılıb. Püşkatma oktyabrın 20-də Dövlət Komitəsinin Repatriasiya Departamentində keçirilib.

Yolasalma mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Zəngilan Rayon İcra Hakimiyyətinin nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

# 29-30 oktyabr 2020-ci il

## ZƏFƏR gündəliyi



Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 28-i gün ərzində və 29-na keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tuturlar.

Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edir. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınır.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var.

Gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 14 ədəd müxtəlif tipli topu, bir neçə dayaq məntəqəsi və 6 ədəd avtomobil texnikası məhv edilərək sıradan çıxarılır.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖



Humanitar atəşkəs rejimini kobudcasına pozmağa davam edən Ermənistan silahlı qüvvələri **oktyabrın 29-da** saat 09:25 radələrində Goranboy, Tərtər, Bərdə rayonlarının ərazisini artilleriya atəşinə tuturlar.

❖ ❖ ❖

Əks-həmlə əməliyyatı həyata keçirən Azərbaycan Ordusu bölmələrinin zərbələri nəticəsində düşmən çoxlu sayda zirehli texnikanı döyüş meydanında qoyaraq qaçır.

Müdafiə Nazirliyi düşmənin döyüş meydanında atıb qaçdığı döyüş sursatı, zirehli və avtomobil texnikalarının videogörüntüsünü yayır.

❖ ❖ ❖

Saat 13:18 və 13:20 radələrində cəbhənin Qubadlı istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin iki "Su-25" hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilir.

❖ ❖ ❖

Saat 13:50 radələrində Azəbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin dövlət rəsmiləri ilə birgə Tərtərə səfəri zamanı humanitar atəşkəs rejimini növbəti dəfə kobudcasına pozan Ermənistan silahlı qüvvələri qəsdən həmin istiqaməti atəşə tuturlar.

Müdafiə Nazirliyinin yaydığı məlumatda Ermənistanın bu addımı qəti surətdə pislənilir və beynəlxalq ictimaiyyətə qarşı təcavüz aktı kimi dəyərləndirilir.

❖ ❖ ❖

Ermənistan mətbuatı növbəti uydurma məlumat yayaraq, guya Azərbaycan Ordusunun bölmələrinin Xankəndiyə raket, Əsgəran, Ağdərə və Xocavəndə isə aviasiya zərbələri endirdiklərini iddia edir.

Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd edilir ki, bu xəbər düşmənin bu gün Azərbaycanın yaşayış məntəqələrini raket-artilleriya atəşinə tutmasından diqqəti yayındırmaq məqsədini güdür.

Ermənistan silahlı qüvvələrindən fərqli olaraq Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə riayət edir və yalnız düşmənin atəş nöqtələrinə adekvat zərbələr endirir.

❖ ❖ ❖

Mülki infrastruktur və dinc əhalimizi atəşə tutan düşmən bölmələri Azərbaycan Ordusunun bölmələri tərəfindən darmadağın edilir. Düşmən qüvvələrinin cəmləşdiyi müxtəlif məntəqələr və texnikalar məhv edilir.

❖ ❖ ❖

"Amnesty International" təşkilatı Ermənistanın Azərbaycanın Bərdə şəhərinə istifadəsi qadağan olunmuş kasetli raketlərlə zərbələr endirdiyini təsdiqləyir.

Təşkilatın bu barədə yaydığı açıqlamada deyilir ki, Bərdə şəhərinə bir və ya bir neçə "Smerç" raketi atılıb və raket xəstəxanaya yaxın yaşayış ərazisinə düşüb. Nəticədə ən azı 21 nəfər həlak olub, 70-dən çox insan yaralanıb.

Qeyd olunur ki, "Amnesty International"ın böhrana cavab mütəxəssisləri şəkillərə əsasən şəhərə erməni qüvvələri tərəfindən atılan raket qalıqlarının Rusiya istehsalı olan 9M55 "Smerç" raketlərindən 9N235 sursat parçalarının olduğunu təsdiqləyiblər.

Vurğulanır ki, kasetli sursatlardan mülki ərazilərə qarşı istifadə etmək amansızlıqdır və məsuliyyətsizlikdir. Bu, çoxsaylı insan itkisinə, yaralanmaya səbəb olur. Kasetli döyüş sursatlarının hər cür şəraitdə istifadəsi beynəlxalq humanitar hüquqa əsasən qadağandır.

❖ ❖ ❖

**Oktyabrın 30-u** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutur. Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edir. Düşmənin hücum cəhdlərinin qarşısı qətiyyətlə alınır.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var.

Gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd Su-25 təyyarəsi, 3 ədəd T-72 tankı, 1 PDM, 2 ədəd "Smerç" və 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemləri, 10 ədəd müxtəlif tipli topu, 2 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 1 ədəd "Osa" ZRK, 1 ədəd P-18 radiolokasiya stansiyası, 4 ədəd avtomobil texnikası məhv edilir və sıradan çıxarılır.

Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Saat 07:35-dən başlayaraq Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulur. Ordumuz tərəfindən adekvat tədbirlər görülür.

❖ ❖ ❖



Bərdə şəhərində dinc əhalini və mülki infrastrukturu atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus "Smerç" yaylım atəşli reaktiv sisteminin atəş mövqeyi bölmələrimiz tərəfindən aşkar edilir.

Bölmələrimizin dəqiq atəşi ilə düşmənin "Smerç" yaylım atəşli reaktiv sistemi məhv edilir.

Müdafiə Nazirliyi qeyd olunan reaktiv sistemin məhv edildiyi anın videogörüntüsünü yayır.

❖ ❖ ❖

Ermənistan mətbuatı guya Azərbaycan Ordusuna məxsus döyüş sursatı anbarının məhv edilməsi ilə bağlı növbəti yalan məlumat yayır. Lakin düşmən həmin anbarın yaxın məsafədən çəkilmiş videogörüntüsünü məlumata əlavə etməklə öz saxtakarlığını bir daha ifşa edir.

Həqiqətdə isə oktyabrın 29-da gecə saatlarında Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazimizdəki yeni inşa edilmiş raket-artilleriya silahları anbarı bölmələrimiz tərəfindən məhv edilir.




❖ ❖ ❖

Prezident İlham Əliyev özünün "X" hesabında xalqa daha bir müjdəli xəbər verir. Paylaşımda deyilir:

"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Bərdə və Tərtər şəhərlərində dinc əhalini və mülki infrastrukturu atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus növbəti 2 ədəd "Smerç" yaylım atəşli reaktiv sisteminin tutduğu mövqelər bölmələrimiz tərəfindən aşkar edilir.

Saat 12:55 və saat 14:18 radələrində bölmələrimizin dəqiq atəşi ilə düşmənin 2 ədəd "Smerç" yaylım atəşli reaktiv sistemi məhv edilir.

Müdafiə Nazirliyi reaktiv sistemlərin məhv edildiyi anın videogörüntülərini yayır.

❖ ❖ ❖

Ermənistanın yalan məlumatları bir daha ifşa edilir. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilir ki, Xocalı rayonunun Qarabulaq kəndinin (keçmiş Əsgəran rayonunun Aknaxpyur kəndi) guya Azərbaycan Ordusu tərəfindən atəşə tutulması nəticəsində mülki əhalinin xəsarət alması barədə Ermənistan mətbuatının yaydığı məlumat yalandır.

Rəsmi olaraq bildirilir ki, Azərbaycan Ordusu mülki əhaliyə deyil, yalnız hərbi hədəflərə atəş açır.

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələri düşmənin qüvvə və döyüş vasitələrini dəqiq zərbələrlə darmadağın edir.

Saat 20:25 radələrində cəbhənin Ağdam istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd "Osa" ZRK bölmələrimiz tərəfindən məhv edilir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Ermənistan: məğlubiyyətin xronikası



Artıq xeyli vaxtdır ki, Ermənistanda həm siyasi, həm də sosial-iqtisadi müstəvidə böhranlı vəziyyət hökm sürür. Cəbhədəki məğlubiyyətlər, əhalinin maddi rifahının pisləşməsi, iqtisadiyyatın tənəzzülü işğalçı dövlətə sonu görünməyən ağır günlər vəd edir. Vəziyyətdən çıxış yolları arayan baş nazir Nikol Paşinyan məcbur olaraq barəsində cinayət işi başlatdığı eks-prezident Robert Koçaryanı Rusiya siyasi elitası ilə görüşlər üçün Moskvaya göndərmək istəyirdi. Lakin onun niyyəti elə ilk saatlardan puç oldu. Belə ki, R.Koçaryanda koronavirus aşkarlanıb.

Ermənistan baş nazirinin mətbuat katibi Mane Gevorgyan bildirib ki, N.Paşinyan Ermənistanın keçmiş iki prezidenti - Levon Ter-Petrosyana və Robert Koçaryana Dağlıq Qarabağın gələcək taleyi ilə bağlı Rusiyada danışıqlar aparmaq üçün mandat verib. Lakin Koçaryanın səfəri məlum səbəbdən təxirə salınıb. Bu barədə yazan "4rd.am" saytı bildirir ki, 2008-ci ilin prezident seçkiləri vaxtı qanlı hadisələrdən sonra daha çox Qərbmeyilli siyasətçi kimi tanınan Ter-Petrosyanın Moskvaya danışıqlar üçün göndərilməsi çoxlu suallar yaradır: "Ter-Petrosyanın seçkiqabağı platformasının Rusiya maraqlarının Cənubi Qafqazdan sıxışdırılması konsepsiyası üzərində qurulmasını demək kifayətdir. Moskvada Ter-Petrosyanı heç vaxt "özlərininki" hesab etməyiblər".

Xatırladaq ki, R.Koçaryan 1998-ci ildə keçmiş müdafiə naziri Vazgen Sarkisyan və xüsusi xidmət orqanlarının rəhbəri Serj Sarkisyanla ittifaq quraraq Ermənistanda dövlət çevrilişini həyata keçirmişdi. O zaman Ter-Petrosyan erməni xalqının maraqlarını satmaqda və Qarabağı Azərbaycana qaytarmağa cəhddə ittiham edilərək dövlət başçısı vəzifəsindən kənarlaşdırılmışdı. Bu baxımdan Ermənistan mətbuatı hələ əvvəldən yazırdı ki, bir-birinə əks qütblərdə dayanan eks-prezidentlərin aparacağı danışıqlar ölkəni bataqlıqdan xilas edə bilməz.

❖ ❖ ❖

N.Paşinyan, sözün əsl mənasında, başını itirib. Onun Qarabağa görə döyüşmək istəməyən ermənilərdə ruh yüksəkliyi yaratmaq üçün gah oğlunun, gah həyat yoldaşının ordu sıralarına qatılmaları ilə bağlı göstərməcələri də bir nəticə vermədi. Ona görə günlərdir əsgər çatışmazlığını aradan qaldırmaq üçün dövlət qurumlarının işçilərini səfərbər edir. Son olaraq Fövqəladə Hallar Nazirliyinin xilasedicilərini məcburi şəkildə döyüşə göndərməyə başlayıb. Belə ki, bu gün xilasedicilərdən ibarət qrup "könüllü" şəkildə cəbhə bölgəsinə yola düşüb.

Ermənistanda əsgər çatışmazlığı səbəbindən hökumət artıq məhbusları da həbsxanalardan çıxararaq Dağlıq Qarabağa döyüşə göndərir. Belə ki, həbsdə olan 10-dan çox məhbus barəsində həbs qətimkan tədbiri dəyişdirilib və onlar cəbhəyə yola salınıblar. Ermənistanın baş prokurorluğunun mətbuat katibi Arevik Xaçatryan deyib ki, 28 oktyabr tarixinə olan məlumata görə, 12 nəfər məhkum barəsində həbs qətimkan tədbiri dəyişdirilib, daha 4 nəfər şərti olaraq erkən azadlığa buraxılıb. Hamısı könüllü olaraq cəbhəyə yollanacaq.

"Sputnik Armeniya" saytı yazır ki, indiyədək onlarca məhbus döyüşə getmək üçün ərizə yazıb. Lakin Ermənistan ictimaiyyəti əmindir ki, məhbuslar heç vaxt Qarabağda döyüşməyəcəklər. Elə ilk atəş səsindən sonra döyüşü atıb qaçacaqlar. Xüsusilə indiki anarxiya şəraitində Ermənistanda kriminal ünsürlərin gizlənə bilmələri üçün münbit şərait yaranıb.



❖ ❖ ❖

Buna baxmayaraq, Ermənistan hökuməti müharibə və pandemiya fonunda vətəndaşları sosial-iqtisadi problemlərin həll olunacağına inandırmağa çalışır. Amma "Lragir" saytı yazır ki, verilən vədlər yalandır. Müharibədə davam edən uğursuzluqlarla sosial-iqtisadi problemlərin yaxın gələcəkdə aradan qaldırılmasına dair vədlər ümidverici deyil: "Çünki ölkədə qanunlara uyğun tədbirlər görülmür. İnsanlar problemlərin həllini yalnız ölkəni tərk etməkdə görürlər. Ermənistan iqtisadiyyatının yaxşılaşması reallaşmayan arzudur. Paşinyan hökumətinin maaşların və pensiyaların artırılması ilə bağlı verdiyi vəd də yalandır. Ölkəni idarə edənlər əhalinin gəlirlərini artırmaq istəmirlər. Müharibənin başlaması ilə Ermənistan hökuməti erməni xalqını səfalətə məhkum etdi. Ölkədə iqtisadiyyatın inkişafı real deyil. Bu da hakimiyyətdən narazılığı artırır, amma iqtidar bu narazılığı repressiya, güc yolu ilə yatırmağa çalışır və nəticədə vətəndaş qarşıdurması ehtimalı yüksəlir".

Ermənistan mətbuatının ölkədəki vəziyyətlə bağlı yazdıqlarından ortaya çıxan nəticə budur ki, Ermənistan hakimiyyəti dərin təlaş içindədir. Çünki hakimiyyətin Qarabağla bağlı ayrı-ayrı ölkələrdən gözlədiyi dəstək alınmadı. Sosial-iqtisadi problemlərin öhdəsindən isə ölkənin özü təkbaşına gəlməyə qadir deyil. Bu səbəbdən qarşıda Ermənistanı daha çətin və ağır günlər gözləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*






# Gənclik






Qarabağ Azərbaycandır!



# Vətənə, dövlətə sevgi və sədaqət nümunəsi

**"Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir".**

Azərbaycan xalqı üçün çox möhtəşəm günlərdən birində - bu ilin 15 oktyabrında Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldan Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışında belə dedi.

Azərbaycan övladlarının dastanlara sığmayan qəhrəmanlığı yalnız qürur, iftixar hissləri bəxş etdiyi doğma xalqını sevindirmir, onların qəhrəmanlığı barədə eşidən, duyan hər kəsi heyrətləndirir. O igidlər ki, Vətəni yolunda gözünü qırpmadan canını fəda etməyə hər an hazır olduqlarını döyüş meydanlarında, ölümün gözlərinin içinə dik baxaraq göstərdilər.

Bu il mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə də Prezident İlham Əliyev torpaqlarımızı azad edən gənclərin qəhrəmanlığından danışdı: "Gözəl gənc nəsil yetişdirdik - vətənpərvər, tərbiyəli, milli ruhda tərbiyə almış gənc nəsil. Həmin bu gənclər bizim torpaqlarımızı azad ediblər", - dövlətimizin başçısı dedi.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində Qarabağın, Şərqi Zəngəzurun başının üstünü qara buludlar aldı. Ermənistan adlı dövləti Azərbaycan torpaqlarında yaratmış işğalçı ermənilər ölkəmizdən yeni ərazilər qoparmaq hayında idilər. İlk işləri tarixi faktları saxtalaşdırmaq, Qarabağa, Şərqi Zəngəzura ilk dəfə ayaq basdıqları zamanı xatırladan, təsdiq edən bütün izləri silmək cəhdləri oldu. Sonra da yurdlarına gəlib köç saldıqları, dillərini öyrəndikləri, süfrələrindən duz-çörək yedikləri azərbaycanlıların qanına susadılar. Əslində, məkrli planları yeni deyildi. Təcavüzkar ermənilərin tarixdə heç vaxt olmamış və heç zaman da olmayacaq "böyük Ermənistan" uydurmaları yenə də azərbaycanlıların başına bəla oldu.

O zaman da qəsbkarların arxaları, dayaqları güclü idi. Onları dövrün müasir silahları ilə silahlandırırdılar. Maddi ehtiyacları təmin olunurdu. Üstəlik, dünyaya yalandan çığır-bağır salmalarına, qəddar əməllərini pərdələmək üçün təbliğat aparmalarına da dəstək verilirdi. Qərbi Azərbaycanda, Qarabağda, Şərqi Zəngəzurda yerli əhalini uşaqdan-böyüyədək dəhşətli işgəncələr verərək qətlə yetirən, əsir götürən, sonunda da doğma evlərindən, isti ocaqlarından qovan, yurdlarını yağmalayan, talan edən, xarabalığa çevirən ermənilərin cinayət əməllərini dünyanın görən gözləri, eşidən qulaqları sanki kor, kar olmuşdu. Kəlbəcərdə, Meşəlidə, Xocalıda və daha neçə-neçə yaşayış məskənimizdə qətliamlar, soyqırımları törədən Ermənistan beynəlxalq səviyyədə cəzasız qalır, bundan daha da azğınlaşırdı.

Birinci Qarabağ müharibəsində də Azərbaycanın qəhrəman övladları düşmən gülləsinə canlarını sipər etdilər. Ancaq müstəqilliyini yeni bərpa edən ölkəmiz hələ iqtisadiyyatını gücləndirə, ordusunu qura bilməmişdi.

Vətən torpaqlarının düşmənin tapdağı altında qalması hər bir azərbaycanlının yalnız dərdi, qüssəsi, kədəri deyildi, həm də ən böyük hiddəti idi. Zaman keçirdi, amma ümidlər üzülmürdü, inam azalmırdı. Hər bir azərbaycanlı əmin idi, bir gün gələcək, ermənilərin dəhşətli işgəncələr verərək şəhid və ya şikəst etdikləri soydaşlarımızın qisası alınacaq, Ermənistan silahlı qüvvələri məğlub edilərək Qarabağdan, Şərqi Zəngəzurdan qovulacaq.

O gün gəldi. 2020-ci ilin 27 sentyabrında Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Həmin gün Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev qismən səfərbərlik elan etdi. Minlərlə gənc cəbhəyə yollanmaq üçün hərbi komissarlıqlara üz tutdu. Onların çoxunun yaşları işğal illərindən kiçik idi. Ermənistanın otuz ilə yaxın əsarətdə saxladığı Qarabağ və Şərqi Zəngəzur haqqında kitablardan oxumuşdular, böyüklərin söhbətlərindən eşitmişdilər. Lakin görmədikləri o yerlərin, orada şəhid edilən, əsir götürülən, bəziləri hələ də itkin sayılan soydaşlarının dərdləri, Ermənistanın işğalında qalan ərazilərimizin nisgili bu gənclərin də qəlbində ağrıya dönmüşdü.

Vətən torpaqları erməni işğalından azad edilməlidir! Azərbaycanın müxtəlif bölgələrində dünyaya gəlmiş, boya-başa çatmış həmin gənclərin ən böyük, ən müqəddəs arzusu, məqsədi bu idi. Bu amalla İkinci Qarabağ müharibəsində cəbhədə, döyüş meydanlarında işğalçı ölkənin silahlı qüvvələrinə dünyanı dar etdilər. 44 günlük müharibənin hər gününü, hər anını Zəfər tarxinə çevirdilər. Arxa cəbhədə gözlərini onlara dikmiş, ürəkləri onlarla döyünən soydaşlarını müqayisəyəgəlməz, təsvir edilməsi mümkün olmayan qələbə müjdələri ilə qürurlandırdılar.

2020-ci ildə İkinci Qarabağ müharibəsində aldığı məğlubiyyət dərsindən sonadək nəticə çıxarmayan, Qarabağın Xankəndi və ətraf yerlərində qalaraq terror əməllərini davam etdirən Ermənistan silahlı qüvvələri birləşmələrinin qalıqlarını və cinayətkar xunta rejimini isə peşəkar, qətiyyətli, cəsur Azərbaycan Ordusu bu ilin 19-20 sentyabrında cəmi 23 saat 43 dəqiqə çəkən lokal xarakterli antiterror tədbirləri zamanı məğlub etdi. Ümid edək ki, bu, Ermənistan üçün sonuncu dərs olacaq. Bir daha özgə torpaqlarına göz dikməyi, təxribatlar törətməyi birdəfəlik unudacaq.

Azərbaycan dövlətinin, xalqının qüruru, fəxri olan gənclərimiz isə əmin-amanlıq içərisində yaşayacaq, ölkəmizin daha da inkişaf etməsi naminə çalışacaqlar.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

İnsan kapitalı

# Gənc alimin uğur hekayəsi

## Xarici ölkələrə gedən alimlərimiz dünyaya elmi potensialımızı nümayiş etdirirlər

**Nənəm kimyaçı olub. Evdə özünə çox zəngin laboratoriya yaratmışdı. İşdən gəldikdən sonra vaxtının çoxunu laboratoriyada keçirərdi. Nənəmin ömrünü sərf etdiyi kimya məni də öz sehrinə saldı. Mənimlə birlikdə içimdə kimyaçı olmaq arzusu da böyüyürdü. Bu duyğu məni kimya sahəsinə apardı. İndi kimya üzrə fəlsəfə doktoruyam, doktorluq üzrə elmi işimi də yekunlaşdırmaq üzrəyəm.**



Dadaşova Nərmin Rasim qızı 1988-ci ildə Bakı şəhərinin Mərdəkan qəsəbəsində anadan olub. Orta təhsilini Bakıdakı 123 saylı orta məktəbdə alıb. 2009-cu ildə BDU-nun Kimya fakültəsini fərqlənmə diplomu ilə bitirən Nərmin Dadaşova 2009-2011-ci illərdə Bakı Dövlət Universitetinin Kimyəvi kinetika və kataliz ixtisası üzrə magistr təhsili alıb.

Əmək fəaliyyətinə 2012-ci il akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda kimyaçı kimi işə başlayan Nərmin Dadaşova həmin ilin dekabr ayında təhsilini artırmaq, kimyanın sirlərinə daha yaxından bələd olmaq məqsədilə Kimyəvi kinetika və kataliz ixtisası üzrə doktoranturanın əyani şöbəsinə daxil olur. 2021-ci il də "Heterogenləşdirilmiş polioksometalat katalizatorlarının iştirakında tsiklopentanon və onun alkiltörəmələrindən dioksalanların alınması" mövzusunda müdafiə edən N.Dadaşova kimyəvi kinetika və kataliz ixtisasında kimya sahəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsi alır.

Nərmin Dadaşova ətirli maddələrin kimyəvi üsulla alınması üzərində elmi araşdırma apararaq uğurlu nəticə əldə edib. Qazandığı elmi nailiyyət dünyanın bir sıra tanınmış elm mərkəzlərinin, üniversitetlərin diqqətini cəlb edib. İspaniyanın Barselona Universitetindən, Türkiyənin məşhur Orta Doğu Universitetindən iş təklifi alıb. Nərmin xanım deyir ki, bu təklifləri analiz edərkən qardaş Türkiyədə işləməyə üstünlük verdim.

2022-2023-cü tədris ilində Türkiyənin məşhur "Middle East Techical University"nin kimya bölməsində elmi araşdırmaçı, müəllim kimi fəaliyyət göstərib. Nərmin xanım deyir ki, Türkiyədə çalışarkən İspaniyanın məşhur Barselona Universitetindən daha sərfəli iş təklifi aldım: "Amma nəinki İspaniyaya getmək, heç qardaş Türkiyədə də qərar tuta bilmirdim. Darıxırdım, hətta günlərimi sayırdım... Azərbaycan, doğma Bakımız üçün, heç nə ilə əvəz olunmayacaq Bakının xəzrisi, gilavarı üçün darıxırdım. Mənə elə gəlir ki, dünyanın heç bir yeri ilə Azərbaycanı müqayisə etmək olmaz. Bir qədər əvvəl İsveçrədə elmi ezamiyyətdə olmuşam. Orada da qərar tuta bilmirdim. Vətənə tez qayıtmaq istəyirdim".

N.Dadaşova hazırda Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Neft-Kimya Prosesləri İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır. Eyni zamanda Azərbaycan Dövlət Neft və Sənaye Universitetində dərs deyir.

Söhbətin bu yerində Nərmin Dadaşovadan elmlə məşğul olan bəzi gənclərin xarici ölkələrdə işləmək istəmələrinin səbəbini öyrənməyə çalışdıq. Müsahibimiz olduqca maraqlı məqama toxundu.

Onun dediyinə görə, Azərbaycanda çox güclü alimlər yetişməkdədir. Xaricdə elmi məqalələri dərc olunan gənc alimlərin elmi araşdırmaları, elmi nəticələri yaxşı mütəxəssis axtaran böyük şirkətlərin diqqətini cəlb edir. Onlar həmin gənclərə yüksək məvaciblə yanaşı, elmi araşdırmaların aparıb arzuladıqları məqama çata bilmələri üçün şərait yaradacaqlarına söz verirlər. Həm də bu təkcə söz olaraq qalmır, əməli işdə də öz nəticəsini göstərir. Azərbaycanda yüksək elmi nəticələrə nail olmaq üçün kompleks laboratoriyalar yoxdur. Əgər gənc alim elmi araşdırmasını laboratoriyada tam analiz etmək imkanı qazanarsa, sizi inandırım ki, heç kim xaricə üz tutmaz. Hətta biz xarici dövlətlərdən də sifariş ala bilərik.

Türkiyədə "Tubitak" deyilən proqram var. Onlar müxtəlif qrant layihəsinin iştirakçıları olan gənc alimləri bu proqram çərçivəsində xarici ölkələrə uzunmüddətli elmi ezamiyyətə göndərə bilirlər. "Düşüncəmə görə, elmlə məşğul olan adamı daha çox illərlə əmək sərf etdiyi elmi nəticə maraqlandırır, maddi məsələ arxa planda olur. Ona görə gəldiyim qənaət budur ki, xaricə üz tutan gənc alimlər maddiyyat üçün qazanc dalınca deyil, elmi potensiallarını açmaq üçün gedirlər", - deyə N.Dadaşova bildirib.

Nərmin Dadaşova qardaş Türkiyədə olarkən yalnız elmi fəaliyyətlə yox, ictimai fəaliyyətlə də məşğul olub. Türk Dövlətləri Təşkilatının gənclər birliyinin üzvü kimi o, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün gecəsini gündüzünə qatan gənclərdən olub. Nərmin xanım deyir ki, Türkiyədə çalışarkən hiss etdim ki, nəinki Avropa dövlətlərində yaşayan başqa xalqların nümayəndəsi olan gənclər, hətta bəzi türk gəncləri də Qarabağ həqiqətlərini dəqiqliklə bilmirlər. Ermənilərin yalan üzərində qurulmuş təbliğatları onlarda da çaşqınlıq yarada bilir. Ona görə də əsl həqiqəti, haqlı olduğumuzu dünyanın bilməsi üçün yalnız Müzəffər Ali Baş Komandan yox, müzəffər xalq olaraq hamımız çalışmalıyıq.

Nərmin Dadaşova dünyanın bir sıra ölkəsində elmi konfranslarda, simpoziumlarda, konqreslərdə ölkəmizi müvəffəqiyyətlə təmsil edib. Nərmin xanım deyir ki, elmi ezamiyyətləri Azərbaycan həqiqətlərini dünyanın elm adamlarına çatdırmaq üçün fürsət hesab edirəm. Kazanda, Sankt-Peterburqda, Moskvada, İtaliyada, Gənc Alimlərin Blankerbergedə keçirilən Kimya Konfransında (Belçika), eləcə də Türkiyənin İstanbul şəhərində keçirilən 19-cu Asiya Kimya Konqresində iştirakçılarla fərdi söhbətlər aparır, Azərbaycanın haqlı mübarizəsi barədə onları məlumatlandırırdım.

Nərmin Dadaşova avqustun 29-31-də Tatarıstan Respublikasının paytaxtında keçirələn Kazan Qlobal Sammitində ölkəmizi təmsil edib. Deyir ki, sammitdə iştirak üçün seçilməyimi ictimai fəaliyyətimə verilən ən yüksək qiymət kimi dəyərləndirirəm. Məsuliyyətimin böyük olduğunu bilirdim. Çalışdım ki, mənə göstərilən etimadı doğruldum.

Nərmin Dadaşova elmin zirvəsinə doğru uğurla addımlayır. İnamla deyə bilərik ki, elmin nuru ilə vətənimiz Azərbaycana işıq salacaq bir alim yetişməkdədir.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

Tarix yazan oğullar

# "Şəhid olsam, ağlamayın"...



**Oğul dünyaya gətirəndə analar sevinər, atalar fərəhlənər, qürurlanar… "Oğul düşmən çəpəridir" deyib ulularımız. Hələ qundaqdaykən oğlan uşaqlarının beşiyinin başında dayanıb körpə balasına lay-lay çalanda, dilini oxşayıb "İgid balam, qorxmaz balam, ay lay-lay" deyərdi nənələrimiz. "Qorxaqdan oğul olmaz" deyərdi babalarımız.**

Yəqin ki, Coşqunun valideynləri də ona alqış edəndə "Görüm səni əsgər gedəsən" kəlməsini işlədiblər.

Coşqunun ürəkləri parçalayan, sinələri dağlayan həyat hekayəsi qısa olsa da, çox şərəflidir. Bir ailənin oğlu kimi doğulub vətənə dirək oldu. Özü yaşamadı, Vətəni yaşadanlardan oldu…

Coşqun halal zəhmətlə böyüyən, çalışan bir ailənin oğlu idi. Elə, bəlkə də, kökə bağlılıq, halallıq, dürüstlük, haqq-ədalət ona gendən keçmə, qandan gəlmə olduğu üçün ömrün qısası ilə də kifayətlənməyi bacardı. Az yaşadı, kişi kimi yaşadı. Babası Əvəz həmişə zəhməti, şərəfi, namuslu yaşam tərzi ilə çoxlarına nümunə göstərilən bir insan idi. Coşqun da Vətən sevgisi, qəhrəmanlığı ilə hər kəsə örnək ola bildi.

Coşqun Məmmədov 9 mart 1994-cü ildə dünyaya gəlmişdi. Gözünü açıb ağlı söz kəsəndən atası, babası ona halal yaşamağı tövsiyə etdilər. Vətən sevgisindən, el qeyrətindən danışdılar. Vətən kişinin şərəfi, torpaq onun namusudur dedilər… Şərəfsiz yaşamaqdansa ölüm yaxşıdır, dedilər. Ölümsüzlüyə gedən yolu göstərdilər Coşquna. Bax beləcə, kiçik bir bədəndə Vətən üçün döyünən böyük bir ruh böyütdülər.

2000-ci ildə Ucar şəhər 5 nömrəli məktəbə gedən Coşqun Məmmədov 2011-ci ildə həmən məktəbi bitirdi, 2012-ci ilin aprel ayında həqiqi hərbi xidmətə çağırıldı. Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda hərbi xidmət keçən Coşqun Məmmədov əsgərlikdən əsl vətənpərvər gənc kimi qayıtdı. Amma Coşqun Məmmədovun yeganə bir arzusu vardı, hərbçi olub işğalda olan torpaqlarımızın azadlığına nail olmaq… Çox təəssüf ki, Coşqun o dövrdə bu arzusunu həyata keçirə bilmir. Lakin bu da çox keçmir, zaman yetişir, 2020-ci ilin isti yay günlərində xalqın ürəyi qəzəb, intiqam hissi ilə alışıb yananda, ürəklərdə vətən, torpaq təəssübkeşliyi coşub-daşanda Coşqun da evdə sakit dura bilməyib Hərbi Səfərbərlik İdarəsinə üz tutub könüllü olaraq döyüşmək üçün qeydiyyatdan keçir. Lazım gəldiyi an düşmənin başına od ələyənlərdən olmaq istədiyini, Vətən yolunda şərəflə ölümə belə getməyə hər zaman hazır olduğunu deyir.

2020-ci ilin 21 sentyabrında Coşqun Məmmədov hərbi təlimlərə cəlb olunmaq üçün çağırış alanda gözlənilən məqamın yetişdiyini düşünür. Sevinir… Yumruğunu düyünləyib, Qarabağ problemini biz gənclər həll etməliyik, deyir…

Anası Gülbahar xanım o günü belə xatırlayır:

- Həyətdə iş görürdüm. Coşqunun tələsik evə gəldiyini gördüm. Kefi çox yüksək idi. Üzündə sanki güllər açmışdı. Mənə salam verib evə keçdiyini gördüm. İlkini, körpəsini alıb qucağına mahnı oxuyurdu. Vallah, onun belə gözəl səslə oxuya biləcəyini heç ağlıma belə gətirmirdim. Bir qədər dinlədikdən sonra:

- Ay Coşu, xeyir olsun, üzündə güllər açıb. Nədir səni belə oxudub-oynadan? Nədir səni belə dilləndirən, ay bala, - dedim.

- Ana, gəldi qisas məqamı. Yetişdi intiqam vaxtı. Çağırıblar…Təlimlərə gedirəm. Yəqin ki…

Elə bil bu an dilim ağzımda qurudu. Yer-göy başıma fırlandı. "Sən nə danışırsan? Nə dediyini heç dərk edirsən?" - deyə soruşdum.

- Əlbəttə, ana, dərk edirəm. Nə deyirsən? Qaçım gizlənim, sizi də, özümü də rəzil edim? Bizim görməli olduğumuz işi bu körpəyə saxlayım? Uşaq böyüyəndə, ağlı söz kəsəndə deyim ki, sənin atan bir qorxaqdır? Çağırdılar, qaçıb gizləndi? Yox, ana, belə fürsət ələ düşməz. Gedəcəm, bu vətənə, bu millətə layiqli oğul kimi də döyüşəcəyəm. Əgər şəhid olaramsa, ağlamayın, başınızı dik tutun. Bilin ki, sizin Coşqun namusla, kişi kimi döyüşüb, qəhrəman kimi şəhid olub. Evdən çıxıb döyüşə gedəndə küçə qapısında qəfil geri döndü. Elə bildim evdə nəyi isə unudub. Soruşdum ki, nəyi isə unutmusan?

"Heç nə yadımdan çıxmayıb, bu dəqiqə gəlirəm", - dedi. Oğlu yuxuda idi. Yatmışdı. Qayıdıb 11 aylıq körpəsini sinəsinə sıxdı. Qoxuladı… Uşağın ətrini dəfə-dəfə içinə çəkib, yatağına qoyub: "Elə edəcəm ki, hər zaman başını dik tutacaqsan, atanla fəxr edəcəksən", - dedi.

Müharibə başlanan ilk gündən Coşqun döyüşlərdə iştirak edirdi. Sonuncu dəfə 13 oktyabrda zəng vurdu. Xocavənd istiqamətində döyüşdüklərini, dağlara qalxdıqlarını dedi. "Oralarda rabitə zəif olur. Məndən nigaran olmayın. Zəng edə bilməsəm, bilin ki, başqa bir şey yoxdur. Sadəcə rabitə kəsilib".

Coşqun evdən çıxan günü İlkinin səsi kəsilmirdi. Uşaq yuxu nə olduğunu bilmirdi, ağlayırdı. Heç nə ilə ovundura bilmirdik. Telefonda Coşqunun səsini qoyurduq, eşidib bir az sakitləşirdi. Hiss edirdi ki, səs atasının səsidir. Amma atasının iyini, nəvazişini hiss etmirdi. Təkrar başlayırdı daha da bərk ağlamağa. Oktyabrın 14-dən İlkin yenə başladı ağlamağa. Nə qədər əlləşdik, vuruşduq, hətta həkimə apardıq, xeyri olmadı. Uşaq ah-nalə qoparırdı. Anlaya bilmirdik, bu nə olan işdir… Sən demə, körpə atasının şəhid olduğunu hamımızdan tez hiss edibmiş…

13 oktyabr Suqovuşan uğrunda gedən döyüşlər Vətən müharibəsinin ilk günündən torpaqlarımızın azad olunması uğrunda savaşa qoşulan Coşqun Məmmədovun son döyüşü oldu. Coşqun canından çox sevdiyi torpağı qucaqlayıb əbədi yuxuya getdi. Səssizlik, qeyri-müəyyənlik bir ailəni göz yaşında boğdu, dərddən üzdü… Anası, atası oğlunun nəşinin tapılması üçün qurban dedilər. Noyabrın 22-də Coşqunun nəşi ailəsinə təhvil verildi…

Coşqun Məmmədovun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlar layiqincə qiymətləndirilib. Xalqımızın qəhrəman oğlu ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Qəhrəmanlar ölmürlər. Coşqunlar coşqulu vətən sevgisi ilə illərdir işğal altında əzab çəkən torpaqlarımızı vətən etdilər. Yurda azadlıq, qəlblərə rahatlıq gətirdilər.

***E.QƏNİYEV, "Azərbaycan"***

Xəbər

# Bakıda "Şəhid həkimlər" filminin təqdimatı olub

"Balans Media"nın təşəbbüsü, Səbail Rayon Veteranlar Birliyinin təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsinə həsr olunan "Şəhid həkimlər" filminin təqdimatı olub.



Əvvəlcə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra "Şəhid həkimlər" filmi nümayiş etdirilib.

Ekran işində Vətən müharibəsi zamanı ön və arxa cəbhədə yaralı əsgər və zabitlərimizə ilkin tibbi xidmət göstərən, onlarla birlikdə düşmənlə mübarizə apararaq qəhrəmancasına həlak olan şəhid həkimlərimizdən bəhs olunur.

Film tibb bacısı Arəstə Baxışova, tibb xidməti leytenantı Turqut Xəlilbəyli, tibb baş leytenantı Şöhrət Qasımov və gizir həkim Eldar Abdullayevə həsr edilib. Həmçinin hər 4 şəhid həkimin ailə üzvləri, yaxınları onlarla bağlı xatirələrini bölüşüb, qəhrəman həkimlərimizin Vətən müharibəsi zamanı göstərdikləri şücaətdən söz açıblar.

Filmin ssenari müəllifi və rejissoru Azərbaycan Televiziyasının əməkdaşı Gülüstan Əkbər, televiziyanın quruluşçu operatoru Ramil Qoca, montaj rejissoru Ədil Sadıqli, redaktoru Cuma Əzizdir.

İŞİMİZ, GÜZƏRANIMIZ

# Süni intellekt dövründə yeni texnologiyalar sürətlə inkişaf edir

## Bu, "yaşıl iqtisadiyyat"ın formalaşmasına da geniş meydan verir

**Təxminən 20-30 il əvvəl kimsə süni intellekt haqqında danışsaydı, ən yaxşı halda ona gülərdilər. Çox keçmədən süni intellektin həyatımıza daxil olacağına, iş dünyasında ən çox istifadə ediləcəyinə o qədər də inanmazdılar. Amma xeyli vaxtdır ki, dünya süni intellekt dövrünə keçid edib. Azərbaycan da bu sahədə başqalarından geridə qalmayıb.**



Süni intellekt sənaye dövrünün zərurətidir. Onun metodları yeni biznes imkanlarının yaranması, dövlət və özəl qurumların effektiv idarə edilməsi istiqamətində geniş yol açır. Müşahidələr göstərir ki, süni intellekti əsasən inkişaf etmiş ölkələr dəstəkləyir.

Təsadüfi deyil ki, son illər ölkəmizdə süni intellekt sahəsində oyanış və inkişaf müşahidə edilir. Hər keçən gün süni intellekt elminin dövlət və özəl qurumların diqqətini daha çox çəkdiyinin və bu istiqamətdə təşəbbüslərin sürətlə artdığının şahidi oluruq. Prezident İlham Əliyevin də müntəzəm olaraq süni intellektdən istifadə edilməsi ilə bağlı tapşırıqlar verməsi o deməkdir ki, Azərbaycanda bu elm dövlət rəhbərliyi səviyyəsində dəstəklənir.

Bu gün Azərbaycan süni intellekt ideyalarına əsaslanan yeni texnoloji inkişaf mərhələsindədir. Uğurlar həm də kompüter texnologiyalarının inkişafı ilə bağlıdır. Belə ki, kompüter elminin sürətlə inkişafı, superkompüter texnologiyalarının yaradılması artıq süni intellekt nəzəriyyəsinin tətbiq olunmasına böyük imkanlar verdi. İnternet meydana çıxdıqdan sonra isə süni intellekt təyinatlı smart qurğular və sistemlər işlənib.Artıq işğaldan azad etdiyimiz Şərqi Zəngəzurda "ağıllı kənd" layihəsi gerçəkləşdirilib. Bu da onu göstərir ki, süni intellekt texnologiyalarının inkişafı dövlət tərəfindən mühüm vəzifə kimi qarşıya qoyulub.

Ənənəvi enerji mənbələrindən "yaşıl enerji" daşıyıcılarına keçid, eləcə də texnoloji infrastrukturun modernləşdirilməsi Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji mənbələri olan günəş, külək, su resurslarından geniş istifadəyə münbit zəmin yaradır. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda regionun "yaşıl enerji" zonasına çevrilməsi əsas istiqamətlərdən biridir. Dövlət başçısı işğaldan azad edilmiş ərazilərin 10 min kvadratkilometrini "yaşıl enerji" zonası elan edib. Burada artıq bir neçə su-elektrik stansiyası inşa edilib və fəaliyyətə başlayıb. Günəş və külək-elektrik stansiyalarının yaradılması ilə bağlı hazırlanmış planların olması da onu göstərir ki, həmin bölgələrin potensial imkanı böyükdür.

2021-ci ildə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı proqramda da "yaşıl enerji" istehsalını genişləndirmək məsələsi əhəmiyyətli dərəcədə yer alıb. Hədəf bərpaolunan enerjinin payını 2025-ci ildə 24, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır. Görülən işlər bu istiqamətdə atılan addımların inamlı olmasından xəbər verir. "Yaşıl enerji"yə keçid süni intellekt dövründə tam yeni texnologiyaların inkişafını nəzərdə tutmaqla "yaşıl iqtisadiyyat"ın formlaşmasına meydan verir.

Oktyabrın 23-24-də Avropa İttifaqının "EU4Energy" proqramı çərçivəsində Avropa Enerji Tənzimləyiciləri Şurası (CEER) tərəfindən "Yaşıl enerjiyə keçidin təşviqi, təkmilləşdirilmiş qanunvericilik əsasında istehlakçılara əlavə imkanların verilməsi" mövzusunda keçirilən seminarda da bu məsələlər müzakirə olunub. Tədbirdə həmçinin seminar iştirakçılarına Azərbaycanda enerji səmərəliliyi üzrə öhdəliklər, enerji effektivliyi potensialının müəyyən edilməsi proseduru və qiymətləndirmə meyarları üzrə qanunvericilik bazası, enerji audit sistemi ilə bağlı ətraflı məlumat verilib. Tədbir iştirakçıları 2030-cu il üçün enerji və iqlim siyasətinin məqsədləri, qarşıya qoyulan hədəflər barədə öz fikirlərini də bölüşüblər.

Oktyabrın 26-da süni intellektin daha bir "övlad"ı olan "Qaradağ" Günəş-Elektrik Stansiyasının açılışı oldu. Bu, Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. "Qaradağ" ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasıdır. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.

Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin inşa etdiyi "Qaradağ" Günəş-Elektrik Stansiyasının açılış mərasimində iştirak edən Prezident İlham Əliyev deyib: "Bizim bərpaolunan enerji gündəliyimiz təkcə günəş və ya külək-elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda biz üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Biz artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarını istismara vermişik və bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da "yaşıl enerji"yə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır. Ümumiyyətlə, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq "yaşıl enerji zonası" elan olunub. Bizim təbii sərvətlərimizin istifadəsi üçün böyük potensial var və aydındır ki, külək də artıq bu sərvətə çevrilib. Çünki külək həmişə, xüsusilə də təyyarə ilə enəndə bəzən müəyyən problemlərin mənbəyi olub. Lakin indi külək təbii sərvətdir".

Bəli, məhz bu təbii sərvət süni intellektin "qurban"ı olaraq bu gün bəşəriyyətin xilaskarına çevrilib. Azərbaycan bu "xilaskarla işbirliyi quraraq" "Qaradağ" Günəş-Elektrik Stansiyasında hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək. Həmçinin 110 milyon kubmetr həcmində təbii qaza qənaət olunacaq. Üstəlik də atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## İRİA: "Qardaş Türkiyə ilə İKT sahəsində əməkdaşlığın yeni mərhələsinə addımlayırıq"

**İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) rəhbər heyətinin Türkiyə Respublikasına səfəri çərçivəsində ölkənin İKT qurumları və qabaqcıl texnologiya şirkətləri ilə məhsuldar görüşlər keçirilir.**




Agentlikdən AZƏRTAC-a bildirilib ki, ilk görüş Türkiyənin Kommunikasiya Texnologiyaları Qrupu ilə keçirilib. Tədbirdə çıxışları zamanı qurum rəhbərləri Türkiyənin İKT şirkətlərinin Azərbaycanla rəqəmsal inkişaf yönündə təcrübə mübadiləsi və ortaq məqsədlərə nail olmaq üçün səylərin gücləndirilməsində əminlik ifadə ediblər.

Digər önəmli görüş Türkiyənin Proqram Təminatı İstehsalçıları Assosiasiyası (YASAD) ilə keçirilib. Tədbirdə çıxış edən İRİA-nın sədr əvəzi İnarə Vəliyeva bu görüşlər nəticəsində reallaşan layihələrin artan xətlə inkişaf edən Azərbaycan-Türkiyə münasibətlərinin İKT istiqamətinə əhəmiyyətli töhfə verəcəyini bildirib.

Türkiyə Xidmət İxracatçıları Assosiasiyası (HİB) ilə keçirilən görüşdə innovasiyayönümlü elmi tədqiqatların və innovativ layihələrin qarşılıqlı dəstəyi, investisiyaların artırılması, rəqəmsal inkişaf sahəsində təcrübə mübadiləsi, beynəlxalq tədbirlərdə ortaq əməkdaşlıq imkanları geniş dəyərləndirilib.

## Dünya birjalarında neft bahalaşıb

**Dünya birjalarında neftin qiymətləri bahalaşıb. AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 2,55 dollar artaraq 90,48 dollar olub.**

Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 2,33 dollar bahalaşaraq 85,54 dollar təşkil edib.

# Havalar əlverişsiz keçsə də...

## Fermerlər yetişdirdikləri pambığı son qozasınadək yığmağa səy göstərirlər

**Salyan rayonundakı Qızılağac kəndinə məxsus ərazidəyik. "Conder" markalı pambıqyığan maşın cərgələrin arası ilə irəliləyir. Qızılağaclı fermer Ramil Əliyev, sahə və ərazi aqronomları Ağalar Miriyev və Nazim Abdullayev 5-10 metr aralıda su kanalının kənarında əkilmiş söyüdün kölgəsindən çıxıb, pambıqyığan maşının getdiyi cərgələrin arası ilə addımlayır, vəziyyətə nəzarət edirlər.**



Hər üçünün üzündən narazılıq duyulur. Onlar yerə tökülən, tam açılmadan quruyub qaxaca dönmüş qozaları yığıb bir-birinə göstərir və təəssüf hissi keçirirlər. Fermer Ramil Əliyev deyir:

- Heyif çəkdiyimiz xərcdən, əziyyətdən. Sentyabr ayında yağan yağışlar vurdu hamısını yerə. Becərmə dövründə olmazın əziyyətə qatlaşdıq. Alağını, gübrəsini, suvarılmasını, sovkaya qarşı mübarizəsini vaxtlı-vaxtında, keyfiyyətlə apardıq. Yaxşı da məhsul əmələ gəlmişdi. Hər hektardan 40-45 sentner məhsul gözləyirdik. Yaxşı deyiblər: "Sən saydığını say, gör fələk nə sayır!" Apardığımız dərmanlamanın da bir xeyri olmadı. Günaşırı yağan yağışlar dərmanı yuyub apardı. Göydən tökülən su ilə vurduğumuz həmin dərmanlar yarımçıq açılan qozaların içinə keçib məhsulu çürütdü. - Sonra o, sözünə davam edərək: - Sən Allah, məni bağışlayın. "Dərdli deyingən olar" deyiblər. Heç bilmirəm, necə olacaq? "MKT" şirkətinin borcunu ödəyə biləcəyəm, ya yox? Ödəsəm, yenə dərd yarıdır. Neyləyək, dövlətin verdiyi subsidiya ilə bu il birtəhər keçinərik. Allahla durub allahlıq eləməyəcəyik ki! Özü bilən yaxşıdır. O, bir tərəfdən alanda o biri tərəfdən verəndir. Şükür ki, torpaqlarımız erməni işğalçılarının tapdağından xilas oldu. Allahın bundan böyük neməti ola bilməz.

Birlikdə kənardan sahəni nəzərdən keçiririk. Bəzi yerlərdə pambıq bitkilərinin adam boyundan da yüksək olduğunu görür, bunun səbəbini öyrənmək istəyirik.

- Bu da yağan yağışların fəsadıdır. Havaların sərinləməsi, o biri tərəfdən yağan yağış suları onların yenidən yaşıllaşmasına, boy atmasına şərait yaradıb. Əbəs deyilməyib ki: "Artıq içiləndə dərd verir su da", - deyə sahə aqronomu Ağalar Mirzəyev sualımı cavablandırır.

Pambıqyığan maşının sürücüsü sahənin başına çatıb geri dönür, təqribən 15 dəqiqədən sonra bizə çatıb maşını saxlayır. Salamlaşıb hal-əhval tuturuq. İşlərinin necə getdiyini soruşuram. O da bəzi yerlərdə pambıq kollarının boyunun həddindən artıq uca olduğunu, bununla işi müəyyən qədər ləngitdiyini bildirir. Fermer Ramil Əliyev yenidən söhbətə qayıdır:

- İnişil də bura pambıq əkmişdim. Kombayn bir dəfə gedib gələndə bunker dolurdu. İndi isə...

Qonşuluqdakı sahədən bizi görüb hal-əhval tutmağa gələn fermer Rüfət Quliyev də söhbətə qoşulur:

- Bayaqdan söhbətinizə qulaq asıram. Pambığın yığım mövsümündə havaların davamlı olaraq yağışlı-yağmurlu keçməsini desəm ki, birinci dəfədir görürəm, inanın. Becərmə zamanı çox zəhmət çəkdik. Nəticədə yaxşı məhsul yetişdirdik. Şəxsən mən özüm avqust ayında əmin idim ki, hər hektardan 40-45 sentner "ağ qızıl" götürəcəyəm. Lakin hava şəraiti imkan vermədi. Daban qozalardakı pambıq çürüyərək zay oldu. Allah bundan beləsini xeyrə calasın. Hələ vaxta var. Havalar əl versə, çalışıb son qozasınadək yığacağıq.

Bəli, kənd təsərrüfatı iqlim şəraiti ilə bağlıdır. Yağış az olanda da, çox düşəndə də təsərrüfata ziyan verir. Burada yadıma çoxdan eşitdiyim bir əhvalat düşdü. Sovetlər birliyi zamanında M.Xəlilov adlı bir şəxs respublikamızın kənd təsərrüfatı naziri işləyib. Çox savadlı və insan adam imiş. Əsl ziyalı olduğundan hamı ona hörmət edirmiş. Bir dəfə Mərkəzi Komitədə keçirilən plenumda tanış-bilişləri, nazir həmkarları ona yaxınlaşıb hal-əhval tutur, keyfini soruşurlar. Həmin vaxt pambıq yığımının qızğın çağında bayırda yağış yağırmış. M.Xəlilov da onlara belə cavab verir: "Bir adamın ki kefi havadan asılı ola, siz bilən o, necə olar?"

Pambıqçı fermerlər sentyabr və oktyabr aylarının birinci ongünlüyünün yağışlı keçməsindən giley-güzar etdilər. Lakin yağış heyvandarlıq, xüsusən qoyunçuluq üçün göydən gələn bərəkət olmuşdur. Çöllərdə, düzlərdə bol yaşıl ot çıxmışdır. Qoyunlarını qışlamaq üçün Muğana gətirən fermerlərin bir neçəsi bunu görüb qurban kəsmişlər.

Bu il Salyanda "MKT-İk" MMC, "P-Aqro" MMC, "Azərpambıq" MMC, "Taşobası" MMC və "Aztəsərrüfat" MMC şirkətlərinin filialları tərəfindən 8 min 682 hektarda pambıq əkilib. Keçən il rayon üzrə 29 min 397 ton "ağ qızıl" istehsal edilib. 26 oktyabr 2022-ci il tarixə rayon üzrə 13 min 700 tondan çox pambıq tədarük edilib. Yuxarıda dediyimiz səbəblər üzündən cari ildə yığım həm ləngimiş, həm də məhsuldarlıq xeyli aşağı düşmüşdür. Buna baxmayaraq, fermerlər havaların əlverişli keçən hər saatından, günündən daha səmərəli istifadə edərək, böyük zəhmətlə yetişdirdikləri pambığı son qozasınadək yığmağa səy göstərirlər.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Qeyri-neft sektoru üzrə ixrac 15 faizə qədər artıb

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən verilən məlumata görə, cari ilin yanvar-avqust ayları ərzində Azərbaycanın ümumi ixracı 24,4 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac isə ötən ilin müvafiq dovrü ilə müqayisədə 14,6 faiz artaraq 2,2 milyard dollar təşkil edib. Bu dövr ərzində yeyinti məhsulları üzrə ixrac 571,4 milyon dollara bərabər olub.**



Cari ilin ilk 8 ayı ərzində elektrik enerjisi 3,9 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 3,8 dəfə, qara metal məmulatların ixracı 36,6 faiz, şəkər ixracı 17,9 faiz, meyvə- tərəvəz ixracı isə 7,4 faiz artıb.

Bu dövr ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,4 faiz artaraq 593,9 milyon dollar təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 32,8 faiz artaraq 132,6 milyon dollara qədər yüksəlib. Hesabat dövründə ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi birinci, pomidor (tomat) ikinci, pambıq mahlıcı isə üçüncü yerdə qərarlaşıb. Cari ilin 8 ayı ərzində Rusiya Federasiyasına 721,5 milyon dollar, Türkiyəyə 586,6 milyon dollar, Gürcüstana 219,1 milyon dollar, İsveçrə Konfederasiyasına 86,4 milyon  dollar, Qazaxıstana 72,4 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Avqust ayının qeyri-neft ixracı 203,6 milyon dollar olub ki, bunun da 51,4 milyon dollarını yeyinti məhsulları üzrə ixrac, 152,2 milyon dollarını isə qeyri-yeyinti məhsulları üzrə ixrac təşkil edib. İlin 8-ci ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası birinci, Türkiyə ikinci, Gürcüstan isə üçüncü yerdə qərarlaşıb. Həmin ay ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında şaftalı birinci, ilkin formalı polipropilen ikinci və polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr üçüncü olub.

Bu ilin yanvar-avqust ayları üzrə hazırlanan qeyri-dövlət ixracatı subyektlərinin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: Şirinov Elvin Valeh oglu, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" QSC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Best Logistik" MMC, "STP Global Cable" MMC, "P-Aqro" MMC, "My Fruit" MMC, "Mega Fruit Az" MMC, "Aimeyva" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə "Azərenerji" ATSC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: ARDNŞ-nin Marketinq va iqtisadi əməliyyatlar idarəsi, "Socar Polymer" MMC, "AzaraiOminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yollan" QSC, "Azərbaycan Dəmir Yolları" QSC,  Naxçıvan MR Dövlət Energetika Xidməti.

Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 12,7 milyon dollar dəyərində telekommunikasiya xidməti ixrac edib. Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir. Bu ilin yanvar-avqust aylarında "Azərkosmos" tərəfindən dünyanın 45 ölkəsinə 12,7 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizinə bərabər olub. Avqust ayında isə "Azərkosmos" dünyanın 40 ölkəsinə 1,5 milyon dollar dəyərində xidmət ixrac edib. Bu aylar ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində Birləşmiş Krallıq, Lüksemburq, BƏƏ, Almaniya və Nigeriya qərarlaşıb.

Bu ilin sentyabr ayı ərzində isə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 31,6 milyon dollar dəyərində qeyri-neft ixracı həyata kecirilib. Mərkəzə sentyabr ayında 83 müraciət daxil olub. Müvafiq dövr ərzində 210 ədəd sertifikat təqdim edilib. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pendir, qənnadı məmulatları, nar və narşərab, limonad, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların dondurulmuş əti və kürüsü, iribuynuzlu heyvanların süd məhsulu, tibbi zəli, elektrik mühərriki, su nasosları, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib. Adıçəkilən məhsullar arasında qiymətli metallar, polad armatur yayması, pambıq mahlıcı, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların dondurulmuş əti və kürüsü, meyvə şirələrinin ixracı daha çox olub.

İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, Rusiya, Türkiyə, BƏƏ, Kanada, Litva, Moldova, Avstraliya, Rumıniya, ABŞ, Türkmənistan, Qazaxıstan, Özbəkistan üstünlük təşkil edib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Üçüncü dünya savaşının bəhanəsi Fələstin-İsrail müharibəsi ola bilərmi?

Bəşəriyyət tarixində iki dünya müharibəsi baş verib. Bu cahan savaşlarında milyonlarla insan ölüb və şikəst olub. Ölkələr, şəhərlər və kəndlər xarabalığa çevrilib. İkinci Dünya müharibəsinin sona çatmasından artıq 78 il keçir. Ötən dövrdə "soyuq müharibə" olsa da, "qaynar faza"ya keçməyib. Bir sözlə, insanlar pis-yaxşı əmin-amanlıqda yaşayıblar.

İndi üçüncü dünya müharibəsinin başlanmasından söhbət gedir. Bu barədə dünyanın tanınmış hərbi ekspertlərinin, politoloqlarının və siyasətçilərinin fikri iki yerə bölünür. Belə ki, onların bir hissəsi müharibənin başlandığı qənaətindədir, digərləri isə baş vermədiyini söyləyirlər. Ancaq ikincilər də təsdiq edirlər ki, artıq dünya üçüncü cahan savaşının astanasındadır.

Bəs niyə vaxtaşırı dünya savaşları baş verir? Bu sualın cavabı nə qədər mürəkkəb olsa da, onun bir o qədər də sadə tərəfi var. Ötən iki müharibənin acı təcrübəsindən məlumdur ki, dünyanın aparıcı dövlətləri qlobal hökmranlığa can atanda belə irimiqyaslı dağıdıcı savaşlar baş verir. Söhbət bu dövlətlərin siyasi ambisiyalarından, iqtisadi hərisliyindən və hərbi cəhətdən bəşəriyyətə hökmranlıq etmək istəyindən gedir.

Rusiya sovetlər birliyi dağılandan sonra dünyada ikinci dərəcəli dövlətə, daha doğrusu, regional gücə çevrildi. Bu, Qərbi qane edirdi. Həmin dövrdə iş o yerə çatmışdı ki, Rusiya Qərbin humanitar yardımına möhtac olmuşdu. Lakin bu vəziyyət uzun sürmədi. Şimal qonşumuz neft-qaz hasilatını artıraraq iqtisadiyyatını bərpa etdi, hərbi gücünü artırdı. Güclənən Rusiya yenidən dünya siyasətində söz sahibi olmaq istədi. Fəqət Birləşmiş Qərb bunu qəbul etmədi. Belə olan halda Qərblə Rusiya arasında ziddiyyətlər yenidən dərinləşməyə başladı.

Rusiya-Ukrayna müharibəsi qarşıdurmanı pik nöqtəyə çatdırdı. Bu savaşda demək olar ki, Rusiya təkləndi. Ancaq müttəfiqsiz də qalmadı. Qərbdən narazı olan ölkələr şimal qonşumuzun sırasında yer aldı. Xüsusilə Çinin bu qarşıdurmada Rusiyanı birmənalı dəstəkləməsi tərəflər arasında güc balansının müəyyən qədər tarazlaşmasına imkan verdi.

Əlbəttə, Çinin Rusiyanı müdafiə etməsi səbəbsiz deyil. Amerikanın bir çox nüfuzlu siyasətçiləri açıq şəkildə bəyan edirlər ki, onların milli maraqlarına təhlükə Rusiyadan çox Çindən gəlir. Məlumdur ki, Rusiya hərbi gücdür. Yəni dünyada ən çox atom bombası olan, üstəlik, onu hədəfə çatdırmaq üçün güclü raket sistemlərinə malik ölkədir. Çinin isə belə bir hərbi gücü yoxdur. Əvəzində dünyanın aparıcı iqtisadiyyatına malikdir. Böyük miqdarda dollar və qızılla strateji ehtiyatı var, həm də milli valyutası yuan dünyada dönərli valyuta hesab edilir. Bu hərbi və iqtisadi gücün birləşməsi birmənalı olaraq Qərbin dünyaya hökmranlığının qarşısında duran ən böyük səddir. İndi Qərb bu səddi aşmaq istəyir.

Baş verən Fələstin-İsrail müharibəsi dinlər və sivilizasiyalararası müharibə deyil. Bunu nə qədər belə qələmə vermək istəsələr də, əsl həqiqət böyük dövlətlərin dünyanın təbii resurslarını təkbaşına istismar etmək və bəşəriyyətin qalan hissəsini öz təsiri altında saxlamaq istəməsidir. Məlum olub ki, Qəzzə bölgəsində 19 trilyon kubmetr qaz ehtiyatı var. İndiki Fələstin-İsrail savaşı Qərb üçün göydəndüşmə bir bəhanə oldu. Bu səbəbdən Aralıq dənizinə hərbi donanma gətirib ki, gələcəkdə istismarçı planlarını zor gücünə həll etsin.

Digər bir faktor isə Qərbin ÇXR-in Yaxın Şərqdəki irəliləyişinin qarşısını almaq üçün "Bir kəmər, bir yol" layihəsinə qarşı "Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizi" (İMEC) adlanan nəqliyyat dəhlizi yaratmaq barədə qərarın qəbuluna nail olmasıdır. Ən önəmlisi isə buraya son zamanlar ÇXR-lə yaxşı iqtisadi əlaqələr quran Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və İsrail daxil edilmişdir. Bu isə "əjdahalar ölkəsi"nə edilən ciddi xəbərdarlıqdır. Çin bu gün sahədə ona edilən həmləyə belə cavab verir. Çinin Fələstin-İsrail qarşıdurmasında birincinin tərəfini tutması da ilk növbədə onun iqtisadi maraqlarından irəli gəlir. Bu savaşın uzanması "Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizi" layihəsinin yubanmasına və ya regiondakı qeyri-stabilliklə bağlı ləğvinə səbəb ola bilər.

Amerikanın Aralıq dənizinə təyyarə daşıyan gəmini göndərməsinə qarşı Rusiya Prezidenti açıq şəkildə bildirdi ki, siz bizi bu yolla qorxuda bilməzsiniz, gəmiləriniz raketlərimizin hədəfindədir. Üstəlik, bu bəyanatı Çinə səfəri zamanı təkrar etməsi xüsusi məna daşıyır - tək deyilik.

İndiki vəziyyətdə Qərbdə tam birlik yoxdur. Bir çox ölkələr Amerikanın İsraili birmənalı dəstəkləməsini qəbul etmir. Məsələn, HƏMAS-İsrail müharibəsində qardaş Türkiyə təmkinli siyasət aparır. Bu müharibənin ədalətli həllini istəyir, iki tərəfdən də dinc insanların tökülən qanının dayandırılması üçün diplomatik danışıqlar aparır. Türkiyənin əsas məqsədi regiondakı müharibə ocağının genişlənməsinin qarşısını almaqdır. Ancaq birləşmiş Qərb bunun əksinə hərəkət edir.

Görünən odur ki, üçüncü dünya müharibəsinin başlanma nöqtəsi Aralıq dənizi və Yaxın Şərq regionu ola bilər. Bu baş verərsə, dünyaya misli görünməmiş bir fəlakət gətirər. Yaxın Şərqdə müharibənin alovlanması elə bir iqtisadi fəlakətə səbəb ola bilər ki, onun nəticələrini illərlə qaldırmaq mümkün olmaz. Çünki neft və qaz dünya iqtisadiyyatının qan damarıdır. Əgər Qərb belə bir səhvə yol versə, udan Rusiya olacaq. Belə ki, yenidən neft və qazın qiyməti "ceyran belinə" qalxacaq. Bu isə şimal qonşumuzun karına gələcək. Elə buna görə də Rusiya Amerika ilə bu barədə əks mövqe sərgiləyir.

Amerikanın, İngiltərənin, Fransanın Aralıq dənizinə hərbi donanma göndərməsi qarşılıqsız qalmayıb. Rusiya Suriyadakı hərbi-dəniz bazası ilə oradadır. Çin 6 hərbi gəmi göndərmək barədə qərar qəbul edib. Qardaş Türkiyə ona yaxın bir ərazidə güc nümayişinə cavab olaraq hərbi-dəniz qüvvələrinin təlimi ilə cavab verir, Misir Sinay yarımadasında hərbi təlimlər keçirir.

Dünya xəritəsinə nəzər yetirdikdə görürük ki, Aralıq dənizinin sahilləri Asiyanı, Afrikanı və Avropanı birləşdirir. Əgər üçüncü dünya savaşı baş verərsə, bu ərazilər od içində olacaq.

Burada bir məqama toxunmaq çox vacibdir. Vaxtilə deyilirdi ki, atom bombası dünyanı üçüncü cahan savaşından qoruyacaq əsas çəkindirici vasitədir. İndi görürük ki, tərəflər bir-birilərini lazım gəldiyi anda atom bombası da atmaqla hədələyirlər. Bu isə dünyanı sona gətirib çıxarar. Alimlərin, hərbçilərin hesablamalarına görə, atom silahından kütləvi şəkildə istifadə insanın Yer kürəsindən silinməsi ilə nəticələnə bilər.

Birinci Dünya müharibəsinin başlanmasının bəhanəsi Avstriya-Macarıstan taxt-tacının vəliəhdi Franz Ferdinandın sui-qəsd nəticəsində öldürülməsi oldu. Əslində, ona qədər böyük dövlətlər müharibə üçün hər işi düzüb qoşmuşdu. Qarşı duran tərəflər iki hərbi-siyasi bloka bölünmüşdü. Görəsən, indi üçüncü dünya müharibəsinin bəhanəsi Fələstin-İsrail müharibəsi olmayacaq ki? Əslində, nə Fələstin, nə də İsrail böyük savaşı istəmir. Savaşı istəyən güclər bu iki xalq arasında olan problemin bugünədək həllinə mane olanlardır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***




# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə

**2024-cü il üçün abunə yazılışına başlanılır!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Paşinyanın komandası parçalanır

## Hayastan baş nazirinin anti-Rusiya siyasəti hakimiyyət daxilində narazılığı artırır

Ermənistanda sosial problemlər tükənmir. İşsizliyin və səfalətin gətirdiyi çətinliklər səbəbindən intihar edənlərin sayı da artıb. Hər il Hayastanda 200-dən çox insan ağır həyat şəraiti səbəbindən intihar edir. Bu, ölkənin təxminən bir kəndinin əhalisi qədərdir. Erməni sosioloqlar ölkədəki kriminogen vəziyyət və intiharların artması ilə bağlı narahatlıq keçirirlər.

Bildirilir ki, bu ilin 9 ayı ərzində onsuz da əhalisi az olan ölkədə 100-dən çox intihar hadisəsi baş verib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə çoxdur. İntiharların kökündə dayanan yeganə səbəb isə yoxsulluq, sosial sahədəki problemlərdir.

"4rd.am" nəşri yazır ki, ölkədə orta aylıq əməkhaqqı olduqca aşağı səviyyədədir. Paşinyan iqtidarının milli valyutanın - dramın məzənnəsini saxlamaq üçün göstərdiyi cəhdlər heç bir nəticə vermir. Çünki normal iqtisadiyyatı olmayan ölkədə inflyasiyanın həcmi gün keçdikcə bir qədər də artır. Hətta milli valyutanın məzənnəsini saxlamaq məqsədilə Hayastan Mərkəzi Bankının indiyədək ayırdığı vəsaitlərin belə problemin yoluna qoyulmasında heç bir təsiri olmayıb. Ölkənin xarici borcu artıq ümumi daxili məhsulun 60-70 faizini üstələyir.

Ancaq hakimiyyəti sosial problemlər heç də maraqlandırmır. Belə ki, Nikol Paşinyan Hayastanda öz yerinə Rusiyayönlü qüvvə və ya fiqurun gələcəyindən ehtiyat edərək, hələ də Qərbdən dəstək almağa, hakimiyyətini saxlamağa çalışır.

Diplomatik korpusa Paşinyan hakimiyyətinin üzləşdiyi təhlükələr barədə müxtəlif ölkələrin hakimiyyət orqanlarını məlumatlandırmaq da tapşırılıb. Bir vaxtlar Rusiyada Hayastana lobbiçilik edən qüvvələr də indi tamam əks mövqe sərgiləyirlər. Əsas səbəb kimi də o göstərilir ki, Paşinyan anti-Rusiya siyasəti yürüdür və Qərbdən gələn göstərişlər əsasında hərəkət edir. Açıq qeyd olunur ki, Paşinyan Hayastanın ənənəvi strateji müttəfiqi olan Rusiya ilə münasibətləri korlamaq xəttini seçib.

"Joqovurd" qəzeti yazıb ki, Hayastanın hakim Vətəndaş Müqaviləsi Partiyasında baş nazir Nikol Paşinyanın anti-Rusiya siyasəti ilə bağlı dərin, lakin səssiz fikir ayrılığı var, bu da siyasi təşkilatda parçalanmaya yol aça bilər. Bildirilib ki, partiya üzvləri bir-biri ilə söhbətlərində Paşinyanı və onun anti-Rusiya siyasətini tənqid edirlər, amma bu fikirləri qətiyyən ucadan səsləndirmirlər. Məlumata görə, Nikol Paşinyan Vətəndaş Müqaviləsi Partiyasının son iclasında üzvlərə fəal şəkildə anti-Rusiya arqumentini irəli sürməyi və keçmiş idarəçilərin Rusiyanın köməyi ilə hakimiyyətə qayıtmaq istəyini ictimaiyyətə bildirməyi tapşırıb.

Qəzetdə qeyd olunub ki, anti-Rusiya əhvali-ruhiyyəsinin ardıcıl olaraq dərinləşməsi partiya içərisində parçalanmaya səbəb ola bilər, çünki siyasi təşkilatın üzvlərinin özləri bu istiqamətdə həyəcan təbili çalırlar.

İndi Hayastanda belə hesab olunur ki, mövcud problemlərin meydana gəlməsi və dərinləşməsində Paşinyan iqtidarının yarıtmaz siyasəti əsas rol oynayır. Bu isə o deməkdir ki, İrəvanı qarşıdakı dövr ərzində ağır günlər gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Lənkəranda kulinariya festivalı - "Bir cənub şəhərində"







Azərbaycanın cənub bölgəsinin mirvarilərindən olan Lənkəran heyrətamiz qastronomik zənginliyi ilə seçilir. Buna görə UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil edilən Lənkəranın mətbəxi cənub bölgəmizdə unikallığı ilə fərqlənir.

Lənkəran mətbəxini fərqli edən cəhətlər nəsildən-nəslə ötürülərək, günümüzə qədər olduğu kimi gəlib çatıb. Bu mətbəxin təqdim etdiyi təamların hər biri özündə bölgənin zəngin süfrə mədəniyyətinin tarixi izlərini daşıyır. Belə bir kulinar irsə malik olan Lənkəran, təbii ki, hər zaman dünya qurmanlarının diqqətini cəlb edib. Azərbaycan qastronomiyasının sehrini kəşf etməyə çalışanlar daim mətbəxlə mədəniyyətin üzvi şəkildə birləşdiyi bu regiona can atıblar.




Oktyabrın 28-də "Diyar.az" komandası, Azərbaycan Dövlət Reklam Agentliyi, Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi, "Khazar Palace Lankaran" və tanınmış aşpaz Nüsrət Səlimlinin birgə təşkilatçılığı ilə Lənkəranda "Bir cənub şəhərində" adlı kulinariya festivalı keçirilib.

Azərbaycanın qastronomik xəritəsi olan "Diyar.az" platformasının müəllifi və rəhbəri Nigar Əmirbəyova AZƏRTAC-a bildirib ki, festivalın keçirilməsində məqsəd iştirakçıları Lənkəran bölgəsinin ləziz mətbəxi ilə elə yerli aşpazların təqdimatında tanış etməkdir.

Festivalın bölgənin mətbəxinin tanıdılmasında mühüm rol oynayacağına əmin olduğunu deyən N.Əmirbəyova qeyd edib ki, burada bütün yeməklər elə festivalda iştirakçıların gözü qarşısında bişirilir və təqdim olunur: "Festivalda hər bir aşpaz bişirdiyi yemək barədə məlumat verir, necə bişirildiyini göstərir. Yəni yeməyi necə təqdim etmək lazımdır, bu, çox vacibdir. Başqa bölgədən olan aşpazlar cənub bölgəsinin yeməklərini buradakı aşpazlar kimi təqdim edə bilməzlər".

Onun sözlərinə görə, "Bir cənub şəhərində" qastronomik festivalı həm də turistlərin bölgəyə cəlb olunmasına öz töhfəsini verəcək. "Mən 30 ildir bu işlə məşğulam, Azərbaycanın qastronomik xəritəsini toplayıram, hansı bölgədə hansı yeməklər bişirilir. Ona görə də, tövsiyə edərdim ki, belə ləzzətli dadlarla tanış olmaq üçün onları hotellərdə yox, bu cür festivallarda, yerlərdə axtarsınlar", - deyə N.Əmirbəyova bildirib.

Gün boyu davam edən festivalda iştirakçılar cənub mətbəxinin ən yaxşı aşpazlarının hazırladıqları yeməklərin sirlərini öyrənib, əyləncəli müsabiqələrdə iştirak ediblər.

Festival çərçivəsində musiqi nömrələri və rəqslər də nümayiş olunub.

# Bəzi bölgələrdə 30 dərəcə isti olacaq




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Gündüz arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 15-18°, gündüz 21-25° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 762 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-65 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 22-27° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 16-21° isti olacağı gözlənilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 13-18° isti, bəzi yerlərdə 22°-dək isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 24-29° isti olacağı bildirilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 22-27° isti, dağlarda gecə 7-12°, gündüz 17-22° isti olacağı ehtimal edilir.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 25-30° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-18°, gündüz 23-28° isti, dağlarda gecə 13-17°, gündüz 20-25° isti olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi energetika nazirinin müavini Kamal Abbasova anası

**ŞÖLƏ İSMAYILOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Abşeron Rayon Vəkil Bürosunun kollektivi Abşeron Rayon Məhkəməsinin sədri Elçin Kazımova anası

**ZEYNƏB XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5317
Sifariş 2772

Qiymәti 40 qəpik